*AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ*

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL İNSTİTUTU**

# MƏKTƏBƏQƏDƏR TƏHSİLİN KURİKULUMU

**(Layihə)**

**BAKI -2017**

## MÜNDƏRİCAT

**I hissə. Məktəbəqədər təhsilin kurikulumu**

**İzahat vərəqi**

**I. Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətləri**

1.1. İnkişaf sahələrinin xarakteristikası
1.2.1-3 yaş dövrünün inkişaf xüsusiyyətləri
1.3. 3-6 yaş dövrünün inkişaf xüsusiyyətləri

**II. Məktəbəqədər təhsilin məzmunu**

2.1. Məktəbəqədər təhsilin ümumi təlim nəticələri.
2.2. Məktəbəqədər təhsilin məzmun standartları
2.3. İnteqrasiya

**III. Məktəbəqədər təhsil strategiyaları**

3.1. İnkişaf və təlim strategiyalarının mahiyyəti
3.2. Təlimin təşkili və ona verilən tələblər
3.3. Təlimin forma və üsulları
3.4. Təlimin planlaşdırılması

**IV.Uşaq inkişafının dəyərləndirilməsi**

4.1.Uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsi
4.2. Dəyərləndirmənin aparılmasına verilən tələblər
4.3. Dəyərləndirmənin metod və vasitələri

**II hissə. Kurikulumun şərhi**

1. **Məktəbəqədər yaşlı (1-6 yaş) uşaqların inkişaf xüsusiyyətləri və gün rejimi.**
2. **Məktəbəqədər təhsilin məzmunu.**

2.1. Müxtəlif fəaliyyət növlərində uşaqların inkişafı və təliminin məzmunu.
2.2. Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin adı, həftəlik miqdarı və müddəti
2.3. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi

3. **Məktəbəqədər təhsil strategiyaları**

3.1.İnkişafetdirici təlim mühitinin təşkili
3. 2. İnkişaf və təlim strategiyalarının mahiyyəti
3.3.Təlim strategiyalarından istifadə
3.4. İş formaları və iş üsulları
3.5.Təlimin planlaşdırılması və təlimin təşkili metodikası. *Məşğələ nümunələri.*
3.6. Ailələrlə əməkdaşlığın təşkili məsələləri

**4.Uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə dair**

4.1. Dəyərləndirmənin əsas məqsədi
4.2.Uşaq inkişafının izlənilməsinin təşkili
4.3. Dəyərləndirmənin metod və vasitələri
4.4. Dəyərləndirmənin aparılmasına verilən tələblər

**Cədvəllər**
**Tezarus**
**Ədəbiyyat siyahısı**

## İzahat vərəqi

**Məktəbəqədər təhsilin əhəmiyyəti.** Məktəbəqədər təhsil Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin ilk pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən prioritet fəaliyyət sahəsidir.

Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərətərəfli ünsiyyət qurmaq və ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə edir.

Məktəbəqədər təhsilin məqsədi erkən yaş dövründən başlayaraq uşaqların əqli, fiziki və yaradıcı potensialının, mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının və sağlamlığının, mühafizəsinin, ətraf aləmə həssas (şüurlu) münasibətinin və şəxsiyyətinin formalaşdırılmasından ibarətdir.

Məktəbəqədər təhsil məktəbəqədər yaşlı uşaqların zəruri həyati bacarıqlara yiyələnmələrini və məktəb təhsilinə hazırlığını təmin edir.

Məktəbəqədər təhsil uşaqların tərbiyəsinin milli-mənəvi və bəşəri dəyərlər ruhunda, milli dövlətçilik və azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılmasını təmin edir.

Məktəbəqədər yaş dövründə ən optimal inkişaf mərhələsi keçən sahələrdən biri də **- davranışdır.** Erkən yaşlarda sensor və emosional təsirlərə daha çox məruz qalan uşaq davranışı 3 yaşdan başlayaraq artıq bütün quruluşları ilə birgə məqsədəuyğun istiqamətdə inkişafa yönəlir. Bu dövrə qədər əldə olunun psixofizioloji və psixososial imkanlar ona daha mürəkkəb münasibətlər sisteminə daxil olmağa, koqnitiv proseslərlə müşayiət olunan əqli tapşırıqları yerinə yetirməyə, məntiqi mühakimə yürütməyə imkan verir.

Məktəbəqədər yaş dövründə əsas istiqamətverici faktorlardan biri-**motivasiyadır**. İnsanın həyatında mühüm rol oynayan maraqlar, sosial yönəlmələr, ətrafdakı insanların, mühitin tələblərinə uyğunlaşmaq xüsusiyyəti də məktəbəqədər yaşın sonunda uşağın motivasiya sahəsində toplanır. Motivasiya sahəsinin yaranması rollu oyun fəaliyyəti ilə sıx bağlı olur. Nəticədə uşağın fəaliyyətində hissi-perseptiv qavrama arxa plana keçməyə başlayır. Onun hərəkətləri emosional təsirlərdən təmizlənərək daha şüurlu, iradi məzmun alır.

**Məktəbəqədər təhsilin məqsədi və vəzifələri.**

-Hər bir uşağın keyfiyyətli məktəbəqədər təhsilinin təmin edilməsi;

- fiziki, psixi və mənəvi sağlamlığının qorunmasının təmin edilməsi;

-özünə, ailəsinə, Vətənə məhəbbət, millətinə, dilinə, dininə, dövlət rəmzlərinə, Azərbaycan xalqının, həmçinin digər xalqların milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə edilməsi;

-uşaq şəxsiyyətinin formalaşdırılması;

-uşağın ehtiyaclarının müəyyən edilməsi və ona müvafiq xüsusi, inklüziv təhsil və əlaqədar xidmətlərin göstərilməsi;

- sosial-pedaqoji baxımdan ailənin dəyərli üzvü kimi inkişafının təmin edilməsi;

- təhsilin baza komponentləri əsasında sosiallaşma tələbatının yaradılması;

-uşaqlarda sağlam həyat tərzi üzrə ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması.

**Məktəbəqədər təhsilin fəlsəfəsi.** Bütün məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsillə əhatə edilməsi, onların hərtərəfli inkişafı, uşaqların idraki fəallığı, inteqrativ və interaktiv təlimi, tərbiyəçi-müəllimin səriştəliliyi, təhsilin demokratik prinsiplərlə idarə edilməsinin qanunauyğunluqları məktəbəqədər təhsilin fəlsəfəsini müəyyən edir.

**Məktəbəqədər təhsilin prinsipləri aşağıdakılardır**:

-Məktəbəqədər təhsil sistemində göstərilən təhsil xidmətlərinin hər bir vətəndaş üçün əlçatan olması;

-Uşağın inkişafında şəxsiyyətyönümlü yanaşmadan istifadə edilməsi;

-Təlim-tərbiyə, sağlamlıq və uşaqlara qulluq işində vahidlik;

-Məktəbəqədər və ibtidai təhsil arasinda varislik;

-Pedaqoji prosesin humanistləşdirilməsi və demokratikləşdirilməsi;

-Müxtəlif fəaliyyət növlərində uşaq təşəbbüsünün müdafiə edilməsi;

-Hər bir uşağın hərtərəfli inkişafında tələbat və maraqlarının, qabiliyyət və istedadının reallaşdırması üçün bərabər şəraitin yaradılması;

-Uşaqların idraki maraq və fəaliyyətinin formalaşdırılması;

-Nəticəyönümlük;

- Təlimin differensiallaşdırılması və fərdiləşdirilməsi;

-İnteqrativlik;

-Tələbyönümlük;

-Təhsildə müasirlik, millilik, azərbaycançılıq və dünyəvilik;

-Uşaqların məktəb təliminə hazırlanmasının zəruriliyi;

-Təhsilin keyfiyyətliliyi; (təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;).

**Məktəbəqədər təhsilin kurikulumunun xüsusiyyətləri.**

- Nəticəyönümlülük.
- Uşaqyönümlülük.
- İnkişafyönümlülük.
- İnteqrativlik.
- Tədqiqatyönümlülük.
- Inklüzivlik.
- Uşaq nailiyyətlərinin dəyərləndirilməsi.

# I. Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətləri

## 1.1. İnkişaf sahələrinin xarakteristikası

Məktəbəqədər təhsilin məzmunu keyfiyyətli məktəbəqədər təhsil almağa imkan verir. Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətləri ondan ibarətdir ki, onların nailiyyətləri bilik, bacarıq və vərdişlərin konkret sayı ilə deyil, şəxsi keyfiyyətləri, o cümlədən uşağın məktəbə psixoloji hazırlığını təmin edən səriştələri ilə müəyyənləşir.Yeni məzmuna görə məktəbəqədər müəssisələrdə köhnə təlim modelindən imtina zəruridir. Standartlar pedaqoji prosesdə tərbiyəçi-müəllimlərdən yeni iş formalarına müraciət etməyi tələb edir. Qeyd etmək lazımdır ki, standartlar uşaqların təlim yükünün azaldılmasına istiqamətlənmişdir. Hər bir uşağa fərdi yanaşma nəzərdə tutulmuş, uşaqların inkişafı üzrə vəzifələrin 4 inkişaf sahəsi üzrə: Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik, İdrak, Estetik və yaradıcı, Sosial-emosional üzrə inkişafının həyata keçirilməsi müəyyənləşdirilmişdir. Təqdim edilən məzmun uşaqlarda təlimə, yaradıcılığa və dərketməyə maraq yaranmasına istiqamətlənmişdir.

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik.** Məktəbəqədər dövrdə sağlamlığın, hərtərəfli hərəki hazırlığın və ahəngdar fiziki inkişafın əsası qoyulur. Bu dövrdə düzgün təşkil edilmiş fiziki tərbiyə yaxşı bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların və uşaq orqanizminin fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi sanitar-gigiyenik qulluğun təminatı, sağlamlaşdırıcı tədbirlərin keçirilməsi – hava, günəş və sudan geniş istifadə olunması, rasional qidalanma, gimnastikanın, düzgün gün rejiminin təşkili (yuxu, asudə vaxt, təlim prosesi) və hərəkət aktivliyinin təmin olunması uşaqların sağlam həyat tərzi keçirmələrini təmin edir. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşaqların hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması, bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, onlarda uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunur. Təhlükə və çətinliklərə hazırlıq, yol-hərəkəti qaydaları, ekstremal vəziyyətlərdə və təhlükəli situasiyalarda necə hərəkət etmək haqqında ilkin təsəvvürlərin formalaşdırılmasına, məişətdə ehtiyatlı, küçədə mədəni davranmaq, təbii hadisələr və yanğın zamanı vəziyyətdən çıxmaq qaydalarının mənimsənilməsinə, ekoloji mədəniyyətin formalaşdırılmasına imkan yaranır.

**İdrakın inkişafı.** Uşağın idrakı inkişafı mürəkkəb prosesdir. Onun öz istiqamətləri, qanunauyğunluğu və xüsusiyyətləri var. ***İdraki inkişafın məqsədi*** idraki maraqların, uşağın tələbat və bacarıqlarının, onun emosional-hissi təcrübə əsasında müstəqil axtarıcılıq fəaliyyətinin formalaşdırılmasıdır. Bununla yanaşı, sensor, nitq inkişafı, idraki qabiliyyətlərin (müqayisə etməyi, fərqləndirməyi, ümumiləşdirməyi bacarmaq), ətraf aləm haqqında ilkin təsəvvürlərin və anlayışların, əşyavi fəaliyyətin, dərketmə tələblərinin formalaşdırılmasının (informasiya almaqda tələb, təlim zamanı fəallıq, ətraf aləmin dərk edilməsində müstəqillik) bünövrəsinin bu dövrdə qoyulmasıdır. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə etmək, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün,

sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək kimi qabiliyyətlər nümayiş etdirirlər. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir. Riyazi tapşırıqların həlli zamanı uşaqlarda induksiya və deduksiya, təhlil və tərkib, təsnifetmə və sistemləşdirmə, ümumiləşdirmə kimi mühakimə qabiliyyətlər inkişaf edir. Tənqidi, məntiqi, yaradıcı təfəkkürün inkişafını təmin edir.

**Estetik və yaradıcı inkişaf.** Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. Bu sahədə aparılan işlər estetik tərbiyənin vəzifələrinə daxildir. Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı və uşaq musiqi alətlərində ifa, rəqs məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır. Yaradıcı əməli fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları, digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Estetik tərbiyə həmçinin, təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə gözəlliyi görmək bacarığını və yaradıcı qabiliyyətlərin formalaşmasına (musiqi duyumu, təsviri fəaliyyət) imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur.

**Sosial-emosional inkişaf.** Uşaq üçün erkən yaş dövrü davamlı olmayan emosional əhvali-ruhiyyə, emosiyaların yaranması, həssaslığı ilə səciyyələnir. Bütün bunlar uşaqlarla psixoloji işin əsas istiqamətlərini - uşağın həyatının emosionallığı və onun tənzimlənməsinə köməyi müəyyən edir. Məktəbəqədər yaşlı uşaqlarda sosial və emosional keyfiyyətlər vəhdətdə inkişaf edir. Uşaq özünün emosional əhvalını məhz yaşadığı sosial mühitin normaları əsasında tənzimləyir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq, münaqişələrin həlli və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Uşaqlar oyun, əmək və əməli fəaliyyətə, kollektivdə davranma qaydalarına dair ilkin bacarıqlara yiyələnirlər. Bu dövrdə uşaqların böyüklərlə və yaşıdları ilə ilkin qarşılıqlı fəaliyyətinin müxtəlif formaları yaranır. Ünsiyyətin köməyilə birgə fəaliyyətin müxtəlif növlərində şəxsiyyətlərarası əlaqələr, böyüklərə hörmət, yaşıdlarına güzəşt, qarşılıqlı təsir və qarşılıqlı anlaşma təmin olunur. Beləliklə, ünsiyyət uşağın sosial şəxsiyyət kimi formalaşmasında əsas vasitəyə çevrilir.

## 1.2. 1-3 yaş dövrünün inkişaf xüsusiyyətləri

Son 20 il ərzində antropologiya, inkişaf psixologiyası, tibb elmi, sosiologiya və təhsil sahəsində dünyada həyata keçirilmiş tədqiqatlar nəticəsində sübut olunub ki, erkən təlim- uşaq anadan olandan başlayır və uşağın intellektual inkişafı, şəxsiyyətinin formallaşması, ictimai davranışının əsasları birbaşa məhz bu dövrdə inkişafından, aldığı təhsildən asılıdır. Erkən dövr (1-3 yaşadək dövr) uşaq şəxsiyyətinin fiziki, psixi və sosial inkişafının ilkin mərhələsidir.

Erkən uşaqlıq dövründə uşağın boyu ildə orta hesabla 4-5 sm, çəkisi 1-2 kq artır. Erkən yaş dövrü (1-3) məktəbəqədər yaşlı uşağın fiziki və psixi inkişafında mühüm mərhələdir. Bu dövrdə baş beyin yarımkürələrinin funksiyalarının inkişafında keyfiyyətli dəyişikliklər baş verir, əsəb sisteminin işləmək qabiliyyəti böyüyür, təqlidetmə formalaşır, yerimə, nitq fəal inkişaf edir.

Nitqin təşəkkülü və əyani-əməli təfəkkürün formalaşması bu yaş dövründən başlayır. Uşaqda ilk dəfə "mən", "mən özüm" kimi şüurlu təzahürlər meydana çıxır. Uşaq daha hərəkətli və müstəqil olur. Bu da böyüklərdən onun təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirilməsini tələb edir. Uşağın tanış böyüklər və yaşıdları hesabına ünsiyyət dairəsi genişlənir. Ünsiyyət, əşyavi-manipulyativ fəaliyyətlər uşağın dili fəal mənimsəməsinə aparır və onu oyuna hazırlayır. Əşyalarla fəaliyyətin təsiri altında ünsiyyət və oyun zamanı uşaqlarda təfəkkür, yaddaş, duyğu və digər idraki proseslər inkişaf edir.

Erkən məktəbəqədər dövr inkişaf və təlim üçün böyük imkanlar vaxtıdır. Bu zaman uşaqlar səmimi münasibətlər, müzakirələr, tədqiqat və oyunlar vasitəsilə öyrənirlər. Onlar dili, ondan necə və nə vaxt istifadə etməyi öyrənirlər; kiçik uşaqlar başqaları və ətraf mühit ilə qarşılıqlı fəaliyyətdə öyrənirlər. Onlar da böyük uşaqlar kimi özləri barədə qərarlar qəbul etmək, onlar haqqında yaradıcı və təşəbbüskar olmağı öyrənirlər.

Həyatının ilkin illərində uşağın inkişafı ilə əlaqədar onun idrak fəallığı idraki fəaliyyətə getdikcə daha çox yaxınlaşır. Məktəbəqədər dövrdə uşaqlarda dünyanın bütün sonrakı həyatı boyunca təkmilləşdiriləcək ilkin elementar obrazı yaranır. Məktəbəqədər yaşlı uşağın böyüklərin təsiri ilə şərtləndirilmiş inkişaf və özünü inkişaf etdirmə prosesi çox sıx qarşılıqlı əlaqəlidir.

Erkən yaşlı uşağın həyatında hissi (sensor) təcrübənin əhəmiyyəti böyükdür. Sensor inkişaf uşaqlarda duyğu proseslərinin, ətraf aləmin əşya və hadisələri haqqında təsəvvürlərin inkişafıdır. Uşaq dünyaya hazır hiss orqanları ilə göz açır. Onun gözü, qulağı, dərisi həssasdır. Bu ətraf aləmin dərk edilməsi üçün zəmin yaradır. Erkən yaşlı uşaqların sensor inkişafı-onun qavramasının inkişafı və əşyaların xarici xüsusiyyətləri: onların forma, rəng, həcm, məkanda yerləşməsi, eyni zamanda qoxu, dad və s. barədə təsəvvürlərin formalaşdırılmasıdır.

Sensor inkişafın tam aparılması üçün sensor tərbiyə işi məqsədyönlü təşkil olunmalıdır.

Hər yaş mərhələsində uşaq bu və ya digər təsirlərə qarşı həssas olur. Bununla əlaqədar məktəbəqədər yaşlı uşağın hər yaş pilləsi sonrakı əsəb-psixoloji inkişafı və hərtərəfli tərbiyəsi üçün əlverişli olur. Uşağın həyatında hissi təcrübənin əhəmiyyəti böyükdür. Erkən uşaqlıq mərhələsində əşyaların xüsusiyyətləri ilə tanışlığın əhəmiyyəti böyükdür.

0-2 yaş insan həyatında beynin ən sürətli və intensiv inkişaf dövrüdür. Bu həlledici illər zamanı uşağa qarşı etinasiz münasibət onun sonrakı həyatına uzunmüddətli və mənfi təsir etmək gücündədir.

Erkən yaş dövründə (1-3 yaş) uşaq böyüklərin köməyi ilə əşyalardan istifadənin üsullarını öyrənirlər. Onda əşyalarla fəaliyyət fəal inkişaf etməyə başlayır. Bütün orqanizmin inkişafı davam edir və onların funksiyaları təkmilləşir. Erkən uşaqlıq dövrü 2 mərhələyə ayrılır:

- *çağalıq dövrü (anadan olandan 1 yaşadək);*
- *körpəlik dövrü (1 yaşdan 3 yaşadək).*

## 1.3. 3-6 yaş dövrünün inkişaf xüsusiyyətləri

**3-6** yaş dövrü uşaqların inkişafında çox mühüm dövrdür. Məhz bu dövrdə uşaqların beyin hüceyrələrinin artması və onlar arasında əlaqələrin qurulması prosesi baş verir. Bunun da

nəticəsində uşağın düşünmə, qavrama və ətraf mühitdə insanlar və əşyalarla qarşılıqlı təsir istiqamətində daha mürəkkəb mərhələyə keçməsi üçün zəruri dəyişikliklər baş verir. Beyinin düzgün inkişafı şəraitində potensial dərketmə qabiliyyətlər artır. Əslində beyin o vaxt düzgün inkişaf edir ki, uşaq müsbət (özünü sevilən hiss edir) psixoloji və stimullaşdırıcı (uşağın ətrafında olan böyüklər: ana, Tərbiyəçi-müəllim-müəllim və b.) mühitdə böyüyür.

Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, idrakı və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılması, məktəbə hazırlanması, sadə əmək vərdişlərinə yiyələnməsi, istedad və qabiliyyətlərnin üzə çıxarılması, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin, hisslərin və həyati bacarıqların formalaşmasında mühüm rol oynayır. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür və qrup şəraitində böyüklər və yaşıdları ilə hərtərəfli ünsiyyət qurmaq, ünsiyyət bacarıqlarını inkişaf etdirmək imkanı əldə edir.

Məktəbəqədər təhsil müəssisəsi də öz növbəsində uşağın ətraf aləmlə qarşılıqlı harmoniyasını təmin etməyə, xeyirxah hisslər oyatmağa, əməkdaşlığa və müsbət özünütəsdiqə nail olmağa qadirdir. Məhz bu dövrdə uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər, təfəkkür elementləri formalaşır, ətraf aləmin hadisələri, qanun və qanunauyğunluqları arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək və əldə edilmiş bilikləri praktik fəaliyyətdə müstəqil tətbiq etmək bacarığı yaranır. Uşaqlar fakt və hadisələri müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxartmaq kimi bacarıqlara yiyələnirlər.

Uşaq şəxsiyyətinin inkişafı üçün şərait yaradan sosial mühitdə ünsiyyətin rolu böyükdür. Ünsiyyət prosesində maddi və mənəvi dünyanın, təbiət, əşya və sosial aləmin dərk olunması, şəxsiyyətlərarası münasibətlərin inkişafı, emosional və iradi mədəniyyətin təşəkkül tapması baş verir. Ünsiyyət yeni sosial mühitə uyğunlaşmağa imkan yaradır. Ünsiyyət vasitəsilə uşaq özünü ifadə edir, digərlərini başa düşür, cəmiyyətdə öz yerini və vacibliyini dərk etməyiə çalışır. Bunun üçün müvafiq bacarıqların mənimsənilməsi zəruri hesab edilir. Kommunikativ bacarıqlara nail olmaq uşağın sosial davranışını yaxşılaşdırır: digərini başa düşüb qəbul etməyə, məlumat verməyə, hisslərini ifadə etməyə, bütövlükdə nitq inkişafına imkan yaradır. İlkin qazanılan bilik, bacarıq və vərdişlər, milli-mənəvi keyfiyyətlər şəxsiyyətin həyat mövqeyini müəyyənləşdirir. Müasir təhsil modelində məktəbəqədər təhsilə ümumi təhsilin birinci pilləsi, uşaqların məktəb təliminə müvəffəqiyyətlə keçidi üçün bərabər imkanların yaradılmasının əsası kimi baxılır. Bu yaş mərhələsində nəinki bütün uşaqlar üçün ümumi olan xarakter cizgiləri, həm də xüsusi, fərdi psixi və davranış xüsusiyyətlərinin açılmasına və inkişafına nail olunur. Məktəbəqədər yaş dövründə uşaqlarda hərəkətliliyə tələbat güclənir, operativ hafizə inkişaf edir, hərəkətlərin dəqiqliyi, uyğunluğu, ayrılmazlığı yaranır. Bütün hərəki fəaliyyətlər dərk olunur, dinamik və məqsədyönlü xarakter daşıyır. Fiziki və idraki çalışqanlıq artır. Xarakter, əqli və iradi keyfiyyətlər, motiv formalaşır. Məktəbəqədər təhsil ibtidai təhsilə keçid ərəfəsində (5-6 yaş dövrü) uşağın həm məktəbdə, həm də sonrakı həyatda uğurlar qazanmasında həlledici rol oynayır. Məktəbəqədər təhsil pilləsində uşaqların təhsil alması, təlim-tərbiyə işinin daha səmərəli qurulması tələb olunur. Bu zaman psixologiya, pedaqogika, sosiologiya, biologiya və digər elmlərin nailiyyətlərinə, milli mədəniyyətə, adət-ənənələrə, eləcə də müasir dünya təcrübəsinə istinad olunması zəruri hesab edilir. Bunlarla yanaşı, uşaqların ümumi inkişafı,

onların şəxsiyyətinin formalaşdırılması, təlim-tərbiyənin səmərəliliyinin artırılması, inkişaf və davranışda baş verə biləcək ləngimələrin, pozuntuların aradan qaldırılması, "uşaq-uşaq", "Tərbiyəçi-müəllim-uşaq", "valideyn-tərbiyəçi-müəllim" münasibətlərinin, eləcə də kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılır.

# 2. Məktəbəqədər təhsilin məzmunu

## 2.1. Məktəbəqədər təhsilin ümumi təlim nəticələri

### 2.1.1. Körpələr qrupu (1-3 yaş) üzrə ümumi təlim nəticələri:

- sadə fiziki hərəkətləri yerinə yetirir;
- sadə gigiyena qaydalarına əməl edir;
- masa arxasında davranışını ümumi qaydalara əsasən tənzimləyir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları sadalayır;
- özünü, ailə üzvlərini və Vətənini adlandırır;
- sadə suallar əsasında danışır;
- müşahidə etdiyi əşyaları adlandırır;
- sadə riyazi təsəvvürlərə malik olduğunu nümayiş etdirir (az, çox, boyük, kiçik, uzun, qısa);
- ölçü anlayışını başa düşdüyünü nümayiş etdirir;
- dairəvi əşyaları adlandırır;
- təsvir vasitələrindən təyinatına görə istifadə edir;
- rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır;
- hərəkətlərini musiqinin melodiyasına uyğunlaşdırır;
- ilkin ünsiyyət bacarıqları nümayiş etdirir;
- hissləri başa düşür və adekvat cavab verir.

- hissləri başa düşür və adekvat cavab verir.

### 2.1.2. Orta qrup (3-4 yaş) üzrə ümumi təlim nəticələri:

- fiziki hərəkətləri müvazinətini saxlayaraq yerinə yetirir;
- ilkin gigiyena qaydalarını mənimsədiyini nümayiş etdirir;
- masa arxasında yemək dəstindən istifadə bacarığını nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə görə fərqləndirir;
- özü, ailəsi və Vətəni haqqında suallara cavab verir;
- əşyalar və sadə süjetli şəkillər üzrə danışır;
- müşahidə etdiyi əşyaları fərqləndirir;
- əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- əşyaları forma və ölçüsünə görə fərqləndirir;
- həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır;
- sadə təsvirlər çəkir;
- təsvirlərində uyğun rənglərdən istifadə edir;
- musiqini anladığını ifa bacarığı ilə nümayiş etdirir;
- sadə ünsiyyət etiketlərinə əməl edir;
- arzu, hiss və istəklərini ifadə edir.

### 2.1.3. Böyük qrup (4-5 yaş) üzrə ümumi təlim nəticələri:

- fiziki hərəkətləri verilən komandaya uyğun yerinə yetirir;
- müəyyən olunmuş gigiyena qaydalarına əməl edir;

- masa arxasında mədəni-davranış qaydalarına əməl edir;

- həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyalarla təhlükəsiz davranma bacarıqları nümayiş etdirir;

- özü, ailəsi və Vətəni haqqında məlumat verir;

- müşahidə etdikləri barədə danışır;
- ətraf aləmdə baş verən hadisələri adlandırır;
- əşyalarla 5 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- əşyaları forma, ölçüsünə və sayına görə qruplaşdırır;
- həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) fərqləndirir;
--məkana və zamana görə hərəkətlərinin ardıcıllığını təyin edir;
- verilmiş süjet əsasında təsvirlər çəkir;
- rəng çalarlarını fərqləndirir;
-musiqini xarakterinə görə fərqləndirir;

- əməkdaşlıq bacarıqları nümayiş etdirir;

- digərlərinin arzu və istəklərtini dəyərləndirir.

**2.1.4. Məktəbəhazırlıq qrupu (5-6 yaş) üzrə ümumi təlim nəticələri:**

- fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri yerinə yetirir;
- gigiyena qaydalarını özünənəzarət əsasında nümayiş etdirir;
- masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir;
- həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir;
- özü, ailəsi və Vətəni haqqında kiçik təqdimatlar edir;
- verilmiş mövzu ətrafında danışır;
- ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir;
- hərf və səsləri fərqləndirir;
- hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;
- kəsmə əlifba vasitəsi ilə sözlər düzür;
- əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
- hadisələri məkan və zamana görə müqayisə edir;
- həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) tətbiq edir;
- sadə kompozisiyalar qurur;
- təsvir prosesində rəng çalarlarından istifadə edir;
- ifaçılıq bacarıqları nümayiş etdirir;
- ünsiyyətini sosial normalara əsasən tənzimləyir;
- birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

## 2.2. Məktəbəqədər təhsilin məzmun standartları.

| 1-2 yaş | 2-3 yaş | 3-4 yaş | 4-5 yaş | 5-6 yaş |
|---|---|---|---|---|
| **I. Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** | | | | |
| **1.1. Fiziki hərəkətləri yerinə yetirir.** | | | | |
| 1.1.1.Sadə fiziki hərəkətləri (sərbəst yeriyir, 3-4 metr məsafəyə qaçır və maneələrdən yan keçir) yerinə yetirir; | 1.1.1.Sadə fiziki hərəkətləri (yeriş və qaçış hərəkətlərini icra etmək; yerişdən qaçışa, qaçışdan yerişə keçmək, sürünmə; dırmanma; topu bir-birinə tərəf atmaq, müvazinətini saxlamaqla yeriş; və tutmaq) yerinə yetirir; | 1.1.1.Fiziki hərəkətləri (müxtəlif istiqamətlərə yeriş və qaçış hərəkətlərini icra etmək; dırmanma, gimnastik skamyanın üstü ilə sürünmək və kürəciyi bir-birinə tərəf diyirlətmək) müvazinətini saxlayaraq yerinə yetirir; | 1.1.1.Fiziki hərəkətləri (müxtəlif istiqamətlərə yeriş və qaçış; müxtəlif əşyaların üstü və arası ilə sürünmə; gimnastika nərdi vanına dırmanma; müxtəlif hərəkətləri yeri nə yetirərkən müvazinətini saxlama;) verilən komandaya uyğun yerinə yetirir; | 1.1.1.Fiziki inkişafla bağlı müəyyən olunmuş müxtəlif hərəkətləri (qaməti düz saxlamaqla istiqaməti və tempi dəyişərək yeriş və qaçış; müxtəlif əşyaların üstü, altı və arası ilə sürünmə; məhdudlaşmış sədd üzərində müvazinəti saxlamaqla yeriş və qaçış; gimnastika nərdivanına pillə-pillə dırmanma; kürəciyi diyirlətmə; qum kisəciyini atma, topu hədəfə atma) yerinə yetirir; |
| 1.1.2. Böyüklərin köməyi ilə pilləkənlə qalxır və düşür. | 1.1.2.Yerində atılıb-düşür (ayaqları bir yerdə), irəli doğru tullanır. | 1.1.2. 15 sm. hündürlüyündə maneədən tullanaraq, iki ayağı üstə yerə düşür. | 1.1.2.İrəliyə doğru tullanır. | 1.1.2. Yerində, uzununa, müxtəlif istiqamətlərə doğru və ip üzərindən tullanır. |
| 1.1.3. Topu döşəmə üzərində diyirlədir; | 1.1.3.Topu təpiklə vurur. | 1.1.3.Topu başı üzərindən atır və yerdən sıçrayan topu tutur; | 1.1.3.Topu, kürəciyi müxtəlif üsullarla atıb-tutur; | 1.1.3. Topu yerə vuraraq irəliləyir; |
| 1.1.4. Əlində tutduğu əşyalardan (karandaş, top, oyuncaq) təyinatına görə istifadə edir. | 1.1.4.Əşyanı (karandaş, plastilin, top və oyuncaqları) barmaqları arasında saxlayaraq şəkil çəkmə, yapma, atıb-tutma kimi hərəkətləri sadə tərzdə yerinə yetirir. | 1.1.4. Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir. | 1.1.4. Kiçik motor hərə kətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, düzür, hamarlayır, kəsir, yapışdırır, quraşdırır, hissələri ayırır və birləşdirir və s.) koordinasiya edir. | 1.1.4. Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraşdırır, düzür və s.) koordinasiya edir. |
| **1.2. Masa arxasında davranış və gigiyena qaydalarına əməl edir.** | | | | |
| 1.2.1. Şəxsi gigiyena | 1.2.1. İlkin gigiyena qaydalarına | 1.2.1. Sadə gigiyena | 1.2.1. Müəyyən olunmuş | 1.2.1. Gigiyena qaydalarını |

| | | | | |
|---|---|---|---|---|
| əşyalarını (daraq, dəsmal və s.) tanıdığını nümayiş etdirir. | (daraq, dəsmal, burun dəsmalından istifadə etmək və s.) əməl edir; | qaydalarını (sabundan düzgün istifadə etmək; əlini, üzünü, qulağını yumaq və qurulamaq; daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) mənimsədiyini nümayiş etdirir; | gigiyena qaydalarına (yeməkdən əvvəl və sonra əllərini sabunla yumaq və qurulamaq, yeməkdən sonra ağzını yaxalamaq, xarici görünüşünü səliqəyə salmaq; asqırıb, öskürər-kən üzünü çevirib, ağzını və burnunu dəsmalla tutmaq) əməl edir; | özünənəzarət (ehtiyac olduqda əllərini sabunla yumaq və qurulamaq, öz şəxsi əşyalarından–daraq, burun dəsmalı və salfetdən istifadə etmək) əsasında nümayiş etdirir; |
| 1.2.2.Qaşıqdan istifadə edir və fincanı iki əli ilə tutaraq suyu içir. | 1.2.2. Masa arxasında davranışını ümumi qaydalara (yemək dəstlərindən-qaşıqdan istifadə etmək, ağzını və əllərini salfetlə silmək) əsasən tənzimləyir; | 1.2.2. Masa arxasında yemək dəstindən müstəqil istifadə edir; | 1.2.2. Masa arxasında mədəni-davranış qaydala-rına (çəngəldən sərbəst istifadə etmək, səliqəli yemək) əməl edir; | 1.2.2. Masa arxasında süfrə mədəniyyətinə yiyələndiyini nümayiş etdirir; |
| 1.2.3. Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur, burun dəsmalından istifadə edir . | 1.2.3. Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur və qurulayır; salfetdən və burun dəsmalından sərbəst istifadə edir | 1.2.3. Sadə özünəxidmət bacarıqlarını (əllərini özü yuyur, soyunur, geyinir), fəaliyyətini ardıcıllıqla (ayaqqabının bağını açıb-bağlayır, paltarını düymələyir) yerinə yetirir. | 1.2.3. Özünəxidmət vərdişlərini (səliqə ilə tez soyunub-geyinir, paltarlarını səliqə ilə dolaba yığır, yatağını səliqəyə salır) yerinə yetirir. | 1.2.3. Sərbəst şəkildə özünəxidmət vərdişləri (paltarlarını səliqə ilə yığır; müstəqil şəkildə xarici görkəmində olan səliqəsizliyi aşkar edib və onu aradan qaldırır və s. ) nümayiş etdirir. |
| **1.3. Təhlükəsizlik qaydalarına əməl edir.** | | | | |
| 1.3.1.Potensial təhlükə barədə böyüklərin xəbərdarlığına adekvat reaksiya verir. | 1.3.1. Həyatına, sağlamlığına təhlükə yarada biləcək əşyaları sadalayır; | 1.3.1. Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə (yandırıcı, kəsici, deşici) görə fərqləndirir. | 1.3.1.Həyatına və sağlam lığına təhlükə yarada biləcək əşyalarla təhlükəsiz davranma bacarıqları nümayiş etdirir. | 1.3.1.Həyatına və sağlamlığına təhlükə yarada biləcək hadisələrdən qorunma qaydalarını izah edir. |
| 1.3.2.Elementar təhlükəsizlik qaydalarına (qaynar əşyalara, sobaya əl vurmamaq) əməl edir. | 1.3.2.Təhlükəli situasiyalarda ehtiyatlılıq nümayiş etdirir. | 1.3.2. Kəsici, deşici, yan-dırıcı əşyalar,elektrik cihaz-ları və heyvanlar, tanış olmayan adamlarla ehtiyatla davranma qaydalarını | 1.3.2. Təhlükəsizlik qaydalarını (kəsici, deşici, yandırıcı əşyalar, sobalar və elektrik cihazları ilə ehtiyatlı davranmaq; | 1.3.2**.** Təhlükəsizlik qaydalarına (həşərat, bitki və əşyalar, fövqəladə hadisələr və təbii fəlakətlər (yanğınlar, zəlzələlər, daşqınlar, sel və sürüşmələr, yol hərəkəti) zamanı situasiyaya uyğun |

| | | | | |
|---|---|---|---|---|
| | | bildiyini nümayiş etdirir. | böyüklərin nəzarəti olmadan dərman qəbul etməmək; yol hərəkəti qaydalarına riayət etmək; kimyəvi maddələrlə ehtiyatla davranmaq; fövqəladə hadisə və təbii fəlakətlər zamanı (yanğınlar, zəlzələlər və s.) situasiyaya uyğun izah edir. | davranmaq, müvafiq qurumları: yanğınsöndürən, təcili yardım və polisə çağırışlar edərək köməyə çağırmaq; məişətdə ehtiyatlı davranmaq) əməl edir. |
| **II.İdrakın inkişafı** | | | | |
| **2.1. Əşya və hadisələr haqqında ilkin təsəvvürə malik olduğunu nümayiş etdirir.** | | | | |
| 2.1.1.Öz adını deyir və yaxınlarını sadalayır; | 2.1.1. Özünü, ailə üzvlərini və Vətənini adlandırır; | 2.1.1. Özü, ailəsi və Vətəni haqqında suallara cavab verir; | 2.1.1. Özü, ailəsi və Vətəni haqqında (Vətən, ailə, milli mənsubiyyəti, özü, əşya və hadisələr haqqında) məlumat verir; | 2.1.1. Özü, ailəsi və Vətəni haqqında (dövlət rəmzləri, milli ordu, milli qəhrəmanlar, milli sərvətlər, tarixi günlər və abidələr, milli bayramlar) kiçik təqdimatlar edir; |
| 2.1.2. Sadə suallara reaksiya verir; | 2.1.2. Sadə suallar əsasında danışır; | 2.1.2. Əşyalar və sadə süjetli şəkillər üzrə danışır; | 2.1.2.Müşahidə etdikləri barədə danışır; | 2.1.2. Verilmiş mövzu ətrafında danışır və səbəb-nəticə əlaqələrini müəyyənləşdirir; |
| 2.1.3. Müşahidə etdiyi (geyim, mebel, qab-qacaq, bədənin ayrı-ayrı üzvləri-ni:baş, burun, ağız, göz, qulaq, əlləri, ayaqları) əşyaları göstərir; | 2.1.3.Müşahidə etdiyi (və ya adları çəkilən) əşyaları adlandırır və göstərir; | 2.1.3.Müşahidə etdiyi əşyaları fərqləndirir; | 2.1.3. Ətraf aləmdə baş verən hadisələri adlandırır; | 2.1.3.Ətraf aləmdə baş verən hadisələrə münasibət bildirir; |
| 2.1.4. Böyüklərin göstərişi ilə tanış obyektləri göstərir; | 2.1.4. Canlı (insan, heyvan, quş, bitki) və cansız (qum, daş, torpaq, işıq) obyektləri adlandırır. | 2.1.4. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir. | 2.1.4. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək, nəticə çıxarır. | 2.1.4.Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir. |
| 2.1.5. Sualların köməyi ilə gülü, ağacı göstərir, | 2.1.5. Ətraf mühitdəki obyektləri xarici əlamətinə görə | 2.1.5. Ətraf aləmdə baş verən proseslərə dair suallar verir | 2.1.5. Tədqiqat zamanı yaranan problemlərin həlli | 2.1.5.Obyektlər haqqında məlumat toplayır, müxtəlif vasitələrlə (müzakirə |

| | | | | |
|---|---|---|---|---|
| müəyyən heyvanları səsinə görə müəyyənləşdirir; | fərqləndirir. | və sadə ifadələr ilə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir. | yollarını nümayiş etdirir. | edir, şəkillər çəkir, müxtəlif simvollar düzəldir və s.) şərh edir; |
| 2.1.6. Ətraf mühitdə baş verən hadisələri 1-2 sözlə ifadə edir. | 2.1.6. Özü, yaxınları və ətraf mühitdə baş verən hadisələr haqqında fikrini ifadə edir. | 2.1.6. Gündəlik rast gəldiyi hadisələr haqqında suallar verir. | 2.1.6. Gündəlik rast gəldiyi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir. | 2.1.6. Səma cisimlərində, gündəlik havada və ilin fəsillərində, bir neçə gün/gecə, həftə ərzində olan dəyişikliklərdə fərqli və oxşar cəhətləri müəyyən edir, səbəb-nəticə əlaqələrini izah edir və məntiqi nəticələr çıxarır. |
| **2.2. Nitqi dinləyib anlayır, rabitəli danışır və nitq etiketlərindən istifadə edir.** | | | | |
| 2.2.1. Dinlədiyi fikrə əsasən hisslərini ifadə edən sadə sözlərdən istifadə edir. | 2.2.1. Dinlədiyi fikrə əsasən hərəkətlərini tənzimləyir və bir neçə sözlə ifadə edir. | 2.2.1.Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir. | 2.2.1. Dinləyib-anladığı fikirlərə münasibət bildirir. | 2.2.1. Dinləyib-anladığı fikirləri şərh edir. |
| 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır. | 2.2.2.Kiçik həcmli nağıl və şeir söyləyir. | 2.2.2. Tanış hekayə və nağılları danışır, şəkillərin məzmununa uyğun qısa hekayələr tərtib edir. | 2.2.2. Şəkil üzrə sərbəst süjetli hekayə tərtib edir. | 2.2.2. Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir. |
| 2.2.3. Böyüklərin təklifi ilə “salam”, “sağ ol” sözlərindən istifadə edir. | 2.2.3.Müstəqil olaraq nitq etiketlərindən (“salam”, “sağ ol”) istifadə edir. | 2.2.3.Nitq etiketlərindən (“bəli”, “xeyr”, “çox sağ ol”) istifadə edir. | 2.2.3.Nitq etiketlərindən (“bağışla”, “nuş olsun”, “zəhmət olmasa”) istifadə edir. | 2.2.3.Nitq etiketlərindən (“buyurun”, “xahiş edirəm”, “xoş gəlmisiniz”, “yaxşı yol”) jest və mimikalardan istifadə edir. |
| 2.2.4.Danışıq səslərini müxtəlif dil vahidlərində (heca, söz) tələffüz edir. | 2.2.4. Danışıq səslərini müxtəlif dil vahidlərində (heca, söz, cümlə) tələffüz edir. | 2.2.4.Danışıq səslərini müxtəlif dil vahidlərində (söz, cümlə) düzgün tələffüz edir. | 2.2.4. Danışıq səslərinin müxtəlif dil vahidlərində (heca, söz, cümlə) yerini təyin edir. | 2.2.4. Hərf və səsləri fərqləndirir; kəsmə əlifba vasitəsi ilə sözlər düzür. |
| 2.2.5. Danışığında 1-2 sözdən ibarət sadə cümlələr qurur. | 2.2.5. Danışığında 2-3 sözdən ibarət sadə cümlələrdən istifadə edir. | 2.2.5. Danışığında 2-4 sözdən ibarət sadə cümlələrdən istifadə edir. | 2.2.5. 3-4 cümlədən ibarət mətn qurur. | 2.2.5.Hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur. |
| 2.2.6. Nitqində böyük, çox sözlərindən istifadə edir. | 2.2.6. Nitqində əşyaların rəngini və formasını bildirən sözlərdən istifadə edir. | 2.2.6. Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir. | 2.2.6. Nitqində əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir. | 2.2.6.Nitqində əlamət, keyfiyyət, hiss bildirən, əks və eyni mənalı sözlərdən istifadə edir. |
| **2.3. Sadə riyazi əməliyyatları yerinə yetirir.** | | | | |
| 2.3.1. ”Bir” və “çox” anlayışlarını əşyalar | 2.3.1.Sadə riyazi təsəvvürlərə malik olduğunu nümayiş etdirir | 2.3.1.Əşyalarla 3 dairə sində riyazi əməliyyatlar yerinə | 2.3.1.Əşyalarla 5 dairəsində riyazi əməliyyatlar yerinə | 2.3.1. Əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir. |

| | | | | |
|---|---|---|---|---|
| üzərində fərqləndirir. | (az, çox, boyük, kiçik). | yetirir. | yetirir. | |
| 2.3.2. Ölçü anlayışını başa düşdüyünü (böyükdür, kiçikdir) nümayiş etdirir. | 2.3.2. Əşyaları ölçüsünə görə (uzun, qısa) seçir. | 2.3.2. Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir. | 2.3.2. Əşyaları forma, ölçüsünə və sayına görə müqayisə edir. | 2.3.2. Əşyaları forma, ölçüsünə və sayına görə qruplaşdırır. |
| 2.3.3. İki oxşar əşyanı seçir. | 2.3.3. Dairəvi əşyaları adlandırır. | 2.3.3. Həndəsi fiqurları (dairə, kvadrat,üçbucaq) adlandırır. | 2.3.3. Həndəsi fiqurları (dairə, üçbucaq və kvadrat) fərqləndirir. | 2.3.3. Həndəsi fiqurları (dairəni, üçbucağı, kvadratı) tətbiq edir. |
| 2.3.4. Məkana bələdlikdə (ora, bura) ilkin vərdişlər nümayiş etdirir. | 2.3.4. Məkan (yuxarı, aşağı, qabaq, arxa) anlayışlarını fərqləndirir. | 2.3.4. Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir. | 2.3.4. Məkana (sağ, sol, qabaq, arxa, irəli, geri, yuxarı, aşağı, alt, üst) görə özünün, əşyanın yerini müəyyənləşdirir və zamana (dünən, bu gün, sabah, səhər, günorta və axşam) görə hərəkətlərinin ardıcıllığını təyin edir. | 2.3.4. Məkan (sağdan sola, yuxarıdan aşağıya, ortaya, küncə) və zamana görə (ilin fəsilləri, aylar, həftənin günləri, günün hissələri, saat) anlayışları tətbiq edir. |
| 2.3.5. Şəxsi təcrübələrinə əsaslanan ilkin bacarıqlar nümayiş etdirir. | 2.3.5. Tədqiq etməyə maraq nümayiş etdirir. | 2.3.5. Böyüklərin göstərişi ilə tədqiqat üsullarından (ölçmə, müqayisə) istifadə edir. | 2.3.5 Müxtəlif tədqiqat vəsaitlərini (maqnit, böyü dücü şüşə və s.) fərqləndirir. | 2.3.5 Oyun və tədqiqatlar zamanı müxtəlif vəsaitləri (maqnit, böyüdücü şüşə, xətkeş və s.) tətbiq edir. |
| **III. Estetik və yaradıcı inkişaf** | | | | |
| **3.1. Sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir.** | | | | |
| 3.1.1. Kağız üzərində qarışıq xətlər çəkir. | 3.1.1. Kağız üzərində xətlər (yol, yağış və s.) çəkir. | 3.1.1. Sadə təsvirlər çəkir. | 3.1.1. Verilmiş süjet əsasında təsvirlər çəkir. | 3.1.1. Sadə kompozisiyalar qurur. |
| 3.1.2. Parlaq rənglərə görə əşyaları göstərir. | 3.1.2. Əsas rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır; | 3.1.2. Təsvirlərində uyğun rənglərdən istifadə edir; | 3.1.2. Rəng çalarlarını fərqləndirir. | 3.1.2. Təsvir prosesində rəng çalarların dan istifadə edir, rəngi açır, tündləşdirir. |
| 3.1.3. - | 3.1.3. Hazır formaları kağız üzərində yerləşdirir. | 3.1.3.Kəsilmiş formalardan istifadə etməklə, sadə kompozisiyalar qurur. | 3.1.3.Kəsib-yapışdırma (hazır və kəsdiyi kağızlar-dan, təbiət və tullantı materiallarından sujetli-dekorativ təsvirlər yarat-maq) bacarıqları nümayiş etdirir. | 3.1. 3. Müxtəlif kəsmə üsullarından istifadə edərək, mövzular və təsəvvürləri əsasında kompazi siyalar qurur. |

| | | | | |
|---|---|---|---|---|
| **3.1.4.** Plastilini ovucları arasında yumşaldır, hissələrə ayırır, müəyyən formaya salır. | **3.1.4.** Sadə təsvir alətlərindən və vəsaitlərdən istifadə edərək, sadə yapma bacarıqları nümayiş etdirir. | **3.1.4.** Sadə yapma (1-3 hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir. | **3.1.4.** Yapma (verilmiş və müstəqil seçilmiş mövzular üzrə bir neçə fiqurdan ibarət sadə süjetlər yaratmaq) bacarıqları nümayiş etdirir. | **3.1.4.** Yapma (mövzular, bədii əsərlər, təsəvvürləri əsasında sadə obrazlar yaratmaq) bacarıqları nümayiş etdirir. |
| **3.1.5.** Kubikləri biri-birinin üzərinə və yanına qoyaraq, ilkin quraşdırma bacarıqları nümayiş etdirir. | **3.1.5.** Tikinti materialından, konstruktor hissələrindən istifadə edərək sadə (ev, qaraj, qüllə və s.) nümunələr quraşdırır. | **3.1.5.**Sadə quraşdırma (tikinti materiallarından, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarıqları nümayiş etdirir. | **3.1.5.**Quraşdırma və əl əməyi üzrə (konstruktor, tikinti, tullantı, təbiət materiallarından və kağızdan istifadə edərək müxtəlif modellər düzəlt mək) bacarıqları nümayiş etdirir. | **3.1.5. V**erilmiş nümunə və sxemlər əsasında (konstruktor, tikinti, tullantı, təbiət materiallarından və kağızdan istifadə edərək, fərdi və kollektiv şəkildə müxtəlif fiqurlar və kompozisiyalar düzəltmək), planlaşdırır və sadə quraşdırma bacarıqları nümayiş etdirir. |
| 3.1.6. Böyükləri təqlid etməklə sakit və uca səslə nən musiqini əl çalmaqla anladığını nümayiş etdirir. | **3.1.6.** Musiqinin xarakterinə uyğun olaraq əl çalır, əlləri yellə yir, ayaqları yerə vurur, fırlanır və müxtəlif istiqamətlərdə hərəkət edir. | **3.1.6.** Musiqi alətlərini (piano, qarmon, nağara, tütək) adlandırır. | **3.1.6.** Musiqi alətlərini (piano, qarmon, tütək, nağara, tar, kamança) fərqləndirir. | **3.1.6.** Musiqi alətlərini (piano, qarmon, tütək, dəf, nağara, tar, kamança, metallafon) müqayisə edir. |
| 3.1.7. Musiqiyə reaksiya verir. | 3.1.7. Hərəkətlərini musiqinin melodiyasına uyğunlaşdırır. | 3.1.7. Musiqini anladığını ifa bacarığı (sadə mahnılar oxumaq, musiqili-ritmik hərəkətlər etmək) ilə nümayiş etdirir. | 3.1.7. Musiqini xarakte - rinə görə fərqləndirir, ifaçılıq (mahnı oxumaq; sadə rəqs hərəkətləri və uşaq musiqi alətlərində ifa etmək) bacarıqları nümayiş etdirir. | 3.1.7. Ifaçılıq bacarıqları (solo və xorla oxumaq; musiqili-ritmik hərəkətləri yerinə yetirmək; uşaq musiqi alətlərində tək və ansamblda sadə musiqi parçalarını ifa etmək) nümayiş etdirir. |
| 3.1.8.Böyüklərin göstərişinə əsasən oyun və rəqs hərəkətlərini yerinə yetirir. | 3.1.8.Sadə fəaliyyətlərdə (nəğmə, rəqs, tullanma) iştirak edir. | 3.1.8.Müxtəlif fəaliyyətlər üzrə müstəqil, sadə yaradıcılıq (təsviri fəaliyyət, musiqi, bayram və əyləncələrdə, səhnəciklərdə iştirak etmək) bacarıqları nümayiş etdirir. | 3.1.8.Təsviri, musiqi və konstruktiv fəaliyyət göstərir, bayram və əyləncələrin, səhnəcik-lərin göstərilməsində iştirak edir. | 3.1.8.Müstəqil yaradıcılıq (təsviri, musiqi və konstruktiv fəaliyyət, rolların ifası) qabiliyyətlər nümayiş etdirir. |

| | | | | |
|---|---|---|---|---|
| 3.1.9.Kitabdakı şəkillərə reaksiya verir. | 3.1.9.Kiçik həcmli nağılları səhnələşdirir. | 3.1.9. Müxtəlif janrlarda (şerlər, hekayələr, nağıllar, təmsillər, atalar sözləri, laylalar, saymacalar) olan bədii əsərlərin məzmununu təsvir edir. | 3.1.9. Müxtəlif janrlarda olan bədii nümunələri və qəhrəmanların hərəkətlərini müqayisə edir. | 3.1.9. Müxtəlif janrda olan bədii əsərlərin məzmununa münasibət bildirir. |
| **3.2.** ***Sadə əmək bacarıqları nümayiş etdirir.*** | | | | |
| 3.2.1.Böyüklərin köməyi ilə soyunub, geyinir. | 3.2.1.Böyüklərin nəzarəti altında geyinir, soyunur, paltarlarını, ayaqqabılarını yerinə qoyur. | 3.2.1.Sadə əmək tapşırıq larını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat -məişət əməyi üzrə) yerinə yetirir. | 3.2.1. Fərdi qaydada əməyin növləri üzrə (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi) müxtəlif əmək bacarıqları nümayiş etdirir. | 3.2.1. Fərdi və kollektiv əməyin növləri üzrə (özünəxidmət, təbiətdə əmək, əl əməyi, təsərrüfat-məişət əməyi) müstəqil bacarıqlar nümayiş etdirir. |
| 3.2.2. Böyüklərin köməyi ilə oyuncaqlarını yerinə yığır. | 3.2.2. Böyüklərin nəzarəti altında tapşırıqları (guşələrin səliqəyə salınması, güllərin sulanması və s.)yerinə yetirir. | 3.2.2. Kollektiv əməkdə (qrup otağının səliqəyə salınması, həyətyanı sahədə işləmək və s.) iştirak edir və tapşırıqları yerinə yetirir. | 3.2.2. Kollektiv əməkdə (tapşırıqları təbiətdə, qrup qaydalara uyğun yerinə yetirir) iştirak edir, təşəbbüslər irəli sürür və tapşırıqları yerinə yetirir. | 3.2.2. Əmək prosesində istifadə edilən alətləri adlandırır, parça və iynə-sapla sadə bacarıqlar nümayiş etdirir. |
| 3.2.3. | 3.2.3.Böyüklərin köməyi ilə masaya yemək dəsti düzür; | 3.2.3. Təbiət guşəsində və yeməkxanada növbətçilik bacarıqları nümayiş etdirir. | 3.2.3.Növbətçiliklə əlaqədar sadə əmək bacarıqları nümayiş etdirir. | 3.2.3. Növbətçilik zamanı öz üzərinə düşən vəzifənin mahiyyətini anlayır və yerinə yetirir. |
| **IV.Sosial-emosional inkişaf** | | | | |
| ***4.1. Ünsiyyət bacarıqları nümayiş etdirir.*** | | | | |
| 4.1.1. Ünsiyyətə girməyə cəhd edir. | 4.1.1.İlkin ünsiyyət bacarıqları nümayiş etdirir. | 4.1.1. Sadə ünsiyyət etiket-lərinə əməl edir. | 4.1.1. Əməkdaşlıq bacarıq ları nümayiş etdirir. | 4.1.1. Ünsiyyətini sosial normalara əsasən tənzimləyir. |
| 4.1.2.Böyüklərin mimika və jestlərinə, intonasiyasına reaksiya verir. | 4.1.2. Böyüklərlə birgəfəaliyyət istəyini nümayiş etdirir. | 4.1.2. Hərəkətli oyun, əyləncə zamanı emosiya, əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir. | 4.1.2. Özünün və digərlə-rinin emosional vəziyyətinə münasibət bildirir. | 4.1.2. Öz emosiyalarına nəzarət edir. |
| ***4.2. Sosial həyatla bağlı bilik, bacarıq və vərdişlərini özünəməxsus tərzdə nümayiş etdirir.*** | | | | |
| 4.2.1.Öz hisslərini | 4.2.1.Yaşıdlarının emosional | 4.2.1. Arzu, hiss və | 4.2.1. Öz hərəkətlərini | 4.2.1. Digərlərinin arzu və istəklərini |

| | | | | |
|---|---|---|---|---|
| baxışları, mimika, jest və hərəkəti ilə ifadə edir. | davranışını təqlid edir. | istəklərini ifadə edir. | dəyərləndiirir. | dəyərləndirir. |
| 4.2.2. Birgə oyunlarda iştirak edir. | 4.2.2. Birgə oyunda qaydalara uyğun fəaliyyət göstərir. | 4.2.2. Qrupun üzvü kimi fəaliyyət göstərir. | 4.2.2.Qrupdaxili fəaliyyətdə özünün və digərlərinin hərəkətlərini müqayisə edir. | 4.2.2. Fəaliyyətini qrupun qaydalarına uyğun tənzimləyir. |
| 4.2.3.Oyuncaqlarla oynayarkən emosional (mimika, səs tonu) reaksiya verir. | 4.2.3.Oyun hərəkətlərindən alınan nəticələrə sevinir. | 4.2.3.Problemin həllində iştirak edir. | 4.2.3. Problemin həllində müxtəlif üsullardan istifadə edir. | 4.2.3. Məsələnin həllini axtararkən özünəinam və müstəqillik nümayiş etdirir. |
| ***4.4. Hörmət (münasibət) və dözüm (tolerantlıq) nümayiş etdirir.*** | | | | |
| - | 4.4.1.Sadə qaydalara dözümlülük göstərir. | 4.4.1. Verilmiş tapşırıqlara dözümlülük nümayiş etdirir. | 4.4.1. Müxtəlif situasiyalarda dözümlülük nümayiş etdirir. | 4.4.1. Ətrafdakı insanlar arasındakı fərqlərə (fiziki, irqi, milli, dini, cinsi, sosial) dözümlülük nümayiş etdirir. |
| - | 4.4.2. Fəaliyyət zamanı güzəştə gedir, bölüşür və digərlərinə kömək edir. | 4.4.2. Böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nimayiş etdirir. | 4.4.2.Özünün və yoldaşlarının hərəkətlərini düzgün qiymətləndirir, oyuncaqlarını, rollarını bölüşür. | 4.4.2.İnsanlara qarşı qayğıkeş münasibət bəsləyir, çətinlik zamanı kömək edir. |

## 2.3. İNTEQRASIYA

### İnkişaf sahələrinin inteqrasiyası

Məktəbəqədər təhsildə inteqrasiya məktəbəqədər yaşlı uşaqların təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir.

Uşaq nə qədər kiçikdirsə, onun inkişafı da daha az differensial olur. Təlim vəzifələri o zaman daha səmərəli həll olunur ki, müəllim təlim-tərbiyə prosesinin təşkilində inteqrativ yanaşmadan daha məqsədyönlü istifadə edir. İnkişaf sahələrinin inteqrasiyasını fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik inkişaf sahəsi nümunəsində izah edək. Inteqrasiya prinsipinə əsasən bu inkişaf sahəsi təkcə idman məşğələsində, gimnastikada, idman oyunlarında deyil, bütün uşaq fəaliyyətində həyata keçirilir. Müəllim inkişaf və təlim prosesini elə təşkil etməlidir ki, bütün fəaliyyət növlərində uşaqlardan daha çox hərəki fəallıq tələb edilsin. Belə yanaşma nəinki təkcə fiziki inkişafı stimullaşdırır, həm də digər vəzifələrin daha uğurlu həllinə kömək edir. Digər tərəfdən bir inkişaf sahəsi üzrə təşkil edilmiş prosesdə digər inkişaf sahələrinin vəzifələrinin həllinə də diqqət yetirmək lazımdır:

-hərəkətli və idman oyunları zamanı təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması;

-idman məşğələlərində mənəvi keyfiyyətlərin (cəsurluğun elementlərinin genişləndirilməsi, biri-birinə kömək etmək, özünün və yoldaşlarının hərəkətini qiymətləndirmək və s.) inkişafı üçün pedaqoji situasiya yaratmaq;

- idman avadanlıqlarının yığışdırılmasına uşaqların cəlb edilməsi;

-uşaq təfəkkürünün fəallaşdırılması (oyunu, avadanlığı, oyuncağı və s.müstəqil seçmək, məkana bələdləşmə üçün xüsusi tapşırıqlar, böyüklərin əməyini, heyvanların hərəkətini imitasiya etməklə ətraf aləm haqqında təsəvvürlərin möhkəmləndirilməsi və s. vasitəsilə);

-hərəki fəallıq prosesində hərəkət və tapşırıqların adlandırılması ilə fəal nitqin genişləndirilməsi;

-şeir, saymaca, nəğmələrin oyun və tapşırıqlarla müşayət olunması;

-uşaqların diqqətinin estetik cəhətdən yoldaşlarının, müəllimin xarici görünüşünə, müəssisənin tərtibatına yönəltmək və s;

Analoji olaraq, inteqrativ yanaşma 4 inkişaf sahəsi üzrə vəzifələrin realizə olunması zamanı nəzərə alınmalıdır.

Məktəbəqədər təhsilin kurikulumu hazırlanarkən inteqrativlik əsas prinsip kimi götürülmüşdür. Sənəddə məktəbəqədər inkişaf sahələri arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin yaş qrupuna uyğun inkişaf etdirilməsi mühüm pedaqoji tələb kimi qoyulmuş və inteqrasiya yaş pillələri, inkişaf sahələri arasında qarşılıqlı əlaqə və asılılığın əsasına gətirilmişdir. Nəzərə alınmışdır ki, uşaqlar inteqrativ bacarıqlara yiyələnməklə öyrəndikləri arasında qarşılıqlı əlaqəni başa düşəcək, onlardan şəxsi və ictimai problemlərin həllində istifadə edəcəklər.

## 3. Məktəbəqədər təhsil strategiyaları
### 3.1. İnkişaf və təlim strategiyalarının mahiyyəti

Strategiya - əvvəlcədən müəyyən edilmiş nəticəyə (nəticələrə) çatmaq üçün hazırlanan məqsədlər zənciri, subyektin məqsədinə çatması üçün düşünülmüş planlı fəaliyyət modelidir. Strategiya minimal əmək, vaxt və resurs sərf etməklə nəticəyə necə çatmağın yollarını göstərir. Strategiyanın məzmununa fəaliyyət istiqamətinə uyğun olaraq məntiqi qərarlar toplusu daxildir. Təlim strategiyaları təlim prosesinin təşkilinə verilən tələbləri, istifadə edilən forma, üsul və vasitələri əhatə edir. Yeni kurikulumlarda təlim strategiyaları anlayışının işlənilməsi və pedaqoji prosesin təşkilində ondan daha səmərəli şəkildə istifadə olunması, ilk növbədə, əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını tələb edir.

Fasiləsiz təhsil sisteminin ilk tərkib hissəsi məktəbəqədər təhsildir. Gözlənilən nəticələri ilə fərqlənən bu pillə sonrakı mərhələlər üçün əsas bünövrə rolunu oynayır. Gözlənilən nəticələri ilə fərqlənən bu pillə bir-birini tamamlayır və ardıcıl olmaqla təhsilin ümumi sistemini təşkil edir.Ona görə də təhsilə bir sistem kimi baxılır. Məktəbəqədər təhsil demokratikləşmə, humanistləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, sosiallaşma, variativlilik, inteqrativlik və inkluzivlik kimi aparıcı prinsiplərə əsaslanır.

İnsanın sosiallaşması prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnməsi müxtəlif fəaliyyət sahələrində həyata keçirildiyindən təhsilə həm də proses kimi yanaşılır. Onun didaktik əsasını qanunauyğunluq, məqsədyönlülük, sistemlilik, fasiləsizlik, variativlik, mərhələlilik, fərdilik təşkil edir.

Təhsil həm də bütövlükdə tərbiyəçi-müəllim, uşaq və valıdeynin birgə fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır, tam və mərhələli prosesin sonu kimi qiymətləndirilir.

Məktəbəqədər təhsilin kurikulumunda təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:
- təlim prosesi və onun təşkili prinsipləri;
- təlimin təşkilində istifadə olunan forma və üsullar;
- təlimin planlaşdırılması.

### 3.2.Təlimin təşkili və ona verilən tələblər

Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi-müəllim təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi-müəllim və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçi-müəllimlər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. Tərbiyəçi-müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edilir. Uşaqların fiziki inkişafına, sağlamlığına kömək etmək üçün aşağıdakı strategiyalar çox mühümdür. Bunlar hər bir uşağın

unikal ehtiyaclarını təmin etmək, fiziki inkişafına kömək göstərmək baxımından əhəmiyyət daşıyır:

• hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması;

• uşaqların tibbi müayinə ilə təmin olunması;

• uşaqların optimal inkişafını artıran qidalanmanın təmin olunması;

• uşaqların sağlamlığını və fəal hərəkətlərini artıran gündəlik şəraitin yaradılması;

• materialların bütün uşaqlar üçün asanlıqla əlçatan (hündürlük, ölçü, yerləşdirilmə) olması;

• məşğələlərin, açıq havada nəğməli, hərəkətli oyunların, mahnı oxunmasının, rəqs və mədəni vərdişlərin aşılanması baxımından digər spesifik fəaliyyətlərin uşaqların gündəlik rejimlərinə daxil edilməsi;

• fiziki xüsusiyyətlər və eləcə də fərdi üstünlüklər haqqında müzakirələrin aparılması;

• risk faktorları və uşaqların hüquqlarının pozulması, onlara qarşı zorakılıq hallarının qarşısının alınması.

Uşaqların sosial və emosional inkişafı onların böyüdüyü mühit və öyrəndiyi kontekstlərlə, mədəni vərdişlər və münasibətlərlə bağlı olduğu üçün valideynlər və tərbiyəçi-müəllimlər uşaqların sosial və emosional inkişafının formalaşmasında əsas rol oynayırlar.

Aşağıdakı yanaşmalar hər bir uşağın öz unikal ehtiyaclarını ödəyən təcrübələr əldə etməsinə kömək edəcək:

• uşaqlara qarşı həssas, məsuliyyətli və qayğıkeş olmaq;

• uşaqlara öz emosiyalarını başa düşmək və idarə etməkdə kömək etmək;

• müxtəlifliyi bildirən, mədəni davranış baxımından münasib fəaliyyətlər, təcrübə və materiallar toplusundan istifadə etmək;

• ailə mədəniyyətinin qəbul edilməsinə, yüksək qiymətləndirilməsinə və maarifləndirilməsinə dəstək vermək və ailələrlə əməkdaşlıq qurmaq;

• insanlara qayğı və hörmətlə yanaşan, mənfi rəylərdən uzaq olan azad mühit yaratmaq;

• qarşılıqlı münasibətlər qurmaq üçün davamlı şərait təşkil etmək;

• uşaqların nəyi bildiyinə və nəyi yaxşı bacardığına əsaslanmaq;

• münaqişənin və problemlərin həlli bacarıqlarının modelini yaratmaq və uşaqlara öyrətmək.

• təlim prosesinin uşağa yönəlməsini, yəni uşağın maraq, ehtiyac, inkişaf səviyyəsi, imkanları, ailə mədəniyyəti və s. nəzərə almaq.

Hər bir uşaq özünün fiziki və sosial dünyasında müxtəlif yollarla ümumi biliklər əldə edir. Mahiyyət etibarilə, hər bir uşaq özünün ünsiyyəti, dili, intellektual düşüncəsi və zəruri həyati bacarıqlarının inkişaf etdirilməsinə kömək üçün ətrafdakıların dəstəyinə ehtiyac duyur. İdrakın inkişafına kömək etmək üçün aşağıdakı strategiyaların nəzərə alınması tövsiyə olunur:

• uşaqların gündəlik həyati bacarıqlara yiyələnmələri üçün şəraitin yaradılması;

• öyrətmə və öyrənmə strategiyalarının (məsələn, nəğməli oyunlar, musiqi və hərəkətləri idraki inkişafla əlaqələndirmək) birləşdirilməsi;

• mürəkkəb tapşırıqların daha kiçik hissələrə bölünməsi ilə sadələşdirilməsi;

• gün ərzində uşaqların müxtəlif fəaliyyətlərə və çevik rejimlərə cəlb edilməsi;

• öyrənmə üçün praktiki və sensor (məsələn, öyrənmə, görmə, dadına baxma, iyləmə və manipulyasiya etmə) təcrübənin təmin edilməsi;

• təlimin uşaqların müxtəlif qabiliyyətlər və öyrənmə yolları ilə uzlaşdırılması.

**1-3 yaş** dövrünü əhatə edən erkən dövr daha spesifikdir. Erkən yaş dövrünün təlimi uşaqların tez-tez sual verməsi, tədqiq etməsi və onları əhatə edən aləm haqqında maraqlanması və öyrənməsi zamanı daha əhəmiyyətlidir. Çünki bu zaman öyrənməyə dair onlarda elə münasibətlər formalaşır ki, bu münasibətlər həyatı boyu onlarla birgə qalır.

Uşaqların hərtərəfli inkişafı, sağlamlığının möhkəmləndirilməsi üçün aşağıdakı strategiyalar çox böyük əhəmiyyət kəsb edir. Bunların nəzərə alınması hər bir uşağın unikal ehtiyaclarının təmin edilməsi, fiziki inkişafına kömək göstərilməsi baxımından zəruridir:

- ✓ Böyüklərin nəzarəti və rəhbərliyi təmin edilməklə hər bir uşağın sağlamlığı və təhlükəsizliyi üçün şəraitin yaradılması;
- ✓ Uşaqların optimal inkişafını artıran ərzaqların qəbul edilməsinin təmin olunması;
- ✓ Uşaqların fiziki sağlamlığı, inkişafı və rifahı sahəsində tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət alınması;
- ✓ Uşaqların sağlamlığına xidmət edən gündəlik imkanların yaradılması;
- ✓ Uşaqların fiziki hərəkətlərini məhdudlaşdırmayan, fiziki fəaliyyətlərini təmin etmək üçün həm müəssisə daxilində, həm də xaricində təhlükəsizliyinin təmin edilməsi;
- ✓ Uşaqların tibbi müayinə ilə təmin olunması.

Uşaqların **sosial və emosional inkişafı** onların böyüdüyü və öyrəndiyi kontekstlərlə, mədəni davranış və münasibətlərlə bağlı olduğu üçün valideynlər və Tərbiyəçi-müəllimlər uşaqların sosial və emosional inkişafının formalaşmasında əsas rol oynayırlar. Aşağıdakı strategiyalar doğulandan məktəbə daxil olana qədər bütün uşaqların müsbət sosial-emosional inkişafına kömək üçün istifadə edilməlidir. Aşağıdakı strategiya nümunələri hər bir uşağın öz unikal ehtiyaclarını ödəyən öyrənmə təcrübələri əldə etmələrinə kömək edəcək:

- ✓ Uşaqlara qarşı həssas olmaq;
- ✓ Təhlükəsiz, stimullaşdırıcı mühit yaratmaqla inkişaf və təlimi inkişaf etdirmək;
- ✓ Uşaqlara öz emosiyalarını qəbul etmək, başa düşmək və idarə etməkdə kömək etmək;
- ✓ Mənfi emosiyalardan azad mühit yaratmaq;
- ✓ Özünüifadəyə şərait yaratmaq, onlara seçim vermək;
- ✓ Ünsiyyətin inkişafına ardıcıl və müntəzəm kömək etmək;
- ✓ Uşaqların inkişafı və davranışı narahatlıq doğurarsa, tibbi və inkişaf üzrə ekspertlərdən məsləhət almaq.

Bu yaş dövründə İdrakın inkişafına kömək etmək üçün aşağıdakı strategiya nümunələri hər bir uşağın öyrənmə təcrübələri əldə etmələrinə kömək edəcək:

- ✓ Uşaqların uğurlarını dəstəkləyərək və rəğbətləndirərək onlarla hər gün qarşılıqlı fəaliyyətdə olmaq;
- ✓ Uşaqların yaradıcı proseslərinə dəstək vermək və rəğbətləndirmək;
- ✓ İnkişafı və təlimi dəstəkləmək məqsədi ilə uşaqların ailəsində istifadə edilən ənənəvi (uzunmüddətli) səmərəli strategiyaları bir araya gətirmək;
- ✓ Özündə bütün hissləri, görünüşü, eşitməni, əlaqəni, iyi və dadi birləşdirən çoxsaylı öyrənmə və öyrətmə yollarını təmin etmək;
- ✓ Eyni növ təcrübələri bütün uşaqlar üçün təmin etmək;
- ✓ Qarşılıqlı əməkdaşlıqda və fəaliyyətlərdə müvafiq şifahı, əyanı vasitələrdən istifadə etmək;
- ✓ Uşaqların temperamentlərini, meyl və münasibətlərini nəzərə alaraq, onların yeni informasiyaya unikal yanaşma yollarını, özlərini ifadə etmələrini müşahidə etmək və dəstəkləmək;

✓ Uşaqların gündəlik həyati bacarıqlara yiyələnmələri üçün inkişafetdirici şərait təşkil etmək;
✓ Öyrətməni uşaqların müxtəlif qabiliyyətləri və öyrənmə yolları ilə uzlaşdırmaq.

Uşaqların **estetik və yaradıcı inkişafını** təmin etmək üçün aşağıdakı strategiyalara istinad edilməsi məqsədəmüvafiqdir:

- yaradıcılığa həvəsləndirən müvafiq mühitin yaradılması;
- rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
- qiymətləndirmə bacarığının yaradılması;
- uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;
- yaradıcı düşünməni və özünüifadəni asanlaşdırmaq üçün müəllimin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;
- estetik inkişafın təmin edilməsi üçün ailələrin maarıfləndirilməsi;

Pedaqoji prosesin təşkili zamanı hər bir uşağın inkişaf səviyyəsi haqqında məlumatın alınması üçün əks-əlaqə təmin olunmalıdır.

1-3 yaş dövründə t əlim prosesində aşağıdakı prinsiplərə istinad edilir:

Müəllimin rolu uşaqla qarşılıqlı fəaliyyətdə, ətraf aləmin dərk edilməsində onun tərəfdaşı olmasıdır. Müəllim bütün uşaqlar üçün bərabər imkanların yaradılmasını, onların şəxsi və ictimai hüquqlarına riayət olunmasını, emosional rahatlığını, həyat və sağlamlıqlarının müdafiəsini təmin etməlidir. Uşağın inkişafı və təliminin təşkilinin əsas aspektləri bunlardır:

- daha yüngül və müxtəlif formalarda stimullaşdırıcı təlim, təlimin uşaqların fərdi ehtiyaclarına uyğunlaşdırılması, o cümlədən müxtəlif situasiyalar və materialların arasında seçim imkanının nəzərə alınması;

– uşağın fərdi xüsusiyyətlərini, maraq və ehtiyaclarını nəzərə almaqla, uşağın inkişafının diqqətlə müşahidə edilməsi;

-müşahidələrin nəticələrinin davamlı və yenidən qiymətləndirilməsi məqsədilə uşaqlar haqqında cavabdeh və xeyirxah, eləcə də diqqətli təhlili və müvafiq qərarların qəbul edilməsi;

- üzləşdiyi zəruri təlim məsələlərinin həlli zamanı çeviklik və kreativlik nümayiş etdirmək;

-uşaqların inkişafı və nailiyyətləri haqqında valideynlərlə fikir mübadiləsi aparmaq, ailələrlə əlaqə saxlamaq;

– həmkarlarla, mütəxəssislərlə, cəmiyyət üzvləri ilə əməkdaşlıq münasibətlərinin qurulması: uşağın ilk müəllimi kimi ailənin rolu, uşağın inkişaf və təliminin təşkilində məktəbəqədər müəssisənin tərəf müsəbətili olması.

Erkən yaş dövründə oyun, sujetli və inteqrativ təlim formalarından istifadə olunur. Təlim uşaqlar üçün maraqlı fəaliyyət prosesində bilavasitə, dolayısı ilə təşkil edilir.

**3-6 yaşlı** uşaqlarla işləyən müəllim uşağın inkişaf və təliminə yönəlmiş, tələblərə tam cavab verən strategiyaları seçməkdə sərbəstdir. Fərdi xüsusiyyətlərə riayət etmə, hər bir uşağın inkişaf və təliminin xüsusi ritmi və hər bir uşağın potensialından istifadə əsas tələblərdəndir. Müəllimlər tərəfindən seçilən strategiyalar kurikulumun prinsiplərinə söykənməlidir.

Təlim prosesində aşağıdakı prinsiplərə istinad edilir:

***Şəxsiyyətyönümlülük.*** Şəxsiyyətyönümlülük uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı tələb edir. Həyatda lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını bir vəzifə kimi qarşıya qoyur. Bu iş məktəbəqədər təhsil mərhələsindən başlayır. Ona görə də təlimin məzmununda və həyata keçirilməsində onun nəzərə alınması vacib hesab edilir.

***Differensiallaşdırma və fərdiləşdirmə.*** Bu prinsip uşaqların fərdi xüsusiyyətlərini, maraq və tələbatlarını, fiziki və əqli inkişaf səviyyələrini, psixo-fizioloji xüsusiyyətlərini nəzərə almağı, onların təliminin bu xüsisiyyətlər əsasında təşkil olunmasını tələb edir.

***İdrak fəallığı.*** Idrak fəallığı məktəbəqədər təhsil materiallarının koqnitiv xarakter daşımasına, onun fəal təlim şəraitində reallaşdırılmasına imkan yaradır, uşaqlarda hər hansı problemin həlli tələbatını, onlarda idrak proseslərinin fəallaşdırılmasını gücləndirir.

***Əyanilik.*** Bu prinsip məktəbəqədər təhsil müəssisələrində uşaqların öyrənməyə olan marağını stimullaşdırır, öyrəndiklərinin daha keyfiyyətli mənimsənilməsinə şərait yaradır.

***Əməkdaşlıq.*** "Tərbiyəçi-müəllim-uşaq və valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunmasını nəzərdə tutur.

***Nəticəyönümlülük***. Bu prinsip fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulmasını tələb edir.

## 3.3. Təlimin forma və üsulları.
## İnkişafetdirici mühitin mahiyyəti və prinsipləri

Təlim mühiti planlaşdırılmış və plansız şəkildə fəaliyyət göstərə bilər. Planlaşdırılmış fəaliyyət günün əsas hissəsini təşkil edir. Rejim anlarında təlimdən kənar fəaliyyətlərə məktəbəqədər yaşlı uşaqlar üçün zəruri olan stabillik və tanışlıq, öyrənmə fəaliyyətləri məzmun sahələrinə və böyüklər tərəfindən planlaşdırılan xüsusi məqsədlərə malikdir. Planlaşdırılmış və plansız fəaliyyətlər üçün xoş, təhlükəsiz mühit, sağlam, təmiz, isti və stimullaşdırıcı sahələr yaradılır ki, bu sahələrdə tənqidi düşüncə bacarıqları, müxtəliflik, çoxmədəniyyətlilik kimi məsələlər formalaşdırılır və öyrənmə bacarıqlarının genişləndirilməsi və formalaşdırılması üçün şərait yaradılır. Mühit "üçüncü tərbiyəçi" hesab edilir.

• Açıq havada və qrup otağında inkişaf və təlim mühiti bütün yaşlar üçün eyni dərəcədə əhəmiyyətlidir;

• Açıq havada uşaqlar üçün tədqiqat aparmaq, kəşflər etmək və öyrənmək üçün mühüm imkanlar mövcuddur;

• Açıq havada mühitin "canlılığı' və "bənzərsizliyi" hər gün uşaqların təcrübədən keçirə biləcəkləri yeni kəşflərlə zəngin olur;

• Uşaqların hərəkət etmələri (qaçmaları, tullanmaları, dırmanmaları, oynamaları) üçün yerlər; çevik və uşaqların asanlıqla idarə edə bildikləri materiallarla təminat; estetik cəhətdən gözəl olan yerlər, heyvanlar üçün yerlər, uşaqların asanlıqla ünsiyyət yarada bilmələri üçün şərait, təsviri fəaliyyət üçün yerlər nəzərdə tutulmalıdır.

Erkən dövrdə mühit inkişafetdirici xarakter daşımalıdır.

**İş formaları.**

**1-3** yaşlı uşaqlarla öyrənmə prosesində onun innovativliyi və tamlığı qorunmaqla aşağıdakı iş formalarından istifadə edilir:

***-fərdi***
***-yarimqruplarla***
***-kollektiv***

**3-6 yaşlı** uşaqlarla iş formaları fərdi, cütlərlə, qruplarla və kollektiv iş nəzərdə tutulur.

Pedaqoji proses ətraf mühitin və əşya aləminin fəal tədqiqi prosesində uşağın bütün inkişaf sahələri üzrə fəaliyyət növlərinin kompleks inkişafı üzərində qurulmalıdır. Uşağın hər bir günü

müxtəlif fəaliyyət növlərinin qarşılıqlı əlaqəsi şəraitində təşkil olunmalıdır. Pedaqoji proses şəxsiyyətyönümlülük prinsipi əsasında təşkil olunmalıdır.

**İş üsulları. 3-6 yaşlı** uşaqlarla iş zamanı təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqda geniş imkanları olan əqli hücum, tap-tapmaca, nağıletmə, müzakirə, şaxələndirmə (klaster), problemli vəziyyət, oyunlar, suallar, söz assosiasiyası kimi təlim üsullarından istifadə edildikdə müsbət nəticələr əldə etmək mümkündür.

### 2.4. Təlimin planlaşdırılması

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- İllik (perspektiv) planlaşdırma.
- Həftəlik (cari) planlaşdırma.

İllik (perspektiv) planlaşdırma standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsilin kurikulumunun əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş həmin sahələrin planlaşdırılmasında inteqrativlık prinsipi ciddi şəkildə gözlənilir.

**İllik (perspektiv) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır**

| **Standartlar** | **Məşğələ** | **Mövzular** | **İnteqrasiya** | **Resurslar** | **Tarix** |
|---|---|---|---|---|---|
| | | | | | |

Həftəlik (cari) planlaşdırma alt standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

***Məşğələlərin həftəlik planlaşdırılması aşağıdakı göstəricilər əsasında hazırlanır:***

***Standart :***

***Mövzu:***

***Məqsəd:***

***İnteqrasiya:***

***İş forması:***

***İş üsulları:***

***Resurslar.***

***Məşğələnin mərhələləri***

- ***Motivasiya;***
- ***Dərketmə;***
- ***Tətbiqetmə.***

## 4. Uşaq inkişafının dəyərləndirilməsi

### 4.1.Uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsi

**Məktəbəqədər dövrdə dəyərləndirmənin əsas məqsədi.** Dəyərləndirmə müşahidə prosesi, qeydlərin aparılması, böyümə və inkişafın izlənilməsinin nəticələrinin sənədləşdirilməsidir. Bu fasiləsiz bir prosesdir və çoxsaylı resurslar cəlb edir. Dəyərləndirmə erkən yaşlı uşaqların xarakterini əhatə etməlidir. Kiçik yaşlı uşaqların dəyərləndirilməsinin əsas məqsədi ayrı-ayrı şəxslər və uşaqlardan ibarət qruplar üçün müvafiq qrup fəaliyyətlərini müəyyənləşdirmək üçün müəllimlərə köməklik göstərməkdən ibarətdir.

### 4.2. Dəyərləndirmənin aparılmasına verilən tələblər

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt uşağın əhvali-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.

Dəyərləndirmə:

- uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bilik və bacarıqlarını göstərməyə xidmət edir;

-tərbiyəçi-müəllimlərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

-uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;

- uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;

- hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Qiymətləndirmə - məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir; qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafı nəzərə alınır; uşaqlar özünün və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edir; uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır; uşağın valideynləri və təhsil mütəxəssisləri ilə mütəmadi əlaqə saxlanılır və hər bir uşağın nailiyyətlərini müntəzəm olaraq izləyir.

### 4.3. Dəyərləndirmənin metod və vasitələri

Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi müşahidə prosesi, sənədləşdirmə, məlumatların toplanması, onun dərk edilməsi və uşaq haqqında məlumatların bölüşdürülməsidir. Məktəbəqədər yaşlı uşaqlar üçün dəyərləndirmə metodları bunlardır:

***Müşahidə***

***Müsahibə***.

***Şifahi sorğu***

***Fəaliyyət məhsullarının təhlili.***

***Portfolio***

Dəyərləndirmənin 3 növündən istifadə olunur:

***Diaqnostik qiymətləndirmə -( ilkin).***

***Formativ qiymətləndirmə - (davamlı)***

***İnkişafa dair yekun hesabat***

***Diaqnostik (ilkin) qiymətləndirmə*** zamanı uşaqlar haqqında toplanan məlumat onların inkişafında mövcud olan fərqləri aşkar edir və təlimin planlaşdırılması üçün şərait yaradır. Diaqnostik mərhələdə toplanan məlumatlar gələcəkdə uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün indikatorlar (göstəricilər) yaradır.

***Formativ (davamlı)*** qiymətləndirmə müntəzəm şəkildə, müəyyən intervallar ilə gündəlikdə baş verən qiymətləndirmədir. Məqsəd: "uşaqlar necə öyrənir və inkişaf edir?" sualına cavab verməkdir.

**İnkişafa dair yekun hesabat** isə 3 və 6 yaşın sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanmasıdır. Uşaq bu hesabatla növbəti mərhələyə qədəm qoyur.

## II hissə. Kurikulumun şərhi

### 1. Məktəbəqədər yaşlı (1-6 yaş) uşaqların inkişaf xüsusiyyətləri və gün rejimi

Məktəbəqədər yaş mərhələsi insanın fiziki, psixi və sosial inkişafı baxımından əhəmiyyətli bir dövrdür. Bu dövrdə refleksiya sahəsində ciddi dəyişikliklər gedir, yeni şərti reflekslər yaranır. Şərti reflekslərin sürətlə əmələ gəlməsi və sürətlə sönməsi, şərti ləngimənin gec yaranması, davamsız olması ilə səciyyələnən yeni doğulmuşların-körpələrin ali sinir fəaliyyəti məktəbəqədər yaşın sonunda geniş refleksiv imkanların yaranması ilə başa çatır.

Uşağın fəaliyyəti, ünsiyyəti və davranışı müstəqil xarakter alır. Refleksiyanın inkişaf səviyyəsi özünü ilk növbədə uşağın psixomotor fəaliyyətində göstərir. Özünüdərketmənin və özünənəzarətin qabillik dərəcəsi artaraq refleksiyanın səviyyəsi təlim fəaliyyəti üçün geniş imkanlar yaradır. Ətraf aləmə bələdləşmə üzrə uşaqlarda ilkin bacarıq və vərdişlər yaranır. Sosial mühitlə ikitərəfli qarşılıqlı münasibətlərin qurulmasının əsası qoyulur.

Məktbəqədər yaş dövründə insanın başqaları ilə ünsiyyət və münasibətlərini, kommunikativ əlaqələrini özündə cəmləşdirən **empatik** qurulma baş verir. Empatiya - uşağın iradi-emosional sahəsinin şəxsiyyətin digər struktur komponentləri, məsələn, refleksiya, nitq, koqnitiv sistem, motivasiya, münasibətlər, ünsiyyət, maraq və d. ilə əlaqəli inkişafını ifadə edir. Uşaqda empatiyanın inkişafı affektiv sfera ilə sıx bağlı olur.

Hələ 1 yaşdan başlayaraq uşaqlarda **nitqi** anlamanın (fonetik eşitmə) və rabitəli nitqin inkişafı gedir. Nitqin inkişafı uşağın hərəki fəallığı ilə paralel baş verir. Dərketmə imkanlarının artırması qarşılıqlı qaydada nitqin inkişafında öz əksini tapır.

Məktəbəqədər yaş dövründə insan şəxsiyyətinin formalaşmasının əsası qoyulur. Bu prosesin ilkin və ən dinamik, əhatəli, məzmunlu mərhələsi başa çatır. Belə ki, bu dövrdə mənəvi hisslər inkişaf edir, mənəvi keyfiyyətlər haqqında təsəvvürlər, anlayışlar formalaşır. Uşaq özünü sosial varlıq kimi dərk etməyə başlayır. Şəxsiyyət də dərketmə prosesində formalaşır. Bu hadisə ətraf aləmlə qarşılıqlı münasibət zəminində, özünüdərketmə prosesində baş verir. Bu baxımdan dərketmənin və şəxsiyyətin inkişafının ilkin mərhələsi – özünütanımadır. Özünütanıma prosesini yaşayan uşaq əzələ, vətər, bağlar vasitəsilə öz bədənini, daxili orqanlarını dərk etməyə başlayır. Bu mərhələ uşağın doğulduğu andan bədən üzv lərini adlandırmağa, onların vəzifələrini dərk etməyə qədər davam edir. Nəticədə özünü başqa obyektlərdən fərqləndirir. Uşaq şəxsiyyətinin inkişafının ikinci mühüm mərhələsi özünəməxsusluq dövrüdür. Onlar özlərinə aid olan insanları, əşyaları, ailəni, evini, yaşadıqları ərazini, nəhayət, Vətənini adlandırır və fərqləndirirlər. 3 yaşda “Mən”- təsəvvürün yaranması uşaq şəxsiyyətində keyfiyyət dəyişmələrini yeni bir məhhələsi başlanır. Ətraf aləmlə müntəzəm əlaqələr zəminində uşaq özünün kimliyi haqqında təsəvvürlərə yiyələnir, özünü, həmçinin, cinsi baxımdan fərqləndirir. Beləliklə, o, öz adını, cinsini, kimin övladı olmasını öyrənərək qənaətə gəlməyə başlayır ki, boyun artmasından, ətrafdakılarla qarşılıqlı münasibətdən asılı olmayaraq eyni insan olaraq qalır. Uşağa aid olan zəngin sosial inkişaf mühiti özünəməxsusluq hissini gücləndirir.

**1-2 yaş.** Uşaq birinci ilin sonuna qədər gəzməyə, danışmağa və əşyalarla hərəkət etməyə başlayır. Bu göstəricilər onun ikinci ildəki inkişafını müəyyən edir. Əlverişli şəraitdə iki yaşlı uşağın çəkisi hər ayda 170-190 q, boyu isə 1sm artır. İki yaşına qədər uşağın çəkisi orta hesabla 12-12,7 kq, boyu isə 85-86 sm. çatır. İki yaşlı uşağın təxminən 20 süd dişi çıxır. Erkən yaş dövrü uşaqların intensiv fiziki inkişaf dövrüdür.

Bu dövrdə uşaqların orqanizminin müqaviməti artır, əsəb sistemi daha da davamlı olur və əmək qabiliyyəti yüksəlir. Oyaqlıq dövrünün müddəti yuxuya nisbətən daha uzun olur. 1,5 yaşa qədər uşaqlar 3-3,5 saat oyaq qala bilirlər, 1,5 yaşdan sonra isə bu müddət 5 saata qədər artır. Qıcıqlanma və tormozlanma prosesləri daha differensial və dolğun olur. O, fiziki cəhətdən möhkəmlənir və çevikləşir. Bu dövrdə uşağın mərkəzi sinir sistemində də nəzərə çarpacaq dəyişiklik baş verir. Onda özünü göstərən mühüm cəhətlərdən biri əsas hərəkətlərin daha mürəkkəb növləri üçün zəmin yaradan düzxətli hərəkət vərdişinin xeyli təkmilləşməsidir. Bu uşağın ətraf mühitə münasibətini dəyişir, psixologiyasının formalaşmasına təsir göstərir.

İkinci yaşın axırlarından uşağın ünsiyyətin vasitə və yollarını dərk etməyə başlaması mənəvi tərbiyə üzrə işin aparılması üçün zəmin yaradır. Bu dövrdə kollektivdə uşaqların birgə fəalliyyəti tədricən xeyirxah, emosional ünsiyyət münasibətləri yaradır.

Təlim prosesində, məşğələlərdə, gündəlik həyatda tərbiyəvi işin düzgün qurulduğu şəraitdə uşaqlarda məişət əşyaları və oyuncaqlarla düzgün davranmaq bacarığı yaranır. Əşyalarla təmasda olan və fəalliyyət göstərən uşaq onları xassələrinə ( formasına, ölçüsünə ) görə fərqləndirə bilir. Həyatın ikinci ilində uşağın indiyədək düşünülməmiş tərzdə həyata keçirdiyi hərəkətlər sistemi əşyavi fəaliyyətə çevrilir. Əşyavi- manipulyativ fəaliyyət bu dövrün aparıcı fəaliyyət tipi olmaqla, uşaq şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bu prosesdə uşaq əşyaları söküb-yığmaqla onların xassələrini dərk edir. Uşağın əşyalarla davranışı fəal sürətdə formalaşır və bununla eyni vaxtda onda nitqmənimsəmə prosesi baş verir. Bu isə ümumiləşdirməyə aparma qabiliyyətinin və əyani-obrazlı dərketmənin inkişafını təmin edir. Bu dövrdə uşağın nitqinin inkişafı onun sonrakı uşaqlıq illəri üçün xüsusi əhəmiyyət kəsb edir. Söz ehtiyatı 1 yaşda 10-20 söz, 1,5 yaşda 30-40 söz, 2 yaşda isə 300-ə qədər sözü əhatə edir.

İkinci ilin axırlarına uşaqların inkişafı arasında kəskin fərdi fərqlər özünü səbətarıq şəkildə göstərir. Ona görə də hər bir uşağın fərdi xüsusiyyətlərinin nəzərə alınması zərurəti qarşıya çıxır.

Erkən yaş dövründə uşağın şüurunda yaranan ən mühüm yenilik onun öz fərdiliyini "Mən" obrazını dərk etməsidir. Bu dövrdə həmçinin uşaq özünü şəxsiyyətlərarası münasibətlərdə subyekt qismində dərk edir. Onu yalnız böyüklər deyil, həm də öz yaşıdları maraqlandırır. Erkən yaş dövründə oyun fəaliyyətinin yaranması üçün də psixoloji zəmin yaranır.

Ətraf aləmdə uşağın oriyentasiyasını genişləndirən fəal hərəkətləri onun psixi funksiyalarını (duyğu, qavrayış, yaddaş, diqqət, təxəyyül, əyani-hərəki təfəkkür və nitqini) stimullaşdırır. Əşyalarla təması mənimsəmə prosesində uşaqların sensor inkişafı sürətlənir, əşyaların və onların əlamətlərinin (forması, həcmi, rəngi, məkandakı vəziyyəti) qavranılması təkmilləşir. Bir əlamətin deyilməsi ilə (təqlid etməklə, nümunə göstərməklə) uşaq əşyanı başqalarının içərisindən seçib göstərə bilər. Uşaq böyüklərin köməyi ilə əşyalarla, oyuncaqlarla (piramida, kubuk, qumla oynamaq üçün fiqurlar və s.) təmas qurmağı mənimsəyir. Oyun zamanı onların əvəzediciləri yaranır ki, bu da fikri prosesləri gücləndirir, elementar ümumiləşmələr etməyə imkan verir.

Əşyalarla fəaliyyət prosesində praktik vəzifələrin həll edilməsi üçün bütün proqram məzmunu sensor duyğuların, diqqətin, yaddaşın, təxəyyülün və əyani-hərəki təfəkkürün inkişafına istiqamətlənir.

Sensor duyğular əşya və hadisələrin qavranılmasının fəallaşdırılması, əlamətlərinin fərqləndirilməsi, əşyalarla manipulyasiya zamanı onların arasında əlaqələrin müəyyənləşdirilməsi (müxtəlif ölçüdə iki əşya və keyfiyyətdə əşyalar: ağır, yüngül, yumşaq, bərk, soyuq, ılıq və s.), əşyaların təhlilində bütün analizatorların iştirakını, görmə və eşitmə qavrayışının fəal istifadəsini,

uşağın böyüklərlə əşyalarla birgə fəaliyyətində sensor-perseptiv proseslərin və kiçik motorikanın aktiv istifadəsi ilə inkişaf edir.

Diqqət, yaddaş, təxəyyül, təfəkkür və nitqin inkişafı aşagıdakı hallarda baş verir:

-əşyalarla fəaliyyət prosesində praktik vəzifələrin yerinə yetirilməsində;

-əşyalar arasında sadə əlaqələrin müəyyən edilməsi və istifadəsində;

-ümumiləşdirmə bacarığının formalaşdırılmasında;

-maraq və emosiyaların təsiri ilə təxəyyülün stimullaşdırılmasında.

Uşaq təlim prosesində fəaliyyətdə olaraq öyrənir və dərketmə üsullarını təkmilləşdirərək ətraf aləmi dərk edir. Zəngin və rəngarəng əşya mühiti uşağı müxtəlif istiqamətlərdə hərəkət etməyə, əşyalardan istifadəyə stimullaşdırır, onun hissi təcrübəsinin zənginləşməsinə və inkişafına təsir edir. Buna görə də onlar imkan daxilində müxtəlif materiallardan (taxta, plastmas, metal, parça, rezin, dəri və s.) hazırlanmalıdır. Bunlar müxtəlif ölçüdə, görkəmdə, rəngdə olmalı, səsləri fərqlənməli, müxtəlif hərəkət növlərini stimullaşdırmalıdırlar. Oyuncaqlar öz məzmununda hərəkətin məqsədini ifadə edir və bu məqsədə çatmaq üçün necə hərəkət etmək lazım olduğunu uşağa diktə edir. Belə ki, qrupda müvafiq hərəkətləri yerinə yetirmək üçün əşya və oyuncaqların olması zəruridir: piramida, kubiklər, tikinti materialları; həyətdə qumla oynamaq üçün balaca vedrə, bel, araba, dırmıx və s.; atıb-tutmaq və diyirlətmək üçün toplar, maşınlar; uşaqların biləklərini və barmaqlarını inkişaf etdirmək üçün iplər və lentlər, düymələr; stolüstü oyunlardan qurğular (mozaika, kubik) məişət əşyalarını imitasiya edən oyuncaqların olması vacibdir.

İki yaşlı uşaqlar ***musiqiyə, bədii sözə*** qarşı çox həssas olurlar. Onlar böyük məmnuniyyətlə sadə nağılları, mahnıları dinləyir, böyüklər oxuyarkən onlara qoşulur, özü sevdiyi mahnını oxuyur və rəqs edir. Ritmə, intonasiyaya, şeirlərin ahənginə həssaslıq artır. Hərəkətləri müsiqiyə uyğun uzlaşdırmaq qabiliyyəti yüksəlir, musiqi sədaları altında elementar ritmik və müxtəlif hərəkətlər yaranır. Bu dövrdə bədii fəaliyyət üçün zəmin formalaşır, onu mənimsəməyin ilkin cəhdləri müşahidə edilir (maşın çəkəcəyəm). Sadalanan bütün keyfiyyətlər uşaqları yeni inkişaf dövrünə hazırlayır.

Məktəbəqədər yaşlı uşağın fiziki və pisixi inkişafını təmin edən coxsaylı şərtlər arasında gün rejimi xüsusi yer tutur. Uşaq bağçalarında gün rejimi –uşaqların yuxu, qida qəbulu, sağlamlaşdırıcı və gigienik prosedurların, məşğələlərin və uşaqların müstəqil fəaliyyətinin bölüşdürülməsi sistemidir. Yemək, yuxu, oyun və təlim fəaliyyətinin bilavasitə təşkilinin daimi vaxtı- uşağın düzgün inkişafı və tərbiyəsi üçün mühüm şərtdir. Çünki, bundan uşağın həm sağlamlığı, həm də gümrah, şən, xoş əhvali-ruhiyyəsi asılıdır.

Uşaq bağçasında uşaqların aktiv fəaliyyəti adətən müxtəlif fəaliyyət növlərindən yaranır ki, bunların da əsasını məşğələlər, müxtəlif əmək növləri, müstəqil hərəkət, hərəkətli idman oyunları, əyləncələr, səhər gimnastikası, fiziki mədəniyyət məşğələləri, müstəqil fəaliyyət, həmçinin gəzinti təşkil edir.

Rejimə verilən əsas tələblər- fəaliyyət növlərinin digəri ilə həm vaxta görə, həm də düzgün növbələşməsinin dəqiqliyinə əməl edilməsidir.

Rejimə düzgün əməl edilməsi nəticəsində orqanizm sanki qarşıdakı fəaliyyətlərə uğurla hazır olur və gün ərzində yaxşı iş qabiliyyəti nümayiş etdirərək, onları artıq enerji və gərginlik sərf etmədən sistemli şəkildə həyata keçirir. Gün rejiminə alışmış uşaqlar nizam-intizamları, əməksevərlikləri, yaşlılar və yaşıdları ilə ünsiyyət yaratmaları, xoş əhvali-ruhiyyələri, davranışları ilə seçilirlər. Belə uşaqlar adətən fəal və iştahalı olurlar ki, bütün bunlar da uşağın sağlamlığının və düzgün inkişafının göstəriciləridir.

**1 yaşdan 2 yaşadək uşaqlar üçün gün rejimi**

**Payız, qış və yaz fəsillərində**

| Məktəbəqədər müəssisədə | | |
|---|---|---|
| | **1-1,5 yaş** | **1,5-2 yaş** |
| Uşaqların qəbulu, baxış, oyunlar. Səhər gimnastikası | 7.00-8.30 | 7.00-8.30 |
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 8.30-9.00 | 8.30-9.00 |
| Oyunlar | 9.00-9.30 | 9.00-9.30 |
| Məşğələlərə hazırlıq, məşğələ (yarımqruplarla) | 9.30-9.40; 9.50-10.00 | 9.30-9.40; 9.50-10.00 |
| I yuxuya hazırlıq, yuxu | 10.00-11.15 | - |
| Gəzintiyə hazırlıq, gəzinti | - | 10.00-11.15 |
| Gəzintidən qayıtma | - | 11.15-11.30 |
| Nahar | 11.15-11.45 | 11.30-12.00 |
| Oyunlar | 11.45-13.15 | - |
| Məşğələyə hazırlıq, məşğələ (yarımqruplarla) | 13.30-14.00 | - |
| Yuxuya hazırlıq, yuxu | 14.00-15.15 | 12.00-15.00 |
| Tədricən yataqdan qalxma | 15.15-15.30 | 15.00-15.30 |
| Axşamqabağı yemək | 15.30-16.00 | 15.30-16.00 |
| Məşğələ (yarımqruplarla) | - | 16.00-16.10 16.20-16.30 |
| Oyunlar, müstəqil fəaliyyət, gəzinti | 16.00-17.30 | 16.35-17.40 |
| Axşam yeməyi | 17.30-18.00 | 17.40-18.00 |
| Uşaqların evə yola salınması | 18.00-19.00 | 18.00-19.00 |

**2-3 yaş.** Bu yaş dövründə ***fiziki inkişaf*** intensiv surətdə davam edir. Üçüncü ilin axırına kimi onun çəkisi orta hesabla 2 kq, boyu 7-8 sm. artaraq, çəkisi təxminən 15 kiloqrama, boyu 95-96 santimetrə, döş qəfəsinin dairəsi isə 52 sm.-ə çatır.

Uşaq daha müstəqil olur, hərəkətlərini də əlaqələndirməyi bacarır. Bu yaş dövrünün xarakterik xüsusiyyəti müxtəlif hərəkətlər etməyə tələbatın artması, özlərinin arzu və maraqlarına uyğun yerinə yetirməsidir. Bütün sistem və funksiyaların mükəmməl inkişafı, ətraf aləmin həssaslıqla dərk edilməsi üçün onlara fiziki yükün verilməsi zəruridir. Lakin uşaqların inkişaf parametrləri, müxtəlif hərəkətlərin mənimsənilmə tempi və keyfiyyət göstəricisi (yeriş, qaçış, hoppanma, dırmanma və s.) fərdidir. Uşağın sağlamlığı üçün ən vacib şərt fiziki inkişafın harmonik inkişafıdır: boyu, çəkisi, döş dairəsi, hərəki fəallığıdır və s. 3 yaşında uşaq artıq çevik olur, ahəngdar hərəkətlərə yiyələnir. Daha çox müstəqil fəaliyyət göstərməyə çalışır. Bu dövrdə uşaqların ümumi hərəkətlərinin (yeriş, qaçış, sürünmə, tullama) keyfiyyətinin və öz hərəkətlərini ətraf mühitə uyğunlaşdırmaq bacarığının yaxşılaşması davam edir. Uşağın fəaliyyətində rollu oyunlar müşahidə olunur. Oyunun dominant fəaliyyət növünə çevrilməsi uşağın psixi inkişafında əsaslı dəyişikliklər yaranmasına səbəb olur.Uşaq təsviri fəaliyyət sahəsində də yeni keyfiyyətlərə yiyələnir. O, həmçinin kağız üzərində indiyədək etdiyi cızma-qaraya müəyyən məna verməyə çalışır. İkiyaşlı

uşaq cızıqların, formanın, rəngli ləçəklərin təsviri içərisində müəyyən obrazları, hadisələri görməyə başlayır.

Bu dövrdə uşaqların ***sensor inkişafı*** davam edir: o, əşyaların forması, böyüklüyü, rəngi, kütləsi və əlamətləri ilə tanış olur, müqayisə edir, onlar arasındakı sadə əlaqələri müəyyən edir, ümumi cəhətləri göstərir. Uşaqlar dərk edir, tədicən əşyaların əlamətlərini və keyfiyyətini sözlə ifadə edir, ümumiləşmə və əyani-praktik məsələləri həll etmək bacarığını mənimsəyirlər. Tədricən məşğul olduğu fəaliyyət prosesinin müddəti uzanır. Yadda saxlama və yada salma prosesləri təkmilləşir, nitqin inkişafı ilə əlaqədar gördükləri və eşitdikləri sözlərlə ifadə olunur. Yaddaş əhəmiyyətli dərəcədə təkmilləşir.

Bu yaş dövründə psixi idrak prosesləri kifayət qədər differensial olmamaqda davam edir. Duyğu va qavrama prosesləri aparıcı rol oynayaraq diqqətin, yaddaşın, təxəyyülün, təfəkkürün və nitqin inkişafını stimullaşdırır.

*Sensor inkişaf* aşağıdakılarla şərtləşir:

-kiçik motorikanın fəallığı və toxunma duyğularının stimullaşdırılması;

-görmə və eşitmə qavrayışının fəallığı;

-əşyaların formasına və rənginə görə öyrənilməsi və fərqləndirilməsinin stimullaşdırılması;

-əşyalarla fəaliyyət prosesində onların əlaməti haqqında təsəvvürlərin formalaşdırılması.

-Sensor inkişaf əşya mühitində sensor informasiyalarla zəngin şəraitdə həyata keçir.

*Diqqət, yaddaş, təxəyyül, təfəkkür və nitq* aşağıda göstərilən şəraitdə inkişaf edir:

-qeyri-iradi hərəki, emosional və obrazlı yaddaşın intensiv inkişafında uşaqların həyati təcrübəni mənimsəmə prosesinin fəallaşması;

-müxtəlif fəaliyyət növlərində maraq və emosiyalarının təsiri ilə uşağın “yaradıcı fikirlərinin” və “kəşflər”inin dəstəklənməsi;

-əşyalarla fəaliyyət təcrübəsinə əsaslanaraq ümumiləşmələrin edilməsi və onları sözlərlə ifadə edərək möhkəmləndirilməsi.

Uşaq təlim prosesində dərketmə üsullarından istifadə edərək ətraf aləmi qavrayır. Dərketmə prosesində həm real, həm də uşaqların təxəyyülündə canlandırdığı əşyaların əlamətləri haqqında təsəvvürlər formalaşır.

Bu dövrdə uşağın ***idraki*** inkişafında xeyli irəliləyiş özünü göstərir. O, oyun prosesində bir əşyanı başqası ilə əvəz etməyi, əşyanın əlamətlərini fərqləndirməyi bacarır. Bu isə uşağın praktik və əqli planda hərəkət etməsinə imkan verir. Bütün bunlar uşağın psixi proseslərinin qavrayış, yaddaş, təfəkkür, təxəyyül, həmçinin nitqinin inkişafına təkan verir, onun marağı formalaşır. 3 yaşda təxminən uşağın lüğətini 1200-1500 söz təşkil edir.

Gündəlik həyatı və fəaliyyəti ətrafdakı əşyalarla ünsiyyət uşağın sensor inkişafını təmin edir. Uşaq bir əşyanın xüsusiyyətini digər əşyanın xüsusiyyəti ilə əlaqələndirməyi, onlarda ümumi cəhətləri görməyi öyrənir. O, əşyanın fəzadakı vəziyyətini müəyyən etməyə can atır.

Uşaq öz təcrübəsi əsasında müşahidə aparmağı, əşya və hadisələri müqayisə etməyi öyrənir. Onda ətraf aləm haqqında, ətrafdakılar haqqında sadə müşahidələr yaranır. O, “ Bu kimdir ? ”, “ Bu nədir ?”, “ Nə vaxt ”, “Harada”, “Nə üçün ” kimi suallar verir, əşya və hadisə haqqında fikir söyləyir. Onun lüğət ehtiyatı sürətlə zənginləşir, tədricən hal şəkilçilərini, felin zamanlarını, sifətin dərəcələrini, bağlayıcıları yerində işlətməyi öyrənir. Beləliklə, nitqin qrammatik quruluşuna yiyələnir. Uşaq başqasının nitqini izləyir, onu başa düşməyə başlayır, hətta tələffüzündəki bəzi səhvləri hiss edir. Onun rabitəli nitqi də inkişaf edir: kiçikhəcmli nağılların məzmununu başa düşür, şeirlər əzbərləyir, öyrəndikləri, eşitdikləri haqqında rabitəli danışır.

Bu yaşda uşağın hissetmə qabiliyyəti rəngarəng, lakin dəyişkəndir. Müvəffəqiyyətdən zövq alan, sevinən uşaq azacıq müvəffəqiyyətsizlikdən dərhal məyus olur, kədərlənir. Onda uğurlardan, xoş rəftardan razılıq, məhəbbət, rəğbət, mərhəmət kimi hisslər inkişaf edir.

Uşağın musiqiyə də münasibəti dəyişir. O, özünə yaxın musiqiyə, mahnılara maraqla qulaq asır, həyəcanla və düzgün qavrayır, səsləri tembrinə görə fərqləndirir. Bütün bunların əsasında onda mahnı oxumaq qabiliyyəti baş qaldırır.

Bu yaşda fəal inkişafın yüksəlməsi ilə əlaqədar ətrafdakı insanlarla münasibətdə mühüm dəyişiliklər müşahidə olunur. Bir tərəfdən müstəqilliyə can atmaq, digər tərəfdən isə böyüklərə oxşamaq istəyi uşağın arzu və istəkləri ilə böyüklərin münasibəti arasında fikir ayrılığı yaradır. Valideynlərə və ailənin digər üzvlərinin nüfuzuna sosial mövqe dəyişir. Bu dövrdə ətrafdakı insanların hərəkətlərinə həssaslıq özünü büruzə verir. Uşaq böyüklərin söhbəti ilə maraqlanır, onların mühakimələinə diqqətlə qulaq asır. Lakin o, dinləməklə yanaşı sözlərin, ifadələrin və hərəkətlərin məntiqini anlamağa çalışır. Bu dövrdə uşaq müstəqil olmaq, çox işləri özü görmək istəyir (geyinmək, soyunmaq, yemək və s.), böyüklərin köməyindən imtina edir. Böyüklər onun tələbatlarını nəzərə almırlarsa, təşəbbüslərini dəstəkləmirlərsə, bu uşaqları inadkarlığa, onların tələblərinin əksinə hərəkət etməyə sövq edər.

Həyatın üçüncü ilində uşaqlarda tapşırılan işin öhdəsindən gəldiyi üçün özünə qiymət vermək, məğrurluq hissi yaranır. Onlar böyüklərin gözündə layiqli və bacarıqlı görünmək istəyirlər. Məhdudiyyəti, tələbləri düzgün qoyan, müstəqilliyi rəğbətləndirən böyüklər öz hərəkətləri ilə uşaqların şəxsiyyət kimi yetişməsinə şərait yaradırlar. Uşaqlar öz davranışlarını yaşıdlarının davranışı ilə müqayisə edir, hərəkətlərini qiymətləndirir. Qiymətləndirmədə qürur və utanmaq hissləri əks olunur. Bu dövrdə uşaq fəaliyyət subyekti kimi öz “Mən”ini irəli sürür və eyni zamanda da dərk edir ki, ətrafında başqa adamlar da var. Uşağn fiziki və sosial “Mən”i haqqında təsəvvürlərinin pozitiv ahəng alması zəruridir. Çünki bu, sonralar ontoqenezin (orqanizmin mayalanmış yumurta hüceyrəsindən həyatının sonuna kimi fərdi inkişafı) növbəti mərhələlərində “Mən konsepsiyası”nın pozitiv inkişafının əsası ola bilər.

Həyatın üçüncü ilində uşaq öz bacarıqları ilə (böyüklərin sözünə qulaq asmaq, səliqəlilik, oyuncaqlarla rəftar etmək, müstəqil geyinmək, şeir söyləmək, “çətin” səsləri tələffüz etmək) fəxr edir. Onun həyatında həm insanlar, həm də oyuncaq və canlı təbiət müxtəlif hisslər oyadır.

**2 yaşdan 3 yaşadək uşaqlar üçün gün rejimi**
**Payız, qış və yaz fəsillərində**

| Məktəbəqədər müəssisədə | |
|---|---|
| Uşaqların qəbulu, müstəqil fəaliyyət | 07.00 - 08.00 |
| Səhər gimnastikası | 08.00-08.10 |
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 08.10 - 08.40 |
| Müstəqil fəaliyyət, məşğələlərə hazırlıq | 08.40 - 09.00 |
| Məşğələ | 09.00-09.15;<br>09.25-09.40; |
| Gəzintiyə hazırlıq, gəzinti | 09.40 - 11.15 |
| Gəzintidən qayıtma, nahara hazırlıq | 11.15 - 11.45 |

| | |
|---|---|
| Nahar | 11.45 - 12.15 |
| Yuxuya hazırlıq, gündüz yuxusu | 12.15 - 15.00 |
| Tədricən yataqdan qalxma, axşamqabağı yemək | 15.00 - 15.25 |
| Gəzintiyə hazırlıq, gəzinti | 16.15 – 17.10 |
| Gəzintidən qayıtma | 17.10 - 17.20 |
| Şam yeməyinə hazırlıq, şam yeməyi | 17.20 - 17.50 |
| Oyunlar, uşaqların evə yola salınması | 17. 50-19.00 |

**3-4 yaş.** Həyatının ***dördüncü ilində*** uşağın fiziki inkişafı sürətlənir. İl ərzində uşağın çəkisi 1,5-2 kq, boyu 5-7 sm artır, çəkisi 17 kiloqrama, boyu 100-102 santimetrə, döş qəfəsinin dairəsi 53 santimetrə çatır. Bu dövrdə uşağın psixi funksiyaları inkişaf edir. Baş beyinin quruluşu və funksiyaları intensiv şəkildə inkişaf edir. Uşağın fəallığı artır, məqsədyönlü hərəkətləri uyğunlaşdırılmış xarakter alır. Uşaq oyun, rəsm, quraşdırma və s. üzrə iş prosesində məqsədəuyğun hərəkət etməyə təşəbbüs göstərir. Bu dövrdə sujetli-rollu oyunlara meyl artır.

Uşaqlar təsviri fəaliyyət və quraşdırma məşğələlərində əşyaların düşünülmüş təsvirini əks etdirmək üçün öyrəndikləri metod və üsulları tam tətbiq etməyi bacarmırlar. Rəsm çəkmə prosesində uşağın təsəvvürlərinə görə qrafik obrazlarla təsvir olunan material kağız üzərində olduğu kimi görünür. Tədricən o, təsvir edəcəyi əşyaya uyğun oxşar cizginin və ştrixlərin sayını artırır, əşyanın nisbətən canlı təsvirini verir.

Bu yaşda uşağın psixi proseslərinin inkişafında mühüm dəyişikliklər baş verir. Oyun, rəsmetmə, quraşdırma, əmək prosesində uşaq əşyaların xüsusiyyətləri ilə tanış olur, qavrayışı, təsəvvürü, təxəyyülü, təfəkkürü inkişaf edir. Uşaqlarda əyani-obrazlı təfəkkür üstünlük təşkil edir. Bunun köməyi ilə uşaq əşyaları təkcə xarici oxşarlığına görə deyil, həm də onlardan harada istifadə olunmasına görə ümumiləşdirir. Belə təsəvvürlər əsasında əşyaların nədən hazırlanmasına, əhəmiyyətinə, əlamət və keyfiyyətlərinə görə qruplaşdırır. Onda hər şeyi öyrənmək həvəsi güclənir. O, tədricən hadisənin səbəbləri ilə maraqlanır, saysız-hesabsız suallar verir. Bu yaşda uşağın nitqinin inkişafında mühüm dəyişikliklər baş verir: söz ehtiyatı sürətlə zənginləşir, ətraf mühitdəki əşya və hadisələr haqqında təsəvvürləri genişlənir.

Dörd yaşında uşaqda bədii nümunələri praktik şəkildə mənimsəmə qabiliyyəti artır, şeirləri, nağılları dinləməyi xoşlayır, yaşıdlarının nitqini təqlid etməyə çalışır.

Bu dövrdə uşaqda musiqini dinləməyə və qavramağa emosional həssaslıq artır. Musiqi əsərlərindəki ziddiyəti (şən, sakit) fərqləndirir, tanış nəğmələri adlandırır. Ucadan səslənən musiqi alətlərini tembrinə görə fərqləndirir. Səsini tərbiyəçi-müəllimin səsinə uyğunlaşdıraraq ucadan oxuyur.

Onun psixi inkişafındakı nailiyyətlər, məqsədəuyğun hərəkətlərin mənumsənilməsi, təlimin xarakterində əsaslı dəyişikliklər üçün özəl şərait yaradır. Onda müstəqillik inkişaf edir. Buna baxmayaraq, onların həyatında böyüklərın rolu böyükdür.

3-4 yaşlı uşaqlar eyni zamanda ekspansiv (açıq sözlü), zərif və kobud ola bilirlər. Onlar ətraf aləmi anlamağa çalışırlar. Bu yaş dövründə onlar üçün öz fantaziyalarını reallıqdan ayırmaq çox çətindir. Başa düşməyə başlayırlar ki, onların hərəkətləri müəyyən nəticələrə gətirir və özləri üçün davranış məhdudiyyətləri yaratmağı öyrənirlər. Bu yaş qrupundan olan uşaqlar həm də onunla fərqlənirlər ki, indi onlar bağlılıq və sözəbaxanlıq nümayiş etdirirlər, bir dəqiqədən sonra isə onlar tələbkar və şıltaq olurlar.

**3 yaşdan 4 yaşadək uşaqlar üçün gün rejimi**
**Payız, qış və yaz fəsillərində**

| Məktəbəqədər müəssisədə | |
|---|---|
| Uşaqların qəbulu, baxış, oyunlar | 07.00 - 08.00 |
| Səhər gimnastikası | 08.00-08.10 |
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 08. 10- 08.40 |
| Müstəqil fəaliyyət, məşğələlərə hazırlıq | 08.40 - 09.10 |
| Məşğələ | 09.10-10.00 |
| Gəzintiyə hazırlıq, gəzinti | 10.00 - 11.45 |
| Gəzintidən qayıtma | 11.45 - 12.00 |
| Nahara hazırlıq, nahar | 12.00 - 12.40 |
| Yuxuya hazırlıq, gündüz yuxusu | 12. 40 - 15.00 |
| Tədricən yataqdan qalxma | 15.00 - 15.20 |
| Axşamqabağı yeməyə hazırlıq, yemək | 15.20-15.40 |
| Oyun, müstəqil fəaliyyət | 15.40 - 16.15 |
| Gəzintiyə hazırlıq, gəzinti | 16. 15 - 17. 15 |
| Gəzintidən qayıtma | 17. 15- 17. 30 |
| Axşam yeməyinə hazırlıq, axşam yeməyi | 17. 30 – 18.00 |
| Oyunlar, uşaqların evə yola salınması | 18.00-19.00 |

**4-5 yaş.** ***Beş yaşda*** uşağın çəkisi 15-20 kq, boyu 108-110 sm, döş qəfəsisinin 54 sm. olur. Onun beyninin çəkisi böyüklərın beyninin çəkisinin 90 faizini təşkil edir. Beyin yarımkürəsinin qabığının funksiyası təkmilləşir, qabıqaltı mərkəzlərin uşağın davranışına təsiri az olur. Uşağın psixi inkişafında başlıca dəyişikliklər öz hərəkətlərini planlaşdırmaq qabiliyyətini, əvvəlcədən düşünülmüş hərəkətləri həyata keçirməkdir. Bu hərəkətlər sadəcə məqsədə çatmaq üçün deyil, həm də müxtəlif vasitələrdən istifadə etmək üçündür.

Beşyaşlıların həyatında qaydalı oyunlar tədricən daha çox yer tutmağa başlayır. Psixoloji baxımdan bunun xüsusi əhəmiyyəti var. Rollu oyunlarda uşağı nəticə deyil, proses maraqlandırır. Qaydalı oyunlarda isə nəticə başlıca məqsədə çevrilir. Bu xüsusiyyətlərinə görə, qaydalı oyunlar təlim fəalliyyətinin formalaşması üçün əlverişli şərait yaradır.

Sujetli-rollu oyunlar beşyaşlının əsl fəalliyyət növü olmaqla onun həyatında əsaslı dəyişikliklər yaradır. Ətraf mühitdən alınmış təəssüratlar əsasında yaranan bu oyunların məzmunu tərbiyəvi işlərin təsiri ilə rəngarəng olur. Bir çox hallarda oyunların məzmununu uşaqların özləri müəyyənləşdirir və rolları bölüşdürürlər. Mütəhərrik oyunlar uşaqda özünü aparma, qaydaları gözləmə bacarığını təkmilləşdirir. Didaktik oyunlar isə uşaqda müşahidəetmə qabiliyyətini artırır və öyrənmə prosesini asanlaşdırır.

Əvvəlki yaş dövrlərinə nisbətən uşağın fəaliyyətində məqsəd aydınlığı və sabitliyi, fəaliyyətinin məhsuldarlığı artır, rəsmlərin, quraşdırma işinin məzmunu daha rəngarəng olur. Onun

çəkdiyi rəsmlərin qrafik obrazları artır. O, əşyanı hissələrə ayırmağı, hər hissənin adını, rolunu, onların arasındakı münasibəti müəyyənləşdirməyi bacarır.

Həyatının beşinci ilində uşaq əşyaların xassələrini daha ətraflı öyrənməyə başlayır. O, əşyaların məkanda yerləşdirilməsini də dərk edir, əşyaların ümumi xassə, formasına, nə üçün lazım olmasına görə qruplaşdırmağı bacarır. Hadisələr əsasında sadə səbəb-nəticə əlaqələrini başa düşür, bir çox sualların cavabını araşdırır.

Beşyaşlının lüğəti daha sürətlə zənginləşir, rabitəli nitqi formalaşır. Bu yaşda uşaq kiçikhəcmli bədii əsərlərin məzmununu yadda saxlayıb nəql etməyi, oyuncaqlar, başına gələn əhvalatlar, ətraf aləm haqqında danışmağı bacarır.

Bu yaşda uşağın hissetmə qabiliyyəti daha sabit olur. Müxtəlif situasiyalarda emosiya özünü göstərir. Onda həmçinin, öz arzularını böyüklərin tələblərinə uyğunlaşdırmaq, böyüklərin tələblərinə diqqət və məsuliyyətlə yanaşmaq, yaşıdlarına qayğıkeş münasibət hissi formalaşır.

Beşyaşlıda əxlaqi estetik hisslər inkişaf edir. Mahnını təhrif etmədən oxumaq, ədəbi əsərin qəhramanına düzgün münasibət bəsləmək bacarığı yaranır. O, melodiyanın ritmini, musiqi alətlərinin müxtəlif tembrlərini dərk edir, bəzi mahnıları, şeiri yadda saxlamağı, ifadəli oxumağı bacarır.

Bu yaşda uşaqlar özlərini qüdrətli hesab edir və istənilən yeni problemin həllinə çalışırlar. Daha kiçiklərdən fərqli olaraq, bu yaş qrupundan olan uşaqlar bütün iştirakçıların qarşılıqlı anlayışını tələb edən mürəkkəb qrup oyunları oynayırlar. Onlar bir-birlərinin dərdinə şərik çıxır, öz hissləri və digər insanların hissləri barədə danışa bilirlər.

Bu yaş dövrundən olan uşaqlar məhdudiyyətləri yoxlayır və müvafiq qaydada öz davranışlarını səmərəliləşdirirlər. Onlar asanlıqla özləri yalan danışır, lakin böyüklər yalan danışdıqda bərk əsəbləşirlər.

4-5 yaşlı uşağın diqqətinin müddəti əvvəlki kimi qısa olsa da, bu uşaqlar problemlərin həllində artıq müəyyən təcrübəyə malikdirlər. Əgər tapşırığın mövzusu onlar üçün xüsusi olaraq maraqlıdırsa, o zaman onlar diqqətlərini kifayət qədər uzun müddətə cəmləyə bilirlər. Bundan başqa, onlar bir tapşırıqda əldə etdikləri təcrübəni digərlərinə tətbiq etməklə, ümumiləşdirmə bacarıqlarına malikdirlər.

4-5 yaşlı uşaqlarda ümumi motor bacarıqları sürətlə inkişaf edir və onlar daim fiziki fəallıq nümayiş etdirirlər. Onların enerjisi tükənməz olur, lüğət ehtiyatları artır, düzgün danışır və daha mürəkkəb konstruksiyalar qururlar.

**4 yaşdan 5 yaşadək uşaqlar üçün gün rejimi**

**Payız, qış və yaz fəsillərində**

| Məktəbəqədər müəssisədə | |
|---|---|
| Uşaqların qəbulu, baxış, oyunlar, növbətçilik | 07.00 - 08.00 |
| Səhər gimnastikası | 08.00-08.15 |
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 08. 15- 08.45 |
| Müstəqil fəaliyyət, məşğələlərə hazırlıq | 08. 45- 09.05 |
| Məşğələ | 09.05-10.05 |
| Gəzintiyə hazırlıq, gəzinti | 10.05 – 12.00 |
| Gəzintidən qayıtma | 12.00- 12.15 |
| Nahara hazırlıq, nahar | 12. 15 - 12.45 |
| Yuxuya hazırlıq, gündüz yuxusu | 12.45 - 15.00 |
| Tədricən yataqdan qalxma | 15.00 - 15.20 |

| | |
|---|---|
| Axşamqabağı yeməyə hazırlıq, yemək | 15.20-15.40 |
| Oyun, müstəqil fəaliyyət | 15.40- 16.15 |
| Gəzintiyə hazırlıq, gəzinti | 16.15- 17.15 |
| Gəzintidən qayıtma | 17. 15 - 17.30 |
| Axşam yeməyinə hazırlıq, axşam yeməyi | 17. 30 – 18.00 |
| Oyunlar, uşaqların evə yola salınması | 18.00-19.00 |

**5-6 yaş.** Həyatının ***altıncı ilində*** uşaqların fiziki inkişafında çox mühüm dəyişiklik baş verir. Onların çəkisi təxminən 200 qr, boyu 0,5 sm artır, bədənin mütənasibliyində ciddi dəyişikliklər baş verir. Onun boyu 115-116sm, çəkisi 21,5-22 kq çatır, döş qəfəsinin dairəsi 56-57 sm olur. Bu dövrdə uşağın davranışının nizamlanmsında baş beyin qabığının rolu böyükdür. Əsəb sisteminin fəaliyyəti təkmilləşir. Onun fəaliyyətinin formaları zənginləşir və rəngarəngliyi ilə xarakterizə olunur.

Kollektiv oyun prosesində uşaqlar arasında münasbətlər formalaşır. O, qurduğu kompozisiyalarda, çəkdiyi şəkillərdə düşüncəsini əks etdirməyə çalışır. Bu dövrdə uşaq öz davranışlarını idarə etmək üzrə müəyyən təcrübə toplayır. Bu isə onun hərtərəfli inkişafına müsbət təsir göstərir. Altıyaşlının öz davranışını idarə etmək bacarığı onun diqqətinə, yaddaş və təfəkkürünə təsir göstərir. Onun diqqəti xeyli sabitləşir və ixtiyari yaddasaxlama qabiliyyəti yaranır.

Məktəbəqədər yaşın son ilində fəaliyyətin inkişafı bir neçə istiqamətdə həyata keçir. Uşağın müstəqil olaraq, qarşısına qoyduğu məqsədlərin həcmi genişlənir və bu məqsədləri həyata keçirnək üçün bacarıqların mənimsənilməsi prosesi güclənir. 6 yaşlı uşaqda psixi inkişafın müxtəlif xətləri birləşərək, onun yaşıdları ilə qarşılıqlı münasibətlərinin yeni tipinin formalaşması üçün əlverişli şərait yaradır.

Həyatının altıncı ilində uşağın təfəkkürünün ən yüksək əyani-obrazlı təfəkkür forması inkişaf edir. Bunun əsasında da ümumiləşdirilmiş biliklərin formalaşdırılması təmin edilir. Uşaq əşyanın oxşar və fərqli xüsusiyyətlərini öyrənir. Onu qorumağı, mühafizə etməyi bacarır.

Uşaqlar yavaş-yavaş öz işlərinin nəticələrini düzgün qiymətləndirmək bacarığına yiyələnirlər. İctimai xarakterli əmək fəaliyyətinin kollektiv formasına maraq inkişaf edir. Bu marağın təsiri ilə şəxsiyyətin davranışının sosial motivləri əmələ gəlir və tapşırılmış iş üçün məsuliyyət hissi və intizam formalaşdırılır.

Bu yaşda uşağın nitqi hərtərəfli inkişaf edir. Belə ki, o sözləri düzgün tələffüz edir. Uşağın rabitəli nitqi formalaşır, o sadə sujetli və kiçikhəcmli hekayələr qura bilir.

Həyatının altıncı ilində uşaq həyatı boyu lazım olacaq mühüm keyfiyyətlərə yiyələnir: böyüklərın danışdıqlarını anlayır, öz fikrini onlara başa sala bilir. Böyüklərlə ünsiyyətin ən səbətarıq forması belə qarşlıqlı anlaşmağa əsaslanan şəxsi ünsiyyətdir. O, öz şəxsi keyfiyyətləri haqqında böyüklərın fikrini bilmək istəyir.

Böyüklərlə ünsiyyətin daha mürəkkəb forması olan oyun və təlim prosesində qarşılıqlı yardım, sadə tapşırıqların yerinə yetirilməsi əsasında uşaqda hissi, idrak və mənəvi keyfiyyətlər formalaşdırmağa başlanır.

Bu dövrdə uşağın yaşıdları ilə qarşılıqlı münasibəti daha da möhkəmlənir. Qarşılıqlı anlaşma və rəğbət əsasında uşaqlar bir qrupda birləşirlər. Hər bir uşaq yaşıdlarının hərəkətlərinə tənqidi münasibət bəsləyir. Qrupdaxili münasibətlər həmrəyliyinin ilk rüşeymlərini yaradır və kollektivçiliyin bünövrəsini qoyur.

5-6 yaş arası uşaqlar kifayət qədər sosialdırlar və eyni zamanda özlərindən kiçiklər ilə də oynayırlar. Bu yaşda olan uşaqlar öz cinslərindən olan yoldaşları ilə oynamağa üstünlük verirlər. Oynamaq xoşlarına gəlir, lakin onlar mütləq qalib gəlmək istəyirlər və oyunun gedişatında qaydaları dəyişərək, üstünlük əldə etməyə çalışırlar.

Bu yaş qrupundan olan uşaqlar daha uzun müddətə diqqətlərini cəmləyə bilirlər. Təfəkkür və prolblemlərin həlli bacarıqları onlarda daha yüksək səviyyədədir. Uşaq tapşırığın yerinə yetirilməsinə diqqətini cəlb edə və özünün müəyyən etdiyi tələblərə uyğun olaraq həll edə bilir. Beş-altı yaşlı uşaqların danışmaq xoşuna gəlir, fikirlərini dəqiq izah edə bilirlər. Onlar mürəkkəb cümlələrlə danışır və öz nitq səhvlərini özləri düzəldirlər.

Fiziki planda bü yaş qrupundan olan uşaqlar çox hərəkətlidirlər, onlar fiziki məşqlər və idman yarışları ilə maraqlanmağa başlayırlar. Onların motor bacarıqları təkmilləşir: onlar geyinərkən, kağız kəsərkən, şəkil çəkərkən və yazarkən daha az çətinlik çəkirlər.

Uşaqlar öz keçmişlərinə şüurlu münasibət göstərirlər, onlar «uşaq olduqları vaxtlar» barədə müxtəlif hadisələr danışmağı xoşlayırlar.

5-6 yaşlı uşaqlar fikirlərini hərfi mənada və konkret ifadə edirlər, xüsusi təşkil edilmiş quruluş və ardıcıllıq onların xoşuna gəlir.

**5 yaşdan 6 yaşadək uşaqlar üçün gün rejimi**

**Payız, qış və yaz fəsillərində**

| Məktəbəqədər müəssisədə | |
|---|---|
| Uşaqların qəbulu, baxış, oyunlar, növbətçilik | 07.00 - 08.00 |
| Səhər gimnastikası | 08.00-08.10 |
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 08. 10- 08.30 |
| Müstəqil fəaliyyət, məşğələlərə hazırlıq | 08. 30- 09.00 |
| Məşğələ | 09.00-10.50 |
| Gəzintiyə hazırlıq, gəzinti | 10.50 – 12.10 |
| Gəzintidən qayıtma | 12.10- 12.20 |
| Nahara hazırlıq, nahar | 12. 20 - 12.50 |
| Yuxuya hazırlıq, gündüz yuxusu | 12.50 - 15.00 |
| Tədricən yataqdan qalxma | 15.00 - 15.20 |
| Axşamqabağı yeməyə hazırlıq, yemək | 15.20-15.40 |
| Oyun, müstəqil fəaliyyət | 15.40- 16.15 |
| Gəzintiyə hazırlıq, gəzinti | 16.15- 17.15 |
| Gəzintidən qayıtma | 17. 15 - 17.30 |
| Axşam yeməyinə hazırlıq, axşam yeməyi | 17. 30 – 18.00 |
| Oyunlar, uşaqların evə yola salınması | 18.00-19.00 |

**İlin isti vaxtı üçün rejim**

| **Rejim anları** | **1-2 yaş qrupu** | **2-3 yaş qrupu** | **Orta qrup (3-4 yaş)** | **Böyük qrup (4-5 yaş)** | **Məktəbə hazırlıq qrupu (5-6 yaş)** |
|---|---|---|---|---|---|
| Uşaqların qəbulu, baxış, oyunlar, növbətçilik, səhər gimnastikası | 7.00-8.30 | 7.00 - 8.30 | 7.00 - 8.20 | 7.00 - 8.30 | 7.00 - 8.35 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Səhər yeməyinə hazırlıq, səhər yeməyi | 8.30-9.00 | 8.30 - 9.00 | 8.20 - 8.40 | 8.30 - 8.50 | 8.35 - 8.55 |
| Oyunlar, məşğələ | - | 8.30 - 9.20 | 8.40 - 9.30 | 8.50 - 9.35 | 8.55 - 9.45 |
| Məşğələ | - | 9.20 - 9.40 | 9.30 - 9.55 | 9.35 - 10.05 | 9.45 - 10.20 |
| Gəzintiyə hazırlıq, gəzinti (oyunlar, müşahidə, əmək) | 9.00-9.50 | 9.40 - 11.15 | 9.55 - 11.30 | 10.05 - 11.40 | 10.20 - 12.10 |
| Gəzintidən qayıtma | 9.50-10.00 | 11.15- 11.45 | 11.30- 11.50 | 11.40 - 12.00 | 12.10 - 12.30 |
| I Yuxuya hazırlıq, yuxu | 10.00-11.50 | - | - | - | |
| Nahara hazırlıq, nahar | 12.00-12.30 | 11.45- 12.20 | 11.50- 12.30 | 12.00 - 12.30 | 12.30 - 13.00 |
| Gəzintiyə hazırlıq, gəzinti | 12.30-14.15 | - | - | - | - |
| Yuxuya hazırlıq, gündüz quxusu | 14.15-16.15 | 12.20- 15.15 | 12.30 - 15.10 | 12.30 - 15.00 | 13.00- 15.00 |
| Tədricən yataqdan qalxma | 16.15-16.30 | 15.15- 15.35 | 15.10- 15.30 | 15.00 - 15.20 | 15.00 - 15.20 |
| Axşamqabağı yeməyə hazırlıq, yemək | 16.30-17.00 | 15.35-16.00 | 15.30- 16.00 | 15.20 – 15.50 | 15.20- 15.40 |
| Oyunlar, müstəqil fəaliyyət | 17.00-17.30 | 16.00-16.30 | 16.00 -16.30 | 15.50 – 16.20 | 15.40-16.10 |
| Gəzintiyə hazırlıq, gəzinti, oyun, əmək | 17.30-18.00 | 16.30- 17.30 | 16.30-17.30 | 16.20-17.30 | 16.10-17.30 |
| Axşam yeməyinə hazırlıq, axşam yeməyi | 18.00-18.30 | 17.30-18.00 | 17.30-18.00 | 17.30-18.00 | 17.30-18.00 |
| Oyunlar, uşaqların evə yola salınması | 18.30 -19.00 | 18.00 -19.00 | 18.00- 19.00 | 18.00 - 19.00 | 18.00 - 19.00 |

## II. Məktəbəqədər təhsilin məzmunu
### 2.1.Müxtəlif fəaliyyət növlərində uşaqların inkişafı və təliminin məzmunu.

Məktəbəqədər təhsil müəssisələrində uşaq inkişafının yaş mərhələsinə uyğun təşkil edilən fəaliyyət növləri aşağıdakılardır:

**Erkən dövr (1 – 3 yaş)**

Sökülüb-yığılan və hərəkətli oyuncaqlarla əşyavi fəaliyyət;

Böyüklərin rəhbərliyi altında birgə fəaliyyət;

Özünəxidmət əməyi və məişət əşyaları ilə fəaliyyət;

Musiqinin, nağılın, şeirin, şəkillərin məzmununun qavranılması məqsədilə təşkil edilən fəaliyyət;

Hərəki fəallıq.

**Məktəbəqədər təhsil dövrü (3 – 6 yaş)**

Oyun;

Ünsiyyət;

Elementar tədqiqatçılıq;

Bədii nümunələrin dərk edilməsi məqsədilə təşkil edilən fəaliyyət;

Əmək fəaliyyəti;

Təsviri fəaliyyət;

Musiqi;

Hərəki fəallıq.

**1-2 yaş. Əşyavi-manipulyativ fəaliyyət.** Əşyavi-manipulyativ fəaliyyət bu dövrün aparıcı fəaliyyət tipi olmaqla, uşaq şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Uşağın əşyalarla davranışı fəal surətdə formalaşır və bununla eyni vaxtda onda nitqmənimsəmə prosesi baş verir. Bu isə ümumiləşdirmə aparma qabiliyyətinin və əyani-obrazlı dərketmənin inkişafını təmin edir. Bu dövrdə uşağın nitqinin inkişafı onun sonrakı uşaqlıq illəri üçün xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Uşağın diqqətinin ətraf mühitdəki əşyalara cəlb olunması, manipulyativ fəaliyyətdən əşyavi fəaliyyətə keçidə yardım etmək;

-Əşyavi fəaliyyətin aparıcı fəaliyyət kimi mənimsənilməsi;

- Uşağın hərəki və nitq imkanlarının nəzərə alınması ilə idraki fəallığın təşkili; Perseptual (hissi qavrayış) fəaliyyət təlimi;

-Uşaqları əşyaların adlarını yadda saxlanmağa, əşyavi və praktik fəaliyyətin istifadəsi ilə zehni məsələlərin həllinə həvəsləndirmək;

-Qeyri-ixtiyari idraki proseslərə və ixtiyarilik üzərində emosionallığın üstünlüyünə əsaslanaraq, uşağın idraki tələbatının dəstəklənməsi və stimullaşdırılması.

**Ünsiyyət.** Həyatının ikinci ilində uşağın nitqi təqlidetmə bacarığı inkişaf edir, tüğət ehtiyatı təxminən 300 sözü əhatə edir. Uşaqlar ismin cəm şəklini, bəzi hallarını, keçmiş və gələcək zamanları az-çox düzgün işlətməyə başlayırlar. Uşağın fəal emosional nitqinin inkişaf etməsi onun dərketmə qabiliyyətinin, müstəqilliyiinin və təşəbbüskarlığının təkmilləşməsi üçün əlverişli şərait yaradır. Uşaq ətraf aləm haqqında təcrübi biliklərə, əsasən, oyun prosesində yiyələnir.

-Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Uşağa ünsiyyət yollarını göstərmək və onları təkrarlamağa həvəsləndirmək;

-İnsanların davranışını və insanların biri-biri ilə nə üçün ünsiyyət saxladıqlarını izah etmək;

-Ünsiyyətə maraq və müsbət emosiyalar yaratmaq.

**Oyun fəaliyyəti.** Bu dövrdə uşaqlarla müstəqil fəaliyyətin müxtəlif növlərinin təşkili zamanı oyun uşaqların gümrah davranışını, emosional-əhvali ruhiyyəsini təmin edir. Oyunlar vasitəsilə hər bir uşağın kifayət qədər hərəkətdə olmasına nail olmaq lazımdır. İkinci ilin əvvəlində oyuncaqlarla oyun və əyləncələr təşkil etmək lazımdır. Oyuncağı uşağa göstərərək, adını soruşmaq və ya adı çəkilmiş oyuncağın digər oyuncaqların içindən tapılması uşağın idraki inkişafına kömək edir.

Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Oyuncaqlarla oyunların təşkili;

-Uşağın sensor və hərəki fəaliyyətini inkişaf etdirən, şən əhvali-ruhiyyə yaradan oyunların təqdim olunması;

-Sevimli ( üstünlük verilən) oyuncaqlarının əhatəsinin genişləndirilməsi.

-Oyun prosesində uşaqların lüğətinin oyunla əlaqədar hərəkət və fəaliyyət bildirən sözlər hesabına zənginləşdirilməsi.

**Əmək fəaliyyəti.** Məktəbəqədər yaşlı uşağın əsas fəaliyyət növü oyundur. Ancaq təlim-tərbiyə işini elə qurmaq lazımdır ki, bu yaşda uşaqda oyunla yanaşı, əməklə məşğul olmaq tələbatı da formalaşsın. Məktəbəqədər yaşlı uşaqlar böyüklərin əməyinə hələ körpə yaşlarından böyük maraq göstərir, uşaq oyunlarında, məişətdə onları təqlid edir və özləri də nə isə düzəltməyə səy göstərirlər. Uşaqlarda əməyə müsbət münasibət, əmək bacarıq və vərdişlərinin yaranması üçün ətrafdakı böyüklərin canlı nümunəsi, onların əmək fəaliyyəti ilə bilavasitə təmasda olmaq mühüm əhəmiyyət kəsb edir. Odur ki, uşaqlarda əməyə maraq oyatmaq lazımdır və bununla əlaqədar bu yaş dövründə aşağıdakı işlərin aparılması zəruridir:

-Əmək fəaliyyəti üçün zəruri olan həyati və məişət əşyalarının göstərilməsi və adlandırılması;

- Gündəlik təsərrüfat-məişət əməyinin yollarının göstərilməsi;

- Oynadıqdan sonra oyuncaqları yığışdırmağın öyrədilməsi;

- Özünəxidmət bacarıqlarının formalaşdırılması.

**Bədii fəaliyyət.** Bədii fəaliyyət prosesində uşaqda yaradıcı təxəyyül, təfəkkür, ünsiyyət bacarıqları, digər insanların mövqeyini qəbul etmək bacarığı yaranır və inkişaf edir. Təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə gözəlliyi görmək bacarığını tərbiyə etmək, yaradıcı qabiliyyəti (musiqi duyumu, təsviri fəaliyyət) inkişaf etdirmək lazımdır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır. Bunun da təməli erkən yaş dövründə qoyulur.

Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Uşağın bədii fəaliyyətdəki iştirakını təmin etməklə, incəsənət əsərlərinin qavranılması;

- İncəsənət əsərlərinə emosional münasibətin təzahürü üçün şəraitin yaradılması;

- Böyüklər tərəfindən oxuma, rəsmlərin çəkilməsinə və s. uşaqların diqqətinin cəlb olunması;

- Uşaqları böyükləri təqlidə həvəsləndirmək, birlikdə icra etmək.

**Təlim.** Həyatının ikinci ilində uşağın oyun və məşğələlərinin ahəngdar inkişafı onda musiqiyə, bədii sözə emosional həssaslıqla yanaşmaq qabiliyyətini təkmilləşdirir. Didaktik oyuncaq və materiallarla keçiirilən xüsusi məşğələlərdə əşyalarla fəaliyyət prosesində uşaqlarda hissetmə mədəniyyəti formalaşır. Məkanla daha geniş tanışlıq fəal marağı gücləndirir, sensor inkişafı zənginləşdirir, ümumi hərəkətlərin rəngarəngliyini inkişaf etdirir.

Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Əldə edilmiş bilik və bacarıqları möhkəmləndirilməsi;

-Sadə əşyalar vasitəsilə müxtəlif hərəkətlərin yerinə yetirilməsi;

-Yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsi;

-Əşyalar vasitəsilə müxtəlif ölçülərin (böyük, kiçik) öyrədilməsi.

**Mədəni-davranış vərdişlərinin aşılanması.** Bununla əlaqədar aşağıdakı işlərin aparılması zəruridir:

-Norma və qaydalara uyğun sadə mədəni davranış vərdişlərinin formalaşdırılması;

-Böyüklərin nitqinin dinlənilməsi, sadə suallara cavab alınması, "olar", "olmaz", sağ ol" sözlərinin mahiyyətinin başa düşülməsi və yerində işlədilməsinə nail olmaq;

**2-3 yaş. Əşyavi fəaliyyət.** Erkən yaşlı uşaqlar əsasən ünsiyyət, oyun və əşyavi-manipulyativ fəaliyyətlərə cəlb olunur. Buna görə bu fəaliyyətlər əsasında hansı bacarıqların formalaşmasına imkan yaradılacağı dəqiq bilinməlidir. Ünsiyyət, əşyavi-manipulyativ fəaliyyətlər uşağı dili fəal mənimsəməyə aparır və onu oyuna hazırlayır. Əşyalarla fəaliyyətin təsiri altında ünsiyyət və oyun zamanı uşaqlarda təfəkkür, yaddaş, duyğu və digər idraki proseslər inkişaf edir.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

*-Ətraf mühitdəki həm sosial, həm də təbiət obyektləri ilə tanışlıq, onlarla davranma yollarının göstərilməsi, uşağın əşyalarla, oyuncaqlarla fəaliyyətə həvəsləndirilməsi, perseptiv fəaliyyətin formalaşdırılması;*

*- Uşağın manipulyativdən əşyavi fəaliyyətə, sonra isə alət fəaliyyətinə keçidə həvəsləndirilməsi;*

*- Qeyri-ixtiyari idraki proseslərə və ixtiyarilik üzərində emosionallığın üstünlüyünə əsaslanaraq uşağın idraki tələbatının dəstəklənməsi və stimullaşdırılması;*

**Ünsiyyət.** Bu dövrdə fiziki inkişafın intensivliyi azalsa da, ətrafdakılarla münasibətdə əsaslı dönüş baş verir. Fəaliyyətlərin müxtəlifliyindən və məşğələlərin xarakterindən asılı olaraq, onlar nitq fəaliyyətinin müxtəlif formalarına cəlb olunurlar. Əvvəlki yaş dövrünə nisbətən ətrafdakılarla canlı ünsiyyətə-dialoqa girir, danışanı dinləməyə, eşitdiklərini başa düşməyə, sual verməyə, "bu nədir?", "nə vaxt?", "harada?", "nə üçün?" suallarına cavab verməyə çalışır. Erkən yaşlı uşaqlar tərbiyəçi-müəllimlərin nəzarəti ilə fiziki və sosial mühitə uyğunlaşmağı, başqalarıyla qarşılıqlı əlaqə qurmağı və ünsiyyət qurmağı öyrənirlər.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

- Təhlükəsiz ünsiyyət dairəsinin genişləndirilməsi, "yanında" qarşılıqlı fəaliyyətdən "birlikdə" qarşılıqlı fəaliyyətə keçid;
- Emosional-işgüzar ünsiyyətin tələbatına uyğun olaraq uşağın müraciətinə cavabın təşkili;
- Ətraf mühit barədə danışmaq xahişinin dəstəklənməsi və cavablandırılması. Digər uşaqlarla ünsiyyət qurmaqda uşağa yardım etmək.
- Ünsiyyət prosesində müsbət emosiyaların yaranması üçün şəraitin yaradılması. Böyüklərin və uşaqların müsbət nümunələrinin təqlid edılməsi istəyinin dəstəklənməsi.

**Oyun**. Oyun vasitəsilə uşaqlar fikirlərini və başa düşdüklərini ifadə edirlər. Onlar problemlərin həlli, sosial oyunlar və ünsiyyət zamanı bacarıqlarını tətbiq edirlər. Həvəsləndirici oyun təcrübələri uşaqların kommunikativ, idraki, motor bacarıqlarının olmasından xəbər verir. Öz bacarıqlarından xəbərdar olan və oyunlarda axtarışı sevən uşaqlar hər hansı problemin həlli yollarını tapmaqda daha yaxşı nəticə göstərirlər.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

-Oyun fəaliyyətini formalaşdırmaq;

-Fərdi oyunlardan birgə oyuna keçid;

- Emosional reaksiya üçün şəraitin yaradılması, oyunda iştirak arzusunun yaranması;

- Müxtəlif oyuncaq növlərinin mənimsənilməsində yardım;

- Müxtəlif oyun növlərində oyuncaqların və digər əşyaların istifadə üsullarının öyrədilməsi.

**Təlim.** Erkən dövrdə təlimin oyun- məşğələ formasında keçirilməsi məqsədəuyğundur. Oyun - məşğələlər uşağın vaxtında və ahəngdar inkişafına kömək edir. Bunlar elə bacarıqların formalaşmasına yönəldilir ki, həmin bacarıqlar uşağın müstəqil oyun prosesində böyüklərın təsiri olmadan baş verə bilməz. Bu və ya digər bacarıqlar uşaqlar tərəfindən mənimsənildikcə məşğələlər mürəkkəbləşdirilir.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

-Sensor inkişaf (birgə oyun və təlim prosesində əşyanın forma, rəng, ölçü, az və çox anlayışlarının müəyyənləşdirilməsi; 2-3 əlamətinə görə əşyaları qruplaşdırmaq), nitq inkişafı və ətraf aləm haqqında ilkin təsəvvürlərin formalaşdırılması;

-Əsas hərəkətlərin (yeriş, qaçış, tullanma, sürünmə və s.) inkişaf etdirilməsi.

**Əmək fəaliyyəti** üzrə aşağıdakı istiqamətlərdə işlərin aparılması zəruridir**:**

**-Özünəxidmət əməyi.** Müstəqil səliqəli yemək, soyunub-geyinmə və yuyunma bacarıqlarının aşılanması;

-Geyimlərindəki çatışmazlıqları görüb, aradan qaldırılması üzrə vərdişin aşılanması;

- Təmizlik və gigiyena qaydalarına əməl edilməsinin öyrədilməsi.

**-Məişət-təsərrüfat əməyi.** Böyüklərin köməyi ilə nahar və məşğələ üçün stollara ləvazimatların düzülməsinin öyrədilməsi;

-Birgə əmək fəaliyyətinin təşkili.

**Bədii fəaliyyət** üzrə aşağıdakı işlərin aparılması zəruridir:

-Bədii fəaliyyətə qoşulma;

- Estetik təəssüratların genişləndirilməsi;

- İncəsənət əsərlərinə emosional cavabın, onları bütünlüklə qavranılması imkanlarının, bədii bacarıqların inkişafı;

- Musiqi səslərinin xüsusiyyətlərinin mənimsənilməsində təsviri fəaliyyət əşyalarından (karandaş, kağız və s.) istifadə edilməsi.

**Mədəni-davranış və qarşılıqlı münasibət vərdişlərinin aşılanması.**

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

- Salamlaşmağı, xudahafizləşməyi, xahiş, təşəkkür bildirən sözlərdən istifadə vərdişinin aşılanması;

-Yaşıdlarının əhatəsində mədəni davranışın təcrübəsini yaratmaq;

-Güzəştə getmək, bölüşmək, kömək etmək arzusunun reallaşmasına kömək etmək;

-Davranışa nəzarəti tərbiyə etmək.

**Sensor tərbiyə.** Sensor tərbiyə ətraf aləmin hərtərəfli dərkedilməsinin formalaşdırılmasına xidmət edir. Məktəbəqədər yaşlı uşaqların sensor tərbiyənin mühüm şərtlərindən biri onun uşaqların məzmunlu fəaliyyətində həyata keçirilməsi prosesidir.

Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

- Sensor tərbiyə üzrə müxtəlif təcrübələrin təşkili;

-Müxtəlif fəaliyyət növlərində sensor xüsusiyyətlərin ( rəng, forma) nəzərə alınması.

**3-4 yaş. İdraki praktik fəaliyyət** üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

-Hər şeyi bilmək istəyinin hər şeyi öyrənmək həvəsinə keçməsi üçün şərait yaratmaq;

- bacarıq və vərdişlərin dairəsinin genişləndirilməsi (zaman və məkanda), ailə və ya məktəbqədər müəssisə şəraitində əşyalarla fəaliyyət üsullarının mənimsənilməsi;

-Perseptual (hissi qavrayış) fəaliyyətin formalaşması;

- Praktiki təhlil və tərkibdən istifadə etməklə, əyani-əməli üsullarla məsələlərin həlli;

- Müstəqilliyin və şifahi nitqin inkişafı üçün senzitiv (həssaslıq) dövrün istifadəsi;

-Üç yaş böhranından çıxışda, əşyavi fəaliyyətdən əsas fəaliyyət növü kimi oyun fəaliyyətinə keçidə yardımçı olmaq;

- Sualların (Nə? Kim? Niyə? Harada?) köməyi ilə idraki fəallığın təmin edilməsi;

- Dioloji nitqin formalaşması.

**Ünsiyyət** üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

-Şəxsiyyətlərarası münasibətlərdə uşağın tələbatının təmin olunması üçün təhlükəsiz və rahat atmosferin yaradılması;

- Uşaqların marağı üzrə ünsiyyətin təşkili, müsbət münasibətlərin qurulmasına yardım;

-Mədəni ünsiyyət qaydalarına müvafiq olaraq effektiv ilkin kommunikativ bacarıqların formalaşması;

-Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin istifadəsində, uşaqlar və böyüklərlə ünsiyyətin qurulması üzrə vasitə və üsulların (salamlaşmaq, gözlərə baxmaq, təşəkkür etmək və s.) mənimsənilməsində uşağa yardım.

**Oyun fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması məqsədəuyğundur:

- Oyunda ətraf aləmin dərk edilməsi üçün uşağın şəxsi təcrübəsinin oyuna (təsvir olunan vəziyyətə) köçürülməsi üçün şəraitin yaradılması;

- Oyun məqsədlərinin qoyulması, oyun qaydalarını razılaşdırmaq və ona riayət etmək bacarıqlarının formalaşması;

- Uşağa qalib gəlmək imkanları vermək.

**Əmək fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-Böyüklərin təsərrüfat-məişət və təbiətdə əməyinin müşahidəsinin təşkili, birgə təsərrüfat-məişət əməyinə cəlb etmək;

-Təsərrüfat-məişət əməyində lazım olan oyuncaqlarla (əmək alətləri ilə) iş üsulları.

**Bədii fəaliyyət** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-İncəsənət nümunələri vasitəsi ilə uşağın dünyaya estetik münasibəti və bədii inkişafının formalaşması;

-İncəsənət əsərlərinə emosional münasibətin, təsviri fəaliyyət, musiqi və bədii-nitq fəaliyyəti şəraitində bədii bacarıqların inkişafı;

- Təsviri fəaliyyətin həyata keçirildiyi əşyaların (fırça, karandaş rənglər və s.) köməyi ilə musiqi fəaliyyətinin müxtəlif növlərində ifaçılıq bacarıqlarının mənimsənilməsi.

**Təlim fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-Ətraf aləmdəki əşyalarla fəaliyyət üsullarının mənimsənilməsi;

- Məsələlərin həlli üsulları ilə tanışlıq;

- Təlim məsələlərinin səmərəli həlli üçün şəraitin yaradılması.

***4-5 yaş. İdraki praktik fəaliyyət*** üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Analogiya üzrə fikir yürütmək, təhlil etmək, müqayisə etmək, nəticələr çıxarmaq, səbəb-nəticələr çıxarmaq,səbəb-nəticə əlaqəsini müəyyən etməyin formalaşması*;*

- Ətraf aləmə, başqa insanlara və özünə qarşı uşaqda maraq və öyrənmək istəyi oyatmaqda idakın aktivliyin stimullaşdırılması*;*

- Uşağın emosional yaddaşına, onun müxtəlif məlumatları müstəqil şəkildə əldə etmə vərdişinə əsaslanma, axtarış aktivliyinin stimullaşdırılması*;*

- Diqqətin bir yerə cəmlənməsi və davamlılığına diqqət;

- Uşağın imkanlarını nəzərə almaqla idraki aktivliyin qeyri-ixtiyariyə keçirilməsi. Yeniliyin öyrənilməsində, idraki məsələlərin həllində sevinc duymaq imkanları təqdim etmək.

**Ünsiyyət fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Müstəqil şəkildə böyüklər və yaşıdları ilə qarşılıqlı fəaliyyət zamanı müəyyən olunmuş qaydaların rəhbər tutulması;

-İşgüzar situasiya və ünsiyyətin inkişafı;

-Uşağın yaşıdları tərəfindən qəbul olunması tələbatının təmin olunması üçün əlverişli şəraitin yaradılması;

-Birgə fəaliyyət, kiçik qruplarla fəaliyyəti təşkil edərək uşaq kollektivinin formalaşması;

-Ali əxlaqi hisslərin aşılanması ( vətənpərvərlik, kollektivizm, mehribanlıq və s.);

- Şəxsiyyətlərarası münasibətlər sistemində əlverişli yer və mövqeyə malik olmaq üçün uşağa ünsiyyət üsullarının və vasitələrinin (oyuncaqları bölüşmə, oyunların təşkili, yardım və s.) mənimsənilməsinə yardım;

**Oyun fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-Oyunun aparıcı fəaliyyət qismində inkişafı;

-Uşağın oyun rollarını yerinə yetirilməsi, müstəqil şəkildə qaydaların müəyyən olunması və riayət edilməsi, hərəkət vəziyyətlərinin, insanların oyun və real qarşılıqlı fəaliyyət vəziyyətlərinin müqayisəsi;

-Mövqelərin dəyişməsi ilə böyüklərin və uşaqların birgə oyununun təşkili;

-Oyun fəaliyyətinin mənimsənilməsi, uşağın xoş əhvalının və özünün reallaşdırılmasının dəstəklənməsi.

**Əmək fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-Digərlərinə yardım istəyinin və müstəqil fəallığa can atmanın dəstəklənməsi;

- Fəaliyyətin əsas növü qismində əməyin əhəmiyyətinin açılması, əmək müvəffəqiyyətlərinə görə qürur hissinin oyanması;

-Əmək bacarıqlarının mənimsədilməsi prosesində vərdişlərin dəstəklənməsi;

-Uşaqların fərdi və birgə əmək fəaliyyətinin təşkili.

**Birgə fəaliyyət** üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Uşağın meyl və maraqlarının müəyyən edilməsi;

- Müxtəlif fəaliyyət növlərində (təsviri, bədii-nitq, musiqi, oyun, səhnələşdirmə) bədii bacarıqların inkişafının dəstəklənməsi;

-Təəssürat ilə uşaqların emosional sahələrinin genişləndirilməsi əsasında estetik hisslərin oyanması;

- Digərlərinin, bədii obrazın dərdinə şərik olma bacarıqlarının, incəsənət əsərlərinin fərqli qavranılmasına və bədii ifadə vasitələrinin fərqləndirilməsi üçün şəraitin yaranması;

-Bədii fikrin ixtiyari təcəssümünün təlimi;

- Əyani-obrazlı təfəkkür, obrazlı təxəyyülün inkişafı.

**Elementar təlim fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-Davranış normalarının mənimsənilməsində uşağın imkanları nəzərə alınmaqla reqlamentləşdirilmiş fəallıq şəraitində davranış qaydalarının izah olunması;

-Nitqin müşayiəti ilə məsələlərin həlli üsulları ilə tanışlıq;

-Fəaliyyətin idrak motivlərinin, idrak maraqlarının formalaşması.

**5-6 yaş. İdraki praktik fəaliyyət** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-İdraki bacarıqların inkişafı;

-Müxtəlif fəaliyyət növlərində sensor etalonunun tədqiqi;

- Müşahidə, reproduksiya və yaradıcı təxəyyülün inkişafı, müqayisə etmək, ümumiləşdirmək, nəticə çıxarmaq, təsnif etmə bacarıqları;

- Yaddaşın bütün növlərinə əsaslanmaqla uğurla yadda saxlama üçün şəraitin yaradılması.

**Ünsiyyət fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

- Mübahisəli vəziyyətin qeyri-zorakılıq yolu ilə həll olunmasının, ünsiyyətdə əxlaqi normaların aşılanması;

- Böyüklər və digər uşaqlara idraki, praktik və kommunikativ məsələlərin həlli üçün suallar vermək bacarığının formalaşdırılması;

- Ünsiyyət zamanı etibar və hörmətin aşılanması;

- Dostluq münasibətləri üçün şərait və imkanların yaradılması, kollektivçilik və liderliyin formalaşması;

- Başqa insanların emosional vəziyyətinin başa düşülməsi bacarıqlarının formalaşması;

**Oyun fəaliyyəti**

- Hadisələrin fərqləndirilməsi, oyundan zövq almaq;

-Marağın həyata keçirilməsi baxımından uzunmüddətli rollu oyunlar (pazzl oyunları, didaktik oyunlar və s.) üçün şəraitin yaradılması.

**Əmək fəaliyyəti**

- Birgə və fərdi fəaliyyətdə tələbatın öyrənilməsi üçün imkanların yaradılması;

-Əmək bacarıqlarının formalaşması, böyük və kiçik motor hərəkətlərinin inkişafı.

**Bədii -yaradıcı fəaliyyət** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-bədii mədəniyyət və estetik şüurun əsaslarının formalaşması;

- ümumi və xüsusi bədii bacarıqların inkişafı, fərqləndirmə və müqayisə, xüsusiyyətlərin ümumiləşdirilməsi, obraza acıma əsasında fərqli qavranmasının inkişafı;

- müxtəlif bədii fəaliyyət prosesində müstəqillik və özünənəzarətin yardımı ilə bədii obrazın modelləşdirilməsi şəraitində subyektiv movqeyin və özünüifadənin dəstəklənməsi;

- bədii fəaliyyətə hissi mədəniyyətin və yaradıcılıq münasibətlərinin aşılanması.

**Elementar təlim fəaliyyəti** üçün aşağıdakı işlərin aparılması zəruridir:

-təşkil olunmuş fəaliyyət zamanı davranış normalarına və fəallığa uyğunlaşma vərdişlərinin formalaşması;

-məsələlərin həlli üsulları (sınaq, reproduktiv, ümumiləşdirilmiş qrup məsələlərinin həlli üsulları) ilə tanışlıq;

-müstəqil axtarıcılıq bacarığının və qarşılıqlı fəaliyyətin təşkili;

-İlkin təlim bacarıqlarının formalaşdırılması;

- intellektual və estetik kimi ali hisslərin inkişafı.

### 2.2. Müxtəlif yaş qruplarında keçiriləcək məşğələlərin adı, həftəlik miqdarı və müddəti

**Uşaqlar ümumi təyinatlı qruplarda birləşirlər:**

I körpələr qrupu (1-2 yaş)

II körpələr qrupu (2-3 yaş)

Orta qrup (3-4 yaş)

Böyük qrup (4-5 yaş)

Məktəbəhazırlıq qrupu (5-6 yaş);

**1-2 yaş**

| Sıra | **Məşğələ** | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| | Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| | Hərəkətlərin inkişafı | 2 | 72 |
| . | Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla, tikinti materialları ilə) | 1 | 36 |
| . | Musiqi | 1 | 36 |

Cəmi: **6** məşğələ

| | |
|---|---|
| Bazar ertəsi<br>1.Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2.Hərəkətlərin inkişafı | Cümə axşamı<br>1.Ətraf mühitlə tanışlıq və nitq inkişafı |
| Çərşənbə axşamı<br>1.Sensor tərbiyə | Cümə<br>1.Musiqi |
| Çərşənbə<br>1.Hərəkətlərin inkişafı | |

Məşğələnin müddəti **10** dəqiqə olmaqla, hər bir məşğələ yarımqruplarla keçirilir. 2 məşğələ olan zaman digər məşğələ günün ikinci yarısında keçirilir.

**2-3 yaş.**

| Sıra | **Məşğələ** | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| | Ətraf mühitlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| | Hərəkətlərin inkişafı | 2 | 72 |
| | Sensor tərbiyə (didaktik materiallarla, oyuncaqlarla, tikinti materialları ilə) | 1 | 36 |
| | Təsviri fəaliyyət | 1 | 36 |
| | Musiqi | 2 | 72 |

Cəmi: **8** məşğələ

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti **15**, məşğələlər arası fasilə isə **10** dəqiqə olur. Şənbə günləri məşğələ keçirilmir, oyun və əyləncələr təşkil olunur.

| | |
|---|---|
| Bazar ertəsi<br>1.Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2.Musiqi | Cümə axşamı<br>1.Ətraf mühitlə tanışlıq və nitq inkişafı<br>2.Hərəkətlərin inkişafı |
| Çərşənbə axşamı<br>1. Sensor tərbiyə<br>2. Hərəkətlərin inkişafı | Cümə<br>1.Musiqi |
| Çərşənbə<br>1.Təsviri fəaliyyət | |

**3-4 yaş.**

| | **Məşğələ** | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| | Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| | Fiziki mədəniyyət | 2 | 72 |
| | Məntiqi və riyazi təfəkkürün inkişafı | 1 | 36 |
| | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| . | Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma) | 2 | 72 |
| | Musiqi | 2 | 72 |

Cəmi: **10** məşğələ

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti **20**, məşğələlər arası fasilə isə **10** dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir, oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar, əmək fəaliyyəti təşkil olunur.

| | |
|---|---|
| Bazar ertəsi<br>1.Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2.Musiqi | Cümə axşamı<br>1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | Cümə<br>1.Təsviri fəaliyyət<br>2.Musiqi |
| Çərşənbə<br>1.Bədii təfəkkürün inkişafı<br>2.Təsviri fəaliyyət | |

**4-5 yaş**

| | **Məşğələ** | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| | Ətraf aləmlə tanışlıq və nitq inkişafı | 2 | 72 |
| | Fiziki mədəniyyət | 2 | 72 |
| | Məntiqi və riyazi təfəkkürün inkişafı | 1 | 36 |
| | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| | Təsviri fəaliyyət (rəsm,kəsib-yapışdırma), (yapma, quraşdırma) həftəaşırı | 2 | 72 |
| | Musiqi | 2 | 72 |

Cəmi: **10** məşğələ

| Bazar ertəsi<br>1.Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Musiqi | Cümə axşamı<br>1. Ətraf aləmlə tanışlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |
|---|---|
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Fiziki mədəniyyət | Cümə<br>1.Təsviri fəaliyyət (yapma, quraşdırma)<br>2. Musiqi |
| Çərşənbə<br>1.Bədii təfəkkürün inkişafı<br>2.Təsviri fəaliyyət (rəsm, kəsib-yapışdırma) | |

Məşğələ günün birinci yarısında keçirilir.Məşğələlərin müddəti **25**, məşğələlər arası fasilə isə **10** dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir, oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar, əmək fəaliyyəti təşkil olunur.

**5-6 yaş**

| | **Məşğələ** | Məşğələlərin həftəlik miqdarı | Məşğələlərin il ərzində miqdarı |
|---|---|---|---|
| | Ətraf aləmlə tanışlıq | 1 | 36 |
| | Fiziki mədəniyyət | 2 | 72 |
| | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 | 36 |
| | Bədii təfəkkürün inkişafı | 1 | 36 |
| . | Təsviri fəaliyyət (rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma) | 2 | 72 |
| | Musiqi | 2 | 72 |
| | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 | 72 |

Cəmi: **12** məşğələ

Məşğələ günün birinci yarısında keçirilir. Məşğələlərin müddəti **30**, məşğələlər arası fasilə isə **10** dəqiqə olur. Zehni gərginlik tələb edən məşğələlərdə idman dəqiqəsi keçirilir. Şənbə günləri məşğələ keçirilmir, oyunlar, əyləncələr, gəzinti və ekskursiyalar, əmək fəaliyyəti təşkil olunur.

| Bazar ertəsi<br>1.Ətraf aləmlə tanışlıq<br>2. Fiziki mədəniyyət<br>3.Təsviri fəaliyyət | Cümə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi |
|---|---|
| Çərşənbə axşamı<br>1. Məntiqi və riyazi təfəkkürün inkişafı<br>2. Musiqi<br>3. Savad təliminə hazırlıq və nitq inkişafı | Cümə<br>1.Savad təliminə hazırlıq və nitq inkişafı<br>2. Fiziki mədəniyyət |
| Çərşənbə<br>1.Bədii təfəkkürün inkişafı<br>2.Təsviri fəaliyyət | |

## 2.3. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi

Məktəbəqədər təhsil kurikulumunun məzmunu standartlar şəklində ifadə olunmuşdur. Məzmun standartları uşaqların bilik və bacarıq səviyyələrinə qoyulmuş dövlət tələbi olmaqla, gözlənilən ümumi təlim nəticələrini reallaşdırır. Standartlar bütün yaş qrupları üçün eyni, alt standartlar isə hər yaş qrupuna müvafiq olaraq, dəyişilir. Alt standarlar əsas standartlarda ifadə olunmuş fikrin müəyyən hissəsidir. Hər yaş qrupuna uyğun olaraq, alt standartlar inkişaf dinamikası üzrə tədricən mürəkkəbləşir.

Hər bir standart bilik və fəaliyyətdən ibarətdir. Burada məzmun uşaqların nə öyrənəcəyini, yəni bilik hissəsini, fəaliyyət isə uşağın öyrəndiyini necə nümayiş etdirəcəyini bildirir. Məsələn, 3-4 yaş dövründə (yəni orta qrupda) bir standarta nəzər salaq: St. 2.3.1.Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir; Burada *üç dairəsində riyazi əməliyyatlar* **bilik,** *yerinə yetirir* – **isə fəaliyyət** hissəsidir. Bütün fəaliyyətlərdə uşağın təfəkkür fəallığının inkişaf etdirilməsi, psixomotor bacarıqların formalaşdırılması zəruri tələb kimi diqqət mərkəzində saxlanılmışdır. Deməli, məzmun standartları birtərəfli deyildir, o, bilik hissəsinin təcrübədə tədqiq olunaraq bacarığa çevrilməsini təmin edir. Bütün bunlar isə məzmun standartlarında qoyulmuş bütün biliklərin bacarıqlar formasında möhkəmləndirilməsinə səbəb olur ki, bu da uşaqlarda səriştələrin formalaşıb möhkəmləndirilməsinin əsasını qoyur.

Məktəbəqədər təhsilin kurikulumu inteqrativ xarakter daşıyır. Bu, ilk növbədə, uşaqların ibtidai təhsil üçün hazırlanması və uşaq şəxsiyyətinin formalaşmasına imkan yaratması, onlarda sadə həyati bacarıqların formalaşması ilə bağlıdır. Ona görə də məktəbəqədər təhsil kurikulumunda verilən standartlar biri digərini tamamlamaq, möhkəmləndirmək, davam etdirmək baxımından elə ardıcıllıqla verilir ki, onların vasitəsilə uşaq şəxsiyyətinin formalaşması və inkişafını izləmək mümkün olur. Məktəbəqədər təhsil kurikulumunda təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələrinin qurulması əsas prinsiplərdən olan inteqrasiyanın şaquli və üfüqi inteqrasiya formasında sistemləşdirilməsini təmin edir. Şaquli inteqrasiyada yaş qrupları və inkişaf sahələri arasındakı əlaqə, ardıcıllıq və sistemlilik, üfüqi inteqrasiyada isə hər yaş dövrü üzrə müxtəlif inkişaf sahələri üzrə əsas və alt standartlar arasındakı əlaqəlilik və ardıcıllıq təmin olunur.

Bütün hallarda uşaqların inteqrativ standartlar əsasında bacarıqlara yiyələnməsi diqqət mərkəzində saxlanılır. Məzmun yaş qrupuna uyğun olaraq sadədən mürəkkəbə prinsipi əsasında məntiqi ardıcıllıq və sistemlə müəyyənləşdirilmişdir. Məktəbəqədər təhsilin sonunda ümumi təlim nəticələri təqdim olunmuşdur ki, burada da ibtidai məktəblə məktəbəqədər təhsil pilləsi arasındakı varislik gözlənilmişdir.

İnteqrasiyanın təmin olunması üçün inkişaf sahələrinin əlaqələndirilməsində tərbiyəçi-müəllimlərə daha geniş imkanların yaradılması vacibdir. Məktəbəqədər təhsil kurikulumu elə standartlardan təşkil olunmuşdur ki, burada bir mərhələdən digərinə keçid daxili məntiq və məzmun prinsipləri ilə bərabər, mövzuların ardıcıllığına əsaslanır. Burada uşaqların növbəti yaş qrupunda nisbətən mürəkkəb məlumatları mənimsəmək üçün xüsusi biliyin olub-olmaması nəzərdə tutulur. Sadə və konkret anlayışlardan daha mürəkkəbə keçidi alt standartlarda müşahidə etmək olur. Yaş qrupu artdıqca, verilən biliyin məzmunu mürəkkəbləşir, yəni bütün alt standartlar yaş dövrləri artdıqca sadədən mürəkkəbə doğru inkişaf edib mürəkkəbləşir. Alt atandartların belə dəyişib, mürəkkəbləşməsi uşaqların inkişaf dinamikasını izləməyə imkan verir. Burada asandan çətinə prinsipi əsas götürülmüşdür.

Eyni zamanda alt standartların yaş dövrlərinə uyğun olaraq dəyişməsi bütün inkişaf sahələri və məşğələlər arasında inteqrasiyanın yaranması və möhkəmlənməsinə səbəb olur.

Məktəbəqədər təhsil kurikulumu bütün təlim nəticələrini əks etdirməklə son nailiyyətləri təsəvvür etməyə imkan verir. Öyrənmə prosesində əldə edilən nailiyyətin hansı səviyyədə olmasını müəyyənləşdirmək üçün müvafiq şərait yaranır.

Bütün bunlarla yanaşı, məktəbəqədər təhsil kurikulumu aşağıdakı məsələləri əhatə edir:

- müxtəlif bacarıqların öyrənilməsini nəzərdə tutan balanslaşdırılmış yanaşmanı əhatə edir;
- fəal təlim üsullarından istifadə etməklə məzmun standartlarının səviyyəsinə çatmağa imkan yaradır;
- uşaqların inkişafının və təlim nəticələrinin qiymətləndirilməsini, il ərzində düzəlişlərin edilməsini nəzərdə tutur;
- uşaqların təlim prosesinə cəlb edilməsini və həvəsləndirilməsini təmin edir;
- müvafiq təlim resurslarına malik olur.

Bu səciyyəvi cəhətlər onu əvvəlki proqramlardan fərqləndirir.

***Nəticəyönümlülük*** məktəbəqədər təhsilin kurikulumunun hazırlanmasında nəzərə alınan mühüm didaktik prinsiplərdən biridir. Təlim prosesində əldə olunacaq nəticələrin əvvəlcədən müəyyən edilməsi və onun məzmuna gətirilməsi bu prinsipin başlıca cəhətlərindən biri kimi dəyərləndirilir. Nəticəyönümlülük, ilk növbədə, təlim fəaliyyətinə əsaslanır, bütövlükdə təlim prosesinin mahiyyətini təşkil edən son nəticəni görməyə imkan verir. İlk növbədə, məzmunu ifadə edən belə ümumi nəticələr dövlət tərəfindən təsdiq olunur.

Məktəbəqədər təhsil kurikulumunda məktəbəqədər təhsil pilləsinin sonu üçün nəzərdə tutulan ümumi inkişaf və təlim nəticələri məktəbəqədər təhsil pilləsi üçün milli səviyyədə müəyyənləşdirilmişdir ki, onlar respublikada məktəbəqədər təhsilin məzmununu ifadə edir. İnkişaf sahələri və yaş qrupları üzrə hazırlanmış nəticələr isə ümumi təlim nəticələrinə uyğun xüsusi nəticələr kimi təsdiq olunur.

İnkişaf və təlim standartları bölməsində təqdim edilən məzmun standartları ümumi təlim nəticələrinin reallaşmasına xidmət edir və standartlarda qoyulmuş tələblər bilik formasında uşaqlar tərəfindən mənimsənilərək təcrübədə artıq bacarıqlara çevrilir. Bu isə uşaqların inkişafını izləmək, istiqamətləndirmək üçün qiymətləndirmə aparmaq baxımından əhəmiyyətlidir. Ümumi nəticələr bütün inkişaf sahələri üzrə hər bir yaş dövrünə uyğun mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret hissəsi olduğundan onlar həm məzmunu müəyyənləşdirir, həm də uşaqların əldə etdiyi nailiyyətlərin dəyərləndirilməsinə şərait yaradır.

Məktəbəqədər təhsil kurikulumuna görə uşaqlar lazımsız informasiya ilə yüklənmir, gələcək həyat fəaliyyətində ona lazım olacaq ən zəruri ilkin həyati bacarıq və qabiliyyətlərn yaradılması istiqamətində iş aparılır, bacarıq və vərdişlər aşılanır, qabiliyyətlərn formalaşması ön plana çəkilir.

Tərbiyəçi-müəllimlər məzmun standartlarının reallaşdırılması zamanı aşağıda qeyd olunan məsələlərə diqqət yetirməlidirlər:

- hər bir yaş mərhələsində mənimsənilməsi əvvəlcədən nəzərdə tutulmuş ümumi təlim nəticələrinə nail olunması, məzmun standartlarının reallaşdırılması üçün mövzuların düzgün müəyyənləşdirilməsi;
- hər yaş dövrünün sonunda uşaqların bilik və bacarıq səviyyələrinin məzmun standartlarında qoyulan tələblərə cavab verməsi;
- məzmun standartlarındakı biliklərin uşaqlar tərəfindən mənimsənilməsi və təcrübəyə tətbiq olunaraq həmin biliklərin bacarıqlara çevrilməsi;

- təlim məqsədlərinin alt-standartlara uyğun olaraq düzgün müəyyənləşdirilməsi;
- hər bir məzmun standartından bir neçə mövzunun, çıxarılması.

Məsələn, 4-5 böyüklər qrupunda (böyük qrupda) idrakın inkişafı üzrə təqdim edilən "2.1.4.Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir." standartı əsasında standartda verilən obyektlərlə tanışlıq üzrə bir çox məşğələ planlaşdırılır. Planlaşdırma həm müvafiq yaş qrupunun, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsini nəzərə alaraq müəyyən zamanda təlim və tərbiyənin vəzifələrini konkretləşdirməlidir. Mövzular planlaşdırılarkən xronoloji, sadədən mürəkkəbə və məntiqi ardıcılllığın gözlənilməsinə əməl olunmalıdır.

## III. Məktəbəqədər təhsil strategiyaları

### 3.1.İnkişafetdirici təlim mühitinin təşkili

İnkişafetdirici təlim mühiti uşaqların təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Tərbiyəçi-müəllimlər fiziki və psixoloji baxımdan təhlükəsiz və həvəsləndirici mühit yaradaraq uşaqların müstəqil və qrup layihələri, oyun, müxtəlif vasitələr və digər uşaqlarla və böyüklərlə qarşılıqlı əlaqə vasitəsilə inkişafı dəstəkləyirlər.

Uşaqyönümlü mühitin yaradılması işində aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

• Uşaqların ətraf mühitdə olan əşyalar və onları əhatə edən insanlarla qarşılıqlı əlaqə quraraq öyrənməsi və biliklər qazanması.

• Uşaqların inkişafını və öyrənməsini təmin etmək üçün onların maraq, ehtiyac və güclü tərəflərinin nəzərə alınması.

Elementar tədqiqatların aparılması, yeniliklərin kəşf edilməsi və fikir mübadiləsinə şərait yaradan mühitin qurulması məsuliyyəti tərbiyəçi-müəllimlərin üzərinə düşür. Belə mühitdə tərbiyəçi-müəllimin rolu uşaqların özünüifadəsini dəstəkləməkdən, arzu olunan davranış və şəxsi keyfiyyətlərin: "niyə?", "nə üçün?" suallarının verilməsinin, ətrafdakılara qarşı hörmət və qayğının göstərilməsinin, məsuliyyət hissinin təmin olunmasından ibarətdir.

Uşaqyönümlü inkişafetdirici mühitdə tərbiyəçi-müəllim uşaqların irəli sürdükləri fikirlərə, təşəbbüslərə hörmət və diqqətlə yanaşır, onları məşğələlərin planlaşdırılması və həyata keçirilməsi zamanı nəzərə alır. Təşəbbüskar uşaqlar dəstəklənir, bir qədər çəkinən və passiv olan uşaqlar isə təşəbbüs göstərməyə həvəsləndirilir. Bunun üçün tərbiyəçi-müəllim "sən nə ilə məşğul olmaq istəyərdin? ", "sən nə fikirləşirsən?", "çəkdiyin şəklin mənasını mənə başa sal" və s. kimi sual və təkliflərlə uşaqları fəallaşdıra bilər. Uşaqlar yalnız eşitmək və deyilən kimi hərəkət etmək deyil, fikir yürütmək, faktlar axtarmaq, səbəb-nəticə əlaqələrini soruşmaq, izah etmək və qurmaq, sadə tədqiqatlar aparmaq, həmyaşıdları ilə ünsiyyət qurmaq, fəaliyyəti marağına görə seçmək və sərbəst davranmaq hüquqlarına malikdirlər.

İnkişafetdirici mühitin daxili (uşaq bağçasının və qrupun daxili mühiti) və xarici (uşaq bağçasının həyətyanı sahəsi) kimi 2 tipi mövcuddur.

***Daxili inkişafetdirici mühit:*** Fəaliyyət mərkəzləri belə mühitin yaradılması üçün əsas vasitədir. Belə mühit uşağın maraq (müxtəlif mərkəzlər və müxtəlif materiallar) və ehtiyaclarına (uşağın fəaliyyət mərkəzini seçmək imkanı) uyğun təlimi təcrübədə həyata keçirməyə imkan verir.

***Xarici inkişafetdirici mühit:*** Uşaq bağçasının sahəsi daxili məkanda mümkün olmayan imkanları təmin etməlidir.

Müəssisənin həyətində oyun məkanına təbiət elementləri: ağaclar, bitkilər, yeməli meyvə və tərəvəz, qum, daş, gil, su və digər təbii elementlər daxil olmalıdır. Bu məkan təbiəti ilə əlaqə, imkan və kəşfləri təmin etməyə qadirdir. Belə sahələr ətraf aləmin öyrənilməsinə, təbiətə qayğının vacibliyinin dərk edilməsinə kömək edir, eyni zamanda fasiləsiz ekoloji təhsili təmin edir.

Həm daxili, həm də xarici inkişafetdirici mühit uşağın təliminin bütün aspektlərini təmin edir və müəllim, uşaqlar, ailələr və yerli ictimaiyyət arasında ünsiyyətə kömək edir. İnkişafetdirici mühitin hər iki növü uşağın inkişafında daimi əməkdaşlıq və təlimi üçün imkanları təmin edir.

İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması bütün inkişaf sahələri üzrə uşaqların təliminə müsbət təsir göstərir.

İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün məktəbəqədər təhsil müəssisələrində müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Bu guşələr inkişaf sahələr üzrə qurulur və uşağın inkişafını təmin edir. Məktəbəqədər qruplarda şərait elə yaradılır ki, bu da uşağa sərbəst seçim imkanı verməlidir. Hər yaş qrupunda bir neçə guşələr (fəaliyyət mərkəzlərinə) yaradılır ki, bunların da hər birində tədqiqat və oyunlar üçün kifayət qədər materiallar təqdim olunur. Yaş qruplarına əsasən guşələr müxtəlif olur.

Guşələr aşağıdakı şərtlər nəzərə alınmaqla tərtib olunur:

1.Uşaqların maraq və inkişaf ehtiyacları.

2.Məktəbəqədər təhsil müəssisələrində mövcud olan təlim resursları.

Fəaliyyət mərkəzləri (guşələr) dedikdə, əsasən, aşağıdakılar nəzərdə tutulur:

• riyaziyyat guşəsi;
• kitab guşəsi;
• stolüstü oyunlar guşəsi;
• elm guşəsi;
• təsviri fəaliyyət guşəsi;
• qum və su guşəsi;
• tikinti materialları guşəsi;
• sujetli-rollu oyunlar guşəsi;
• məişət-təsərrüfat guşəsi;
• milli guşə;
• gəlincik guşəsi;
• nəqliyyat guşəsi;
• təbiət guşəsi;
• əl əməyi (məktəbəhazırlıq qrupunda) guşəsi.

Bu materiallar həm dövlət tərəfindən verilir, həm də tərbiyəçi-müəllim, valideyn və uşaqlar tərəfindən hazırlanır.

Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir, xüsusi materiallarla təchiz olunur. Mərkəzlərdə qoyulan materiallar (kitablar, oyuncaqlar, həndəsi fiqurlar, oyuncaq qablar, mətbəxə aid oyuncaqlar, kağız, qələmlər, karton, boyalar, plastilin, pazllar, müxtəlif bitkilər, yarpaqlar) uşaqların əli çatan vəziyyətdə qoyulmalı və uşaqlar həmin materiallarla yaradıcı və müstəqil davranmağa həvəsləndirilməlidir. Fəaliyyət mərkəzləri (guşələr) elə yaradılmalıdır ki, orada uşaqlar kiçik qruplarda bir-birilə oynayıb ünsiyyət qura, istədikləri fəaliyyət mərkəzlərini özləri seçə bilsinlər. Həm də fəaliyyət mərkəzlərində uşaqlar birgə oynamaq və əməkdaşlıq etməyi öyrənirlər.

İnkişafetdirici və dəstəkləyici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Böyüklər uşağın necə öyrənməsi prosesinə təsir göstərən şəraiti və materialları təmin edir, onların daha çox qarşılıqlı münasibətlər daxilində fəaliyyət göstərmələrini və özlərini ifadə etdiklərini reallaşdırır, lakin oyun prosesini formalaşdıran rol və vəzifələri uşaqlar özləri müəyyənləşdrirlər. Oyun uşaqlarda tədqiqat, risk etmə, sosiallaşma və təlimə motivasiyanı stimullaşdırır. Oyun vasitəsilə uşaqlar onların həyatlarına uyğun maraqlar və məna kəsb edən məsələləri araşdıra və bununla bağlı öz maraqlarını əks etdirə bilərlər. İnkişafetdirici mühit azad oyun üçün imkanlarla zəngin olmalıdır. Tərbiyəçi-müəllimlər uşaqları həvəsləndirməli və həm otaqda, həm də sahədə müxtəlif oyun şəraiti yaratmalıdırlar. Uşaq öz oyununa özü rəhbərlik edirsə, deməli,o, fəaliyyət mərkəzləri arasında hərəkət imkanlarına malikdir. Oyun prosesində uşaq təkcə onu əhatə edən dünyanı deyil, həm də özünü dərk edir. Uşaq oynaya-oynaya bilik qazanır, qazandığı biliyi fəaliyyətə çevirir, təfəkkürü və təxəyyülü inkişaf edir, ana dilinə yiyələnir və əlbəttə ünsiyyəti öyrənir.

***Məktəbəqədər yaşda uşaqların oyun kateqoriyaları.***Oyunların bütün növləri məktəbəqədər yaşlı uşaqların inkişafı və təlimi üzrə pedaqoji fəaliyyətin əsası olmalıdır.

**Tənha oyun:** materiallar və ideyalarla təkbaşına oyun.

**Paralel oyun:** Bəzən bir-birini təkrarlayaraq, bəzən isə həmin materiallardan istifadə edərək fərqli fəaliyyət növünü həyata keçirməklə yaxınlıqda oyun.

**Əməkdaşlıq oyunları:** ümumi maraqlara, həll üçün problemlərə malik olmaqla, ideya, rol mübadiləsi ilə digər uşaq və ya uşaqlar qrupu ilə əməkdaşlıqla oyun.

**Sərbəst oyunlar:** təkbaşına və ya yaşıdları ilə oyun, bu zaman yalnız oyun iştirakçıları tərəfindən tələb olunduqda böyüklərin dəstək göstərməsi.

**Sensomotor oyunlar:** müxtəlif materiallardan hazırlanmış şax-şaxların köməyi ilə səs çıxararaq, su və qumu qarışdıraraq və ya papye-maşedən formalar hazırlamaqla həm hisslərin, həm də fiziki hərəkətlərin istifadəsi ilə əşya /obyektlərin xüsusiyyətlərinin öyrənilməsi.

**Konstruktiv oyun:** taxta kubların və ya leqoların istifadəsi ilə oyuncaq maşınlar üçün qarajların tikintisi kimi müxtəlif üsulların istifadə konstruksiyaların yaradılması.

**Süjetli-rollu oyun:** xəyali (məsələn, atanı, mağazada satıcını və ya xəstəxanada həkimi təsvir edərək) rolların qəbul olunması, hisslər, hadisələr, insanlar, heyvanların imitasiya və təsviri, müvafiq dil və jestlərdən istifadə.

**Simvolik oyun:** simvolik və ya xəyali olaraq konkret əşya/obyekt, hərəkət və ya hadisələrin təsvir olunması. (Uşaqlar böyüdükcə, uşaqların simvolizə etmək istədikləri əşyanin forma və funksiyaları üzrə daha az realistik olan inşaat blokları və ya qutular kimi obyektləri istifadə etməyə başlayırlar. Simvolik oyun konstruktiv və dramatik oyun təşkil edir.) və s.

Erkən dövrdə uşağın inkişafı və təlimi ilə bağlı pedaqoji prosesin təşkilinin aparıcı forma və vasitəsi onun müstəqil və ya böyüklərin köməyi ilə yerinə yetirə biləcəyi istənilən fəaliyyət növüdür.

Erkən dövrdə (**1-3 yaş**) təlimin ***oyun-məşğələ*** formasında keçirilməsi məqsədəuyğundur. Oyun - məşğələlər uşağın düzgün və ahəngdar inkişafına kömək edir. Bunlar elə bacarıqların formalaşmasına yönəldilir ki, həmin bacarıqlar uşağın müstəqil oyun prosesində böyüklərin təsiri olmadan baş verə bilməz. Oyun-məşğələlər uşaqların böyükləın nitqini analamasına, ətrafa bələdləşməsinə kömək edir.

Erkən dövrdə işin səmərəli təşkili üçün tərbiyəçi-müəllim aşağıdakıları nəzərə almalıdır:

*-Hər bir fəaliyyətdə uşaqlarla birgə iştirak etmək;*

*-Qrup otağı və materialların estetikliliyini təmin etmək;*

*-Uşaqların inkişaf və təlimində irəliləyişi sənədləşdirmək;*

*-Təlim və təcrübələr arasında əlaqələri görmək üçün uşaqlara kömək etmək;*
*-Təqdim edilən iş vasitəsilə öz biliyini ifadə etməkdə uşaqlara kömək etmək;*
*-Tərbiyəçi-müəllim və valideynlər arasında əməkdaşlıq;*
*-Layihələr haqqında valideynlər və digər tərbiyəçi-müəllimlərlə dialoq aparmaq.*

Təlim-tərbiyə prosesi şərti olaraq aşağıdakı kimi bölünə bilər:

*-Uşaq fəaliyyətinin müxtəlif növlərinin təşkili prosesində həyata keçirilən təlim fəaliyyəti;*
*-Rejimə əsasən həyata keçirilən təlim fəaliyyəti;*
*-Uşaqların müstəqil fəaliyyəti;*
*-Proqramın realizəsi zamanı ailələrlə qarşılıqlı əməkdaşlıq.*

Təlim prosesinin təşkilində uşaqların yaşına uyğun iş formaları müəyyənləşdirilməlidir. İş formasının seçilməsi müəllim tərəfindən uşaqların kontingentindən, mədəni və regional xüsusiyyətlərin nəzərə alınmaqla, məktəbəqədər təhsil müəssisəsinin xüsusiyyəti ilə, həmçinin öz təcrübə və yaradıcılığına əsasən yanaşmadan istifadə edə bilər.

Erkən yaş dövründə təlim fəaliyyəti inteqrasiya və oyun əsasında təşkil edilir. Fəaliyyət uşaq üçün maraqlı və əyləncəli olmalıdır:

**Oyunlar:-** didaktik, hərəkət elementləri olan didaktik, sujetli-rollu, hərəkətli, musiqili, yallı xarakterli, səhnələşdirilmiş oyunlar, imitasiya xarakterli hərəkətli oyunlar;

Müxtəlif janrlı bədii uşaq ədəbiyyatının **oxunması və müzakirəsi**;

Pedaqoji situasiyanın, sosial-mənəvi məzmunlu söhbətlərin, maraqlı fakt və hadisələr haqqında tərbiyəçi-müəllimin xüsusi söhbətlərinin, uşaqlarla **situativ söhbətlərin** təşkili;

Gəzintidə, təbiətdə böyüklərin əməyinin və fəslə uyğun **müşahidə;**

-Əməli fəaliyyət (rəsm, yapma);
- Mahnının oxunması, rəqslər;
-Hərəkətlərin inkişafı üzrə məşğələlər;
-Rejim anlarında təlim fəaliyyəti

**Fiziki inkişaf:** möhkəmləndirici prosedurlar kompleksi (gəzintilər, hər dəfə yeməkdən qabaq əllərin sərin su ilə yuyulması, yeməkdən sonra ağızın yaxalanması, hava və su prosedurları), səhər gimnastikası, hərəkətli oyun və tapşırıqlar.

**Şəxsiyyətyönümlü-sosial** inkişaf: rejim anlarında situativ söhbətlər; kiçik tapşırıqlar vasitəsilə əmək vərdişlərinin inkişafı; rejim anlarında təhlükəsiz davranma vərdişlərinin formalaşdırılması;

**İdrakın inkişafı:** inkişafetdirici mühitin təşkili; oyun, müşahidə, şəkillərə, illüstrasiya və cizgi filmlərinə baxış zamanı uşaqlarla sərbəst dialoqun yaradılması;

**Əmək fəaliyyətlərinin və gigienik prosedurların adlandırılması,** uşaqların nitq fəallığının genişləndirilməsi.

**Bədii estetik inkişaf:** uşaqların gündəlik həyatında, oyunda, əyləncələrdə, gəzintidə, təsviri fəaliyyətdə, səhər gimnastikası zamanı musiqidən istifadə etmək, uşaqların diqqətini ətraf mühitdə olan müxtəlif səslərə, gözəlliyə, avadanlıqlara, oyuncaqlara cəlb etmək.

Erkən dövrdə uşağın inkişafı və təlimi ilə bağlı pedaqoji prosesin təşkilinin aparıcı forma və vasitəsi müstəqil və ya böyüklərin köməyi ilə yerinə yetirə biləcəyi istənilən fəaliyyət növüdür.

## 3.2. İnkişaf və təlim strategiyalarının mahiyyəti

**Təlim strategiyasının uşağın yaş, fərdi, həmçinin digər xüsusiyyətlərinə uyğunluğu.** Bütün uşaqlar müəyyən inkişaf mərhələlərini keçir. Hər bir uşaq yaş dövrünə müvafiq müəyyən

inkişaf xüsusiyyətlərinə malikdir. Lakin, bütün uşaqlar bir-birindən fərqlənir. Məktəbəqədər müəssisələrdə çalışan pedaqoji işçilər uşaqların həm yaş, həm də fərdi inkişaf xüsusiyyətlərini bilməli, anlamalı, həmçinin bunu təlim strategiyasının seçimində və fəaliyyət növlərinin planlaşdırılmasında nəzərə almalıdır.

Tərbiyəçi-müəllimlər uşaqların inkişafı haqqında müşahidə və uşağın ailəsindən alınan məlumatların köməyi ilə fəaliyyəti uşaqların fərdi xüsusiyyətlərinə uyğunlaşdırmalıdırdar. Bunun üçün aşağıdakıların nəzərə alınması zəruridir:

- Təlim strategiyasının uşaqların fərdi təlim üslubuna (üç əsas təlim üslubu mövcuddur: vizual, eşitmə və kinestetik (ağlın və bədənin mükəmməl bir fiziki işlə birləşdirilərək müəyyən bir məqsədə yönəlmiş fəaliyyətlərin toplanması qabiliyyəti)) uyğunlaşdırılması.
- Təlimin differensiallaşdıırılması. (bu zaman pedaqoqlar uşaqlara onların hazırlıq səviyyələrinə uyğun tapşırıqlar verir.)
- Uşaqlara fəaliyyət növlərinin seçimi imkanının verilməsi.
- Müxtəlif iş formaları, kollektiv, kiçik qruplarda, həmçinin fərdi tapşırıq imkanlarının və təlim vəziyyətlərinin təklif olunması ilə uşaqların müxtəlif tələbatlarının nəzərə alınması.
- Uşaqların fərdi tələbatlarına uyğun olan təlim mühitinin və təlim vəziyyətinin yaradılması.
- Uşaqların hamısının təlim məqsədlərinə çatması və uğur əldə etməsi üçün müxtəlif bacarıq səviyyələri üçün müxtəlif təlim materiallarının təmin olunması.

Fəaliyyətlər planlaşdırma tələb edən təlim strategiyasıdır.(uşaqlara hansı suallar verilməlidir, uşağın təfəkkürünü stimullaşdırmaq üçün hansı müzakirələr aparılmalıdır və s.).

Sualların verilməsi, müzakirələrin aparılması, uşaqların fikirlərinin təhlili tərbiyəçi-müəllimin dəstəyini, prosesin istiqamətləndirilməsini və cavabların uşaqların özləri tərəfindən tapılması imkanlarını verməklə, sulların tərbiyəçi-müəllim tərəfindən cavablandırılmamasını tələb edir. Uşaqlar oxşar müzakirələr və təcrübə əsasında ətraf aləmi dərk edirlər. Uşaqların yeni bacarıqlar əldə etməsi, kəşf etməsi və öyrənməsi üçün səmərəli mühit yaratmaq lazımdır. Seçilən mühitlərin uşağın həyat və mühafizəsini zəmanət altına alması, özünü inkişaf etdirə bilməsi və ətrafdakılarla sağlam əlaqələr yaratmasına imkan verən, problemi həll etmə bacarıqlarının formalaşdırılması, başqaları ilə birlikdə çalışmasını təmin edən və potensialını ortaya çıxaran uşağa müsbət emosional mühitlər olmasına diqqət göstərilməlidir. Eyni yaş qrupunda olan uşaqların eyni vaxtda hər bir standarta əməl etməsi və yaxud da eyni dərəcədə mükəmməllik göstərilməsi gözlənilmir. Uşaqlarin necə böyüməsi və inkişaf etmələri onlardan gözlənilən nəticələr ilə birgə uşaqların təlim təcrübələrinin inkişaf etdirilməsi, həyata keçirilməsi və maksimallaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Erkən dövrdə uşağın inkişafı və böyüməsi kontekstində onlardan hansı nəticələrin gözlənildiyini müəyyənləşdirməlidir. Bu sahəyə dair müəyyən biliklə məktəbəqədər təhsil müəssisəsində çalışan müəllimlər qrup və eləcə də fərdi uşaqlar üçün müvafiq planın tutulması və strategiyanın müəyyənləşdirilməsinə dair müəyyən qərarlar verə bilərlər.

### 3.3.Təlim strategiyalarından istifadə

Müasir təhsildən fərqli olaraq, ənənəvi təhsil sistemində təlim strategiyaları məsələlərinə diqqət yetirilmirdi. Təlim strategiyaları "mövqe", "yol" mənasını ifadə edir. Tərbiyəçi-müəllimin təlim zamanı mövzuya uyğun olaraq müxtəlif mövqe və yollardan istifadə etməsi uşaqların yeni öyrədilən bilikləri daha asanlıqla mənimsəmələrini təmin edir və təlimin səmərəliliyini yüksəldir.

Təlim prosesində öyrədənin hər hansı mövqedən çıxış edərək, öyrənənə (uşağa) öz aralarındakı qarşılıqlı ünsiyyət əsasında yeni materialı daha yaxşı mənimsətməsi nəzərdə tutulur. Bəzən təlim zamanı uşaqların maraq və ehtiyaclarının, bacarıqlarının nəzərə alınmaması onların ümumi inkişafına mənfi təsir göstərir ki, bu da uşaqların gələcək həyatlarında müstəqil fikir yürütmək, öz istəklərinə uyğun bacarıqlarını nümayiş etdirmək, müstəqil fəaliyyət göstərmək və həyatda öz yerlərini tutmaqda çətinlik çəkmələrinə səbəb olur. Buna görə də tərbiyəçi-müəllimlər təlimin bütün mərhələlərini uşaqların ümumi inkişafı, maraq və ehtiyacları çərçivəsində qurmaq üçün strategiyaları düzgün müəyənləşdirməlidirlər.

### 3.4. İş formaları və iş üsulları

**1-3** yaşlı uşaqlarla təlim prosesində aşağıdakı iş formalarından istifadə edilir:

***Fərdi***

***Yarımqruplarla***

***Kollektiv***

**3-6 yaşlı** uşaqlarla aşağıdakı iş formalarından istifadə edilir:

***Fərdi iş*** uşaqların potensial imkanlarının müəyyənləşdirilməsi və onların müstəqil fəaliyyət göstərməsi üçün imkan yaradır.

***Cütlərlə iş*** zamanı uşaqların hər hansı problemin həllində biri-birinə köməklik göstərmələrinə, əməkdaşlıq etmələrinə, bir-birlərinin qarşısında öz məsuliyyətlərini dərk etmələrinə imkan yaranır.

***Qruplarla iş*** (3-4 nəfər) zamanı uşaqlar kiçik qruplarda birləşir, işin gedişində əməkdaşlıq və müxtəlif problemləri bir yerdə həll etməyə cəlb olunurlar. Bu zaman uşaqlar müstəqil fikir söyləmək, digərlərini dinləmək imkanı əldə edirlər.

***Kollektiv iş*** zamanı kollektivdə işləmək, birgə fəaliyyət göstərmək və kommunikativ bacarıqların inkişafı təmin edilir.

**1-3 yaşlı** uşaqlarla iş zamanı aşağıdakı ***iş üsullarından*** istifadə edilə bilər:

***Sujetli -rollu oyunlar***. Süjetli-rollu oyunlar hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə baxmaq imkanı verir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti görürlər. Tərbiyəçi-müəllim ilə birgə fəaliyyət göstərir, tanış süjetə yeni epizodlar qoşur. Böyüklərın köməyi ilə öz oyunu üçün oyuncaqlar seçir. Oyuncaq ilə tanış əməliyyatı müxtəlif oyun situasiyasına keçirir. Tərbiyəçi-müəllim suallar qoymaq yolu ilə oyunu inkişaf etdirməyi bacarır.(“Kukla yedi. Sonra o nə edəcək?”, “Salfet haradadır?”, “Kukla yatmaq istəyir?” və s.). Təlim prosesinə belə oyun elementlərinin gətirilməsi onun maraqlılığını, uşaqların yaradıcı fəaliyyət göstərməsi imkanlarını genişləndirir:

-Tikinti materiallarından (böyük və kiçik kərpiclər) süjetli oyunun inkişafı üçün tikinti quraşdırmağa həvəs göstərir.

- Oyun prosesində müəyyən rola uyğun hərəkətlər edir; ananın, həkimin, sürücünün rolunu ifa edir, tanıdığı heyvanların səsini və hərəkətini təqlid edir və s.

**Hərəkətli oyunlar.** Birgə oyuna qoşulur. Sadə məzmunlu və hərəkətli oyunlardan istifadə edir. Bu zaman oyunu əvvəlcə kiçik qruplarla, sonra birgə oynamağı təşkil etmək lazımdır.

**Didaktik oyunlar.** Oyuncaqlar və stolüstü çap oyunları uşaqların inkişafı üçün mühüm vasitədir. Ona görə də əşyanın rəngi, forması, böyüklüyü ilə əlaqədar oyunlar keçirmək lazımdır. Belə oyunlar uşaqların diqqətinin, təfəkkürünün, qavrayışının, təxəyyülünün, kiçik motor

hərəkətlərinin inkişafını təmin edir. Oyuncağı hissələrinə ayırmaq və yığmaq üzrə oyunların təşkili məqsədə uyğundur.

***3-6 yaşl****ı* uşaqlarla iş zamanı aşağıdakı iş üsullarından istifadə edilə bilər:

***Əqli hücum.*** Birgə səy nəticəsində konkret problemin bir neçə həllinin işlənib hazırlanması, müəyyən vaxt ərzində bütün uşaqların problemlə bağlı ideyalarının toplanması, təlim fəaliyyətinin stimullaşdırılmasıdır. Əqli hücüm uşaqlara öz fikirlərini sərbəst ifadə etmək imkanı verir və fikrin müxtəlifliyinin zəruriliyini başa düşmək üçün şərait yaradır. Bu üsuldan məşğələlərdə problemli situasiya, fikir müxtəlifliyi yaratmaq və həlli yollarını tapmaq üçün tətbiq olunur. Uşaqların fəallığının artırılmasına və onlar tərəfindən ideyaların irəli sürülməsinə imkan yaradır. Bu üsuldan, demək olar ki, bütün məşğələlərdə istifadə etmək mümkündür.

***Tap-tapmaca.*** Oyun- tapmaca formasında keçirilən bu üsul uşaqlarda yüksək fəallıq yaradır. Tərbiyəçi--müəllim lövhədə dairəvi kart asır, onun arxasında yeni mövzu üzrə "açar söz" mahiyyəti daşıyan anlayışın şəkli yapışdırılır. Kartın şəkil olmayan tərəfi uşaqlara tərəf asılır. Uşaqlara şəklin arxasında gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalanır. Yaxud lövhəyə kartın yanında həmin anlayışa aid şəkillər yapışdırılır. Uşaqlar həmin şəkillərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar (Məsələn, qış fəslinə aid qar, şaxta baba və s.). Uşaqlar anlayışı tapmaqda çətinlik çəksələr, əlavə olaraq yeni xüsusiyyətlər sadalanır. Uşaqlar öz fərziyyələrini dedikdən sonra Tərbiyəçi-müəllim kartı çevirir. Anlayışın düzgün tapılmasında fəallıq göstərənlər qeyd olunur. Çətinlik çəkənlərə öz fikirlərini əsaslandırmaq üçün imkan yaradılır.

***Nağıletmə.*** Nağıletmə məlumatın tərbiyəçi-müəllimdən uşağa ötürülməsi və dinləmə bacarıqlarının inkişafı üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa nağıletmə 10-15 dəqiqə ərzində aparılır. Nağıletmə ilə bağlı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır.

-Nağıletmənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək.

-Nağıletmə zamanı ardıcıllığı gözləmək.

-Nağıletmədə süjetli şəkillərdən istifadə etmək.

-Digər əyani və texniki vasitələrdən istifadə etmək.

Tərbiyəçi-müəllim-müəllim məlumatın ötürülmə prosesini verbal (suallar vermək) və vizual (uşaqların sifətlərinin ifadəsini və jestlərini müşahidə etməklə) tənzimləyir.

***Müzakirə.*** Müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır.

Uşaqların ünsiyyət, kommunikativ bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Uşaqlar sual və replikalarla müzakirələrə qoşulur, fakt və hadisələrdən istifadə etməklə inandırıcı nitq nümayiş etdirirlər. Qazandıqları bilik və bacarıqları təcrübədə tətbiq etmək imkanı əldə edirlər.

Müzakirə apararkən əvvəlcədən uşaqlara müzakirə qaydaları deyilir. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və uşaqların cavablarını nəzərdən keçirməklə müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir. Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu, başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin obraz nə hiss etdi? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düz idimi? Nə üçün?" kimi suallardan istifadə olunur. Bu təlim üsulundan böyük və məktəbəhazırlıq qruplarında istifadə edilir.

***Şaxələndirmə (klaster).*** tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yapışdırılmış şəkil ilə bağlı söz və ya ifadələr söyləmək uşaqlara tapşırılır. Mərkəzdə

yapışdırılmış şəkildən başlayaraq hər növbəti şəkil onunla əlaqəli şəkillərlə xətlərlə birləşdirilir. Məşğələnin sonunda alınan şaxələndirməyə əsasən ümumiləşdirmə aparılır. Bu üsuldan məktəbəhazırlıq qruplarında istifadə oluna bilər.

***Problemli vəziyyət.*** Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Uşaqlar 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət təsvir olunmuş vərəqlər uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra qrupda ümumi müzakirə aparılır.

***Oyunlar.*** Rollu oyunlar hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti başqasının gözü ilə görürlər. Təlim prosesinə belə oyun elementlərinin gətirilməsi onun maraqlılığını, uşaqların yaradıcı fəaliyyət göstərməsi imkanlarını genişləndirir.

***Suallar.*** Uşaqların idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4-5 arasında olması məqsədəuyğundur. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, məzmun və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

***Söz assossasiyası.*** Bu üsüldan hər-hansi bir mövzunun öyrənilməsinə başlamazdan əvvəl, uşaqların həmin mövzu haqqında nə bildiklərini və mövzu mənimsənildikdən sonra onların yeni nə öyrəndiklərini aydınlaşdırmaq məqsədi ilə istifadə edilir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, tərbiyəçi mövzunun məğzini ifadə edən əsas sözü uşaqlara təklif edir və uşaqlar eşitdiklərini həmin sözlə əlaqədar assosiativ şəkildə xatırladıqları ilk sözləri deyirlər. Bu üsul tərbiyəçi-müəllimə məşğələdə əldə edilən nəticələri müqayisəli qiymətləndirməyə, uşaqlara isə təlim prosesində öz inkişaf dinamikasını dərk etməyə imkan verir.

## 3.5.Təlimin planlaşdırılması və təlimin təşkili metodikası

Uşaq inkişaf və təlim prosesinin fəal iştirakçısıdır. Müasir təlim tələb edir ki, məlumat uşağa valideyn və ya tərbiyəçi-müəllim tərəfindən hazır ötürülməsin, uşaq məlumatı tərbiyəçi-müəllimin yönəldici fəaliyyəti ilə biliyin əldə edilməsi prosesində iştirak edərək, özü qazansın.

Biliyin əldə edilməsinin əsasını təşkil edən bacarıqlar təcrübə prosesində təkmiləşdirilir. Buna görə də uşaqlara ətraf mühitdə biliklərin araşdırma yolu ilə əldə edilməsi imkanını, eyni zamanda, əşyalar və modellərin imitasiyası imkanını vermək çox vacibdir. Beləliklə, məşğələlər zamanı uşaqlara ətraf mühiti təcrübi yolla dərk etmək, müxtəlif fəaliyyətlər həyata keçirmək, məsələlərin həllində iştirak etmək, danışıq və ünsiyyət vərdişlərini inkişaf etdirmək imkanı vermək olduqca zəruridir. Evdə və məktəbəqədər təhsil müəssisələrində uşaq üçün rəngarəng fəaliyyətlər planlaşdırılmalıdır. Əsas uşaqların nəyi bilmələri deyil, nə etməyi bacardıqları və nəyi müstəqil öyrəndikləridir. Daha doğrusu, öyrənmə və düşünmə bacarıqlarının təkmilləşdirilməsidir.

Fəal öyrənmə prosesi uşaqların ətrafdakı insanlar və əşyalarla qarşılıqlı təsiri nəticəsində baş verir. Böyüklərin uşağın inkişafını dəstəkləmələrində rolu özlərinin bu prosesdə birgə iştirakı ilə əlverişli emosional şərait yaratmaqdan ibarətdir. Bu zaman uşaqlara əşyalarla manipulyasiya etmək, seçim etmək, əşya və ideyaları "tədqiq" etmək, eksperiment aparmaq və "kəşflər etmək" imkanı vermək mümkündür. Bu zaman uşaqlar həm öz həmyaşıdları ilə, həm də böyüklərlə təhlükəsiz və xoş mühitdə ünsiyyət qurmaq imkanı qazana bilirlər.

Fəal təlim metodları üzərində qurulan məşğələ ənənəvi məşğələlərdən fərqlənir. Bu məşğələlər uşaqların sərbəst şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır və bu zaman onlar özlərinin bütün bilik, bacarıq və istedadlarını nümayiş etdirə bilmək imkanı əldə edirlər. Fəal təlim məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi üçün ən yaxşı texnologiyadır. Bu o deməkdir ki, uşaqlar təlim prosesində passiv deyil, konkret materiallarla və əhatəsində olan insanlarla fəal, qarşılıqlı ünsiyyətdə olurlar.

Fəal təlim metodlarından istifadə təlim prosesinin təşkilinə, tərbiyəçi-müəllim və uşaq münasibətlərinə yeni məzmun gətirir, bu münasibətlərin dəyişdirilməsini, onlar arasında pedaqoji əməkdaşlığa, qarşılıqlı hörmətə, bir-birinin ləyaqətinə, hüquq və azadlıqlarına hörmət etməyə əsaslanan yeni münasibətlərin yaradılmasını təmin edir.

Məktəbəqədər təhsil müəssisələrində təlimin səmərəli təşkili işin düzgün planlaşdırılmasından başlayır. Düzgün planlaşdırma üçün yerinə yetiriləcək təlim işlərinin əvvəlcədən layihələşdirilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində planlaşdırmanın, əsasən, aşağıdakı iki növündən istifadə edilməsi zəruri hesab edilir:

- *perspektiv* (illik) planlaşdırma;
- *cari* (həftəlik) planlaşdırma.

**Perspektiv (illik) planlaşdırma** standartların reallaşması məqsədilə inkişaf sahələrinə əsasən hər yaş qrupu üçün işin planlaşdırılması üzrə aparılır. Məktəbəqədər təhsil kurikulumunun əsas istiqamətlərinə müvafiq olaraq müəyyənləşdirilmiş inkişaf sahələrinin planlaşdırılmasında inteqrativlik prinsipi ciddi şəkildə gözlənilir. Perspektiv planlaşdırma həm müvafiq yaş qrupunun, həm də ayrı-ayrı uşaqların inkişaf səviyyəsini nəzərə alaraq müəyyən zamanda təlim və tərbiyənin vəzifələrini konkretləşdirməlidir.

Perspektiv planlaşdırma müxtəlif yaş qrupuna və uşaqların ehtiyaclarına uyğun olaraq işin əsas mərhələlərini nəzərdə tutmağa icazə verir. Məktəbəqədər təhsil müəssisələrində işin planlaşdırılması uşaqların təlim-tərbiyə prosesinə təşkilati xarakter verir, tərbiyəçi-müəllimin işini daha mənalı və nəticəli edir.

Məktəbəqədər yaşlı uşaqların bilik və bacarıqlarının genişlənməsinə onun məzmununun, həmçinin təlim-tərbiyənin metodlarının, məktəbəqədər yaşlı uşaqların inkişaf səviyyəsinin nəzərə alınması ilə fəaliyyətin təşkili formalarının tədricən mürəkkəbləşməsi kimi baxmaq lazımdır. Məzmunun tədricən mürəkkəbləşməsi məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsinin tamlığı üçün şəraiti təşkil edir.

Uğurlu və nəticəyönümlü təlim prosesinin təşkili əvvəlcədən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır. Bu növ planlaşdırma özündə tərbiyəçi-müəllimin hər hansı inkişaf sahəsi üzrə nəzərdə tutulmuş yaş qrupu üzrə illik fəaliyyətini əhatə edir. Orada konkret yaş qrupu üzrə məzmun standartları, məşğələnin növü, bölmə, mövzular, inteqrasiya, resurs və tarix kimi məsələlər əhatı olunur. Perspektiv planlaşdırma hazırlamaq üçün tərbiyəçi-müəllimdə bir sıra bacarıqların olması vacibdir. Bölmə və mövzuların ardıcıllığının düzgün müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Tərbiyəçi-müəllim bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsiri nəzərə almalıdır. Təbii ki, birinci prinsip məzmun ardıcıllığı baxımından sadədən mürəkkəbə və asandan çətinə istiqamətində fəaliyyətin nəzərə alınmasıdır. Tərbiyəçi-müəllim qrup üzrə fəaliyyətini planlaşdırarkən, bu nəticələrə yanaşmada müstəqildir. Zəruri olan hallarda onları müxtəlif səviyyələrdə inteqrasiya etməkdə sərbəstdir.

Bölmə və mövzuların ardıcıllığı planlaşdırılarkən aşağıdakılar nəzərə alınmalıdır:

- inkişaf sahəsi daxilində inteqrasiya;

• inkişaf sahəsiləri arası inteqrasiya;
• ardıcıllığın qurulması prinsipi.
1) məntiqi ardıcıllıq;
2) psixoloji ardıcıllıq (sadədən mürəkkəbə doğru, yaxından uzağa prinsipi);
3) xronoloji ardıcıllıq.

Planlaşdırma aparmaq üçün lazım olan bacarıqlardan mühümü inteqrasiya imkanlarının müəyyən edilməsidir. Hər bir inkişaf sahəsinin digər inkişaf sahələri ilə inteqrasiyası mümkündür. Planlaşdırma aparılarkən mövzunun digər inkişaf sahəsi üzrə bu və ya digər mövzu ilə inteqrasiya imkanları müəyyən olunmalıdır. Məsələn, savad təlimi və nitq inkişafı məşğələsində "A" hərfinin öyrədilməsi zamanı, ətraf aləmlə tanışlıq, təsviri fəaliyyət, musiqi məşğələləri ilə inteqrasiya edilərək öyrədilməsi daha müsbət nəticələr verir.

Perspektiv planlaşdırmada zəruri cəhətlərdən biri də resursların seçilməsidir. Uşaqlara tanış olmayan hadisələri, əşyaları yalnız sözlərlə aydınlaşdırmaq çətindir. Müxtəlif əyani vəsaitlər məktəbəqədər dövrdə xüsusilə mühümdür. Bu elə bir yaş dövrüdür ki, burada əyani vəsaitlərin rəngarəng və baxımlı olması mühümdür.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü tarixi müəyyənləşdirməkdir.

Perspektiv planlaşdırma aparmaq məqsədilə tərbiyəçi-müəllim aşağıdakı bacarıqlara malik olmalıdır:

1. İnkişaf sahələrinə və məzmun standartlarına əsasən dəqiqləşmələr aparmaq, hansı məşğələdə reallaşdırılacağını müəyyənləşdirmək.
2. Mövzuların ardıcıllığını müəyyənləşdirmək.
3. İnteqrasiya imkanlarını müəyyən etmək.
4. Əlavə resurslar seçmək.
5. Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.

Planlaşdırma aparılarkən tərbiyəçi-müəllim aşağıdakı tövsiyələri nəzərə almalıdır:
• Standartlar qrupuna əlavə standartlar daxil edə bilər.
• Mövzuları dəyişə və ya artıra bilər.
• İnteqrasiya üçün əlavə imkanlar müəyyən edə bilər.
• Əlavə resurslar seçə bilər.

**Perspektiv (illik) planlaşdırma aşağıdakı nümunəvi sxem üzrə aparılır.**

| **Standartlar** | **Məşğələ** | **Mövzular** | **İnteqrasiya** | **Resurslar** | **Tarix** |
|---|---|---|---|---|---|
| | | | | | |

Aşağıda ikinci inkişaf sahəsi olan idrakın inkişafı üzrə 3-4 yaş qrupunda (orta qrup) təxmini perspektiv planlaşdırma nümunəsinə nəzər salaq.

Cədvələ nəzər salarkən görürük ki, yuxarıda sadalananlar bu cədvəldə nəzərə alınmışdır.

| **Standart** | **Məşğələ** | **Mövzu** | **İnteqrasiya** | **Resurslar** | **Tarix** |
|---|---|---|---|---|---|
| 2.2.1.<br>2.2.4. | **Bədii təfəkkürün inkişafı** | "Ana dilim"<br>(Şahin Xəlilov) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2.<br>İd. 2.1.1. | Müntəxəbat, şəkil, DVD, "Bakı" albomu | Sentyabr III həftə |
| 2.2.1.<br>2.2.4.<br>2.2.7 | | "Sınmış fincan"<br>(K.D.Uşinski) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil | Sentyabr IV həftə |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.2.1.<br>2.2.2. | | “Pələng və Tülkü”<br>(Tacik xalq nağılı) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil və maskalar | Oktyabr I həftə |
| 2.2.4.<br>2.2.7. | | “Payızda”<br>(Nəriman Hüseyn) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil, DVD | Oktyabr II həftə |
| 2.2.1.<br>2.2.2.<br>2.2.5. | | Külək və günəş.<br>(Rus xalq nağılı) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil | Oktyabr III həftə |
| 2.2.2.<br>2.2.5. | | Kirpi və alma<br>(Az. xalq nağılı) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil | Oktyabr IV həftə |
| 2.2.4.<br><br>2.2.7. | | “Ana vətən”<br>(Nəriman Hüseyn) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2.<br>İd. 2.1.1. | Müntəxəbat, şəkil | Noyabr<br>I həftə |
| 2.2.4.<br>2.2.7. | | Alma ağacı<br>(L.N. Tolstoy) | Es.3.1.8,3.1.9<br>S.e.4.1.2.,4.2.2. | Müntəxəbat, şəkil | Noyabr II ə |

**Cari (həftəlik) planlaşdırma** alt-standartların həyata keçirilməsi məqsədilə ayrı-ayrı məşğələlər və məşğələdənkənar fəaliyyət sahələri (oyun, gəzinti, əyləncə, sağlamlaşdırıcı tədbirlər və s.) üzrə aparılır.

Cari planlaşdırma aparılarkən məşğələnin mərhələlərinə diqqət yetirilməlidir. Məşğələ aşağıda göstərilən istiqamətlər üzrə planlaşdırılmalıdır:

- Standart
- Mövzu
- Məqsəd
- İnteqrasiya
- İş forması
- İş üsulu
- Resurslar

**Məşğələnin mərhələləri:**

Məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodlarları ilə aparılan məşğələlərin əsasən üç mərhələli strukturla həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

1. **Aktuallaşdırma və ya motivasiya** (mövcud biliklərin səsləndirilməsi və marağın yaradılması);

2. **Dərketmə** (yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi);

3. **Tətbiqetmə** (qazanılmış bilik və bacarıqların yaradıcı tətbiqedilməsi).

***Aktuallaşdırma və ya motivasiya.*** Məşğələ aktuallaşdırma, yəni mövcud biliklərin aşkara çıxarılıb səsləndirilməsi ilə başlayır. Əgər motivasiya yaratmaq çətin və ya mümkün deyilsə, o zaman aktuallaşdırma ən yaxşı çıxış yoludur. Əlbəttə motivasiya ilə başlanan məşğələ daha cəlbedici olur, lakin hər mövzu üçün maraqlı və cəlbedici motivasiya qurmaq mümkün olmayanda, aktuallaşdırmadan istifadə edilir. Motivasiya “motiv” sözündən götürülmüşdür. Latın dilində tərcüməsi “hərəkətə gətirmək”, “itələmək” deməkdir. Məşğələ motivasiya ilə başlanır. (Yəni tərbiyəçi-müəllim tərəfindən problemin qoyulması, uşaq tərəfindən fərziyyələrin irəli sürülməsi). Deməli, tərbiyəçi-müəllim motivasiya yaradarkən uşaqları hərəkətə gətirir, düşünməyə “itələyir”. Düzgün qoyulmuş motivasiya uşaqda fəallıq yaradan səbəbdir.

Motivasiyanı necə qurmaq lazımdır?

- Diqqəti cəlb etmək və uşağı maraqlandırmaq.
- Müxtəlif fərziyyələrə səbəb olan vəziyyət yaratmaq.
- Müstəqil tədqiqata həvəsləndirmək.
- Məktəbəqədər yaşlı uşağın imkanlarına müvafiqliyi nəzərə almaq.
- Uşağı öz bacarığını həyata keçirməyə sövq etmək.

***Dərketmə*** yeni bilik və bacarıqların tədqiq edilərək fəal şəkildə öyrənilməsi, tapşırıqları həll etmə prosesində məlumatların, faktların axtarılması və toplanmasıdır. Verilmiş işi yerinə yetirmək üçün uşaqlar iş formasından asılı olaraq qruplarla və ya cütlərlə, öz aralarında fikir mübadiləsi edir, tədqiqat aparır, birgə işləyirlər. Bu zaman cütlər və ya qruplarla işləyən uşaqlar öz aralarında seçdikləri lider vasitəsilə verilmiş tapşırıqla bağlı ümumi fikri bütün qrupa və tərbiyəçi-müəllimə çatdırırlar.

***Tətbiqetmə*** qazanılmış bilik və bacarıqların yaradıcı tətbiq edilməsidir. Uşaqların əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir, praktik əhəmiyyətini artırır. Bu məqsədlə uşaqlara praktik tapşırıq verilir. Məktəbəqədər yaş dövründə əsas fəaliyyət növü oyun olduğu üçün tətbiqetmə zamanı mövzuya uyğun oyundan istifadə edilməsi məqsədəmüvafiqdir.

Gündəlik planlaşdırma apararkən tərbiyəçi-müəllimin ilk işi mövzunun standarta uyğunluğunu müəyyənləşdirməkdir. Standart müəyyənləşəndən sonra, ona müvafiq mövzu seçilir. Artıq standarta və öyrənilən mövzuya uyğun müəyyənləşdirilən təlim nəticələri tərbiyəçi-müəllimə deyil, uşağa yönəlməlidir. Əgər tərbiyəçi-müəllim məşğələnin məqsədini uşağın maraqları üzərində qurarsa uğurlu və nəticəyönümlü təlim təşkil edə bilər. Uşağı təlimə cəlb etməyin bir yolu mövzuya və məqsədə uyğun fəal təlim forma və üsullarından yerində istifadə edilməsidir.

Tərbiyəçi-müəllim motivasiyanı elə qurmalıdır ki, uşağı təlimə cəlb edə bilsin. Bu mərhələdə tərbiyəçi-müəllim müxtəlif baxışların və variantların toqquşmasından yaranan vəziyyət əsasında sual qoyaraq uşaqları düşünməyə hazırlayır. Motivasiya ilk növbədə tədqiqat üçün həm mümkün, həm də uşağın öz bacarığını və qabiliyyətini həyata keçirilməsinə imkan verən, onun inkişaf xüsusiyyətlərinə müvafiq olmalıdır.

İkinci mərhələdə motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirildikdən sonra artıq yeni biliyin əldə edilməsi işinə başlamaq olar. Tədqiqat müxtəlif formalarda – bütün qrupla birlikdə, qruplarda, cütlər şəklində və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həlli üçün müxtəlif variantlardan istifadə olunur.

Növbəti mərhələdə uşaqların qazandıqları bilik və bacarıqların tətbiq edilməsi prosesi başlayır. Belə ki, bu mərhələdə təfəkkürün müxtəlif növlərinin səfərbərliyə alınması baş verir. Sonrakı mərhələdə tərbiyəçi-müəllim qazanılmış biliklərin ümumiləşdirilməsi məqsədilə suallar qoyur və bu suallar əsasında biliklər sistemləşdirilir. Uşaq əldə etdiyi bilikləri, gəldiyi nəticəni, irəli sürülmüş fərziyyələrlə tutuşdurur.

Təqdim edilən mərhələlər məşğələ zamanı hiss olunmadan biri-birini əvəz etməlidir. Məşğələlər zamanı uşaqların yorulmasına yol vermək olmaz. Odur ki, məktəbəqədər təhsil müəssisələrində məşğələlərə oyunlar və ya oyun elementləri daxil edilməli, onlardan təsirli bir öyrənmə vasitəsi kimi istifadə olunmalıdır. Eyni zamanda, idman dəqiqələrindən istifadə edilməsi məqsədəuyğundur.

**Təlim prosesinin idarə olunması**. MTM-də (məktəbəqədər təhsil müəssisələrində) təlim prosesinin idarə olunması əvvəlcədən planlaşdırılmış nəticələrə (məqsədə) nail olunmaq üçün

idarə edənin və idarə olunanların məqsədyönlü qarşılıqlı təsiri, bütövlükdə idarə olunan obyektin optimal inkişafının təmin edilməsinə, formalaşmasına və sabitləşməsinə istiqamətlənən məqsədyönlü fəaliyyətdir. Bu məqsədə nail olmaq üçün idarəetmə fəaliyyəti təlim prosesinin mövcud vəziyyəti ilə tələb olunan vəziyyəti arasında uyğunsuzluğun aradan qaldırılmasına istiqamətlənməlidir. MTM-də təlim prosesinin idarə olunmasının mahiyyəti müəssisə rəhbərinin və tərbiyəçi-müəllimin bu prosesin nizamlı tamlığını və bütün idarəetmə sistemini keyfiyyətcə yeni mərhələyə qaldırılmasını təmin edən məqsədyönlü fəaliyyətindən ibarətdir.

Təlim prosesinin idarə olunması dinamik mexanizm olaraq bütün subyektlərin qarşılıqlı təsir, prinsip, funksiya və metodların reallaşması əsasında və demokratik stilli idarəetmə ilə səmərəli təşkil olunur. Müasir dövrdə MTM –də tərbiyəçi-müəllimin təlim prosesini idarə etməsi sistem yaradan idarəetmə modeli prinsipləri: humanistləşdirmə, inteqrasiya, psixoloji iqlimin nəzərə alınması, differensiasiya, fərdiləşmə və komplekslilik əsasında həyata keçir. Təlim prosesinin idarə olunması özündə fəaliyyətyönlü prosesi ehtiva edir və eyni zamanda həm tərbiyəçi-müəllimin, həm uşağın, həm də təlim prosesinin idarə edilməsinin təkmilləşdirməsinə istiqamətləndirir.

## YAŞ QRUPLARI ÜZRƏ MƏŞĞƏLƏ NÜMUNƏLƏRİ

Körpələr qrupunda təşkil edilən məşğələlərin spesifik xüsusiyyətləri vardır. Onlar bir qayda olaraq oyun formasında aparılır və bu zaman uşağın məktəbəqədər təhsil müəssisəsinə uyğunlaşma dərəcəsi nəzərə alınmalıdır. Məşğələlər mürəkkəb olmamalıdır. Hazırlanmış material uşaqların yaş və fərdi xüsusiyyətləri, onların hazırlıq səviyyəsini nəzərə alaraq 2-3 hissəyə bölünərək, ayrı-ayrı günlərdə keçirilə bilər.

**1-2 yaş.**

.**Ətraf mühitlə tanışlıq və nitq inkişafı** məşğələsi

**St. 2.2.5.** Danışığında 1-2 sözdən ibarət sadə cümlələr qurur.

St. 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır;

St. 2.2.3. Böyüklərin təklifi ilə “salam”, “sağ ol” sözlərindən istifadə edir;

***Mövzu:*** ***Şaxta babanın hədiyyəsi***

***Məqsəd.*** –Sadə cümlələr qurur.

-“Salam”, “sağ ol” sözlərindən istifadə edir.

-Tanış obyektləri adlandırır.

***İnteqrasiya.*** St. 2.3.2. Ölçü anlayışını başa düşdüyünü (böyükdür, kiçikdir) nümayiş etdirir; 2.3.3. İki oxşar əşyanı seçir;

***İş forması.*** Kollektiv, fərdi.

***İş üsulu.*** Əqli hücum, suallar.

***Resurslar.*** Böyük və yumşaq dovşan oyuncağı, zənbil, oyuncaqlar.

**Məşğələnin gedişi**

Uşaqlar stullarda dairəvi otururlar. Bu zaman əlində boyük zənbil tutmuş dovşan qrup otağına daxil olur.

**Dovşan**:- Salam uşaqlar! (Uşaqlar da salamlaşırlar) Mən sizin yanınıza gəlməyə tələsirdim. Çünki, sizə hədiyyələr gətirmişəm. Bilirsiniz, onları sizə kim göndərib? Onları Şaxta baba göndərib.

**T:**-Dovşan, çox sağ ol! Şaxta baba da çox sağ olsun. Uşaqlar, baxaq görək, bizim qrup otağında şaxta babanın şəkli var? (uşaqlar qrup otağında hərəkət edərək, şaxta baba şəklini tapırlar və göstərirlər.)

**T:**-Düzdür uşaqlar. Baxın, bizim lövhədəki tabloda da şaxta babnın şəkli var.(Uşaqlar lövhəyə yaxın gəlib, tərbiyəçinin təklifi ilə təsviri adlandırırlar.) Görək şaxta baba bizə nə göndərib? (uşaqlar zənbil qoyulmuş stola yaxınlaşırlar). Şaxta baba sizin üçün nə gözəl oyuncaqlar göndərib!

**Dovşan:-**Uşaqlar, mən əvvəlcə sizinlə **"Böyük və kiçik"** oyununu oynayacağam, sonra bu oyuncaqları sizə bağışlayacağam. Baxın, bu ayı böyükdür (zənbildən götürür). Əhməd, sən mənə balaca ayını tap. Bu isə balaca topdur. Əli, sən belə oyuncağı tap və s. Afərin uşaqlar!

**T:**-Uşaqlar, siz oyuncaqları düzgün tapdınız. İndi isə baxaq, görək zənbildə daha nə var? (şirə içmək üçün borucuq) Uşaqlar, gəlin küləyin kağızı necə əsdirdiyini dovşana göstərək.

**Tənəffüs gimnastikası "vərəqi üfür"**.(Tərbiyəçi qabaqcadan kiçik hissələrə ayrılmış kağız parçaları üzrə təcrübəni təşkil edir).

**Dovşan:-** Afərin uşaqlar, mən bilmirdim ki, külək kağızı uçurub aparır. Sizinlə oynamaq mənim çox xoşuma gəldi. Ona görə də mən hədiyyələri sizə verəcəyəm. (oyuncaqları paylayır) sağ olun! (uşaqlar da onunla sağollaşırlar) Mən yenə də gələcəyəm!

**<u>Hərəkətlərin inkişafı</u>** məşğələsi

**St.1.1.1.**Sadə fiziki hərəkətləri (sərbəst yeriyir, 3-4 metr məsafəyə qaçır və maneələrdən yan keçir) yerinə yetirir;

***<u>Mövzu:</u>*** "Qatarla səyahət"

***<u>Məqsəd:</u>***

-Biri-birinin ardınca sərbəst yeriyir.

-3-4 metr məsafəyə qaçır.

***<u>İnteqrasiya:</u>*** 2.1.6. Ətraf mühitdə baş verən hadisələri 1-2 sözlə ifadə edir;

2.1.4. Böyüklərin göstərişi ilə tanış obyektləri göstərir;

***<u>İş forması.</u>*** Kollektiv, fərdi.

***<u>İş üsulu.</u>*** Əqli hücum, suallar.

***<u>Resurslar.</u>*** Oyuncaq dovşan, içərisində su olan tas, kiçik daşlar, kağızdan düzəldilmiş gəmi .

**Məşğələnin gedişi**

**T:-** Uşaqlar bu gün biz sizinlə gəzməyə gedəcəyik**.** Bəs biz gəzməyə nə ilə gedək? (uşaqların cavabı)

**T:**-Yaxşısı budur qatarla gedək.

*Tərbiyəçi oxuyur.*

*Qatar gəlir uzaqdan,*
*Taq-taq, taq-taq, taq-taq-taq.*
*Gözləyirəm bayaqdan,*
*Taq-taq, taq-taq, taq-taq-taq.*

Tərbiyəçi paravoz, uşaqlar isə vaqon olurlar.Uşaqlar biri-birinin arxasından yapışıraq vaqon, tərbiyəçi isə paravoz olub***, tak-tak*** deyə-deyə gedirlər.

***-Getdik, getdik, getdik.***

***-Biz hara gəldik?***

Uşaqların cavabları.

T:- Biz meşəyə gəldik. Burada kim yaşayır? (Uşaqların cavabları) (Kənarda qabaqcadan qoyulmuş dovşan oyuncağı görünür)

-Düzdür. Burada dovşan yaşayır.

-Gəlin, əyilib dovşanı tumarlayaq. Uşaqlar, dovşan necə tullanır? Necə qaçır? Göstərin! (göstərirlər) Nə yeməyi xoşlayır? (uşaqların cavabları)

T:-Uşaqlar, gəlin yolumuza davam edək. Qatar yoluna davam edir.

***-Getdik, getdik, getdik.***

***-Biz hara gəldik?***

Uşaqların cavabları. Əvvəlcədən hazırlanmış içərisində su olan tasın yanında dayanırlar. (su ilə oyun)

T:-Uşaqlar, gəlin əlimizi suya vuraq. (Yerinə yetirilir)

-Su necədir?

Uşaqların cavabları.

T:-Baxın, mən gəmini suya buraxıram. Gəmi nə edir? Uşaqların cavabları.(üzür)

Axırda tərbiyəçi uşaqlara kağız gəmi paylayır ki, evdə valideynləri ilə birlikdə suya buraxsınlar.

**Sensor tərbiyə** məşğələsi

**St: 2.3.1**. ”Bir” və “çox”anlayışlarını əşyalar üzərində fərqləndirir;

**Mövzu:** “ Bir və çox anlayışları ”

**Məqsəd:**

-Bir və çox anlayışlarını əşyalara əsasən düzgün ifadə edir.

-Əşyaları müəyyən əlamətinə görə fərqləndirir.

**İnteqrasiya:** İd. 2.2.2. Şəkillər üzrə tanış obyektləri adlandırır; 2.2.6. Nitqində böyük, çox sözlərindən istifadə edir;

**İş forması:** Kollektiv və fərdi iş.

**İş üsulu:** Suallar, əqli hücum, müzakirə, söz assosiasiyası.

**Resurs:** Ana və bala ördək oyuncaqları, içərisində su olan tas, böyük, kiçik ölçülü toplar, topları yığmaq üçün səbət, torbalar, müxtəlif şəkillər.

**Məşğələnin gedişi**

**Qeyd:** Qabaqcadan 3 torba hazırlanır, birinə ana ördək,digərinə bala ördəklər yerləşdirilir və qrupda müxtəlif yerlərə qoyulur. Boş torba isə tərbiyəçi-müəllimdə olur.

**T:**-Uşaqlar, baxın mənim əlimdə torba var. Torba neçə dənədir? *(Uşaqların cavabları)* Baxaq görək otaqda bu torbadan yenə var? (Uşaqlarla birlikdə qrup otağında ora-bura gedərək, torbaları axtarıb, tapıb masaya qoyur) Baxın uşaqlar, indi artıq çoxlu torbamız var. Bir torbanı mən gətirdim, qalanlarını isə birlikdə tapdıq. İndi bizim çoxlu torbamız var. Gəlin yoxlayaq görək, bu torbalarda nə var? (uşaqlar əlləri ilə torbanı yoxlayaraq, içindəkilərə dair düşündüklərini söyləyirlər).

**T:-**Bizim boş torbamız hansıdır? *(Uşaqların cavabları).* Düzdür, baxın, içində heç nə yoxdur. Bəs bu torbada nə var? *(Uşaqların cavabları)*

Tərbiyəçi torbadan ana ördəyi çıxarıb masanın üzərinə qoyur.- Uşaqlar bu nədir? *(Uşaqların cavabları)* İndi isə bu biri torbaya toxunaq və görək burada nə var? *(Uşaqların cavabları)*

Tərbiyəçi torbada olanları çıxarır və ana ördəyin yanına düzür .- uşaqlar, baxaq görək ana ördək böyükdür, yoxsa bala ördəklər? *(Uşaqların cavabları)*

- Hansı ördəklər çoxdur? *(Uşaqların cavabları)* Gəlin, bala ördəkləri "gölə" buraxaq. (uşaqlarla birlikdə bala ördəkləri qabaqcadan hazırlanmış içərisində su olan tasda suya buraxır.)

- Uşaqlar, neçə ördəyimiz qaldı? *(Uşaqların cavabları)* Gəlin, ana ördəyi də bala ördəklərin yanına qoyaq. Ana ördək bala ördəklərə üzməyi öyrətsin.

**Oyun.**

Torbadakı bir böyük və çoxlu kiçik topları yerə boşaldırıq. Çoxlu toplar yerləşəcək boş səbət qoyuruq. Uşaqlara müaciət edirik:

- *Səbətın içində nə var? (Uşaqların cavabları)*

Kiçik topları boş səbətə yığmağı uşaqlara təklif edirik. Yığdıqdan sonra:-

- *Boş səbətə nə yığdıq?*
- *Yerdə nə qaldı?*
- *Kiçik topumuz çoxdur, yoxsa böyük topumuz?*

Tərbiyəçi məşğələni ümumiləşdirib, yekunlaşdırır.

**<u>2-3 yaş .</u>**

**<u>Ətraf mühitlə tanışlıq və nitq inkişafı</u>** məşğələsi

**St.** 3.1.2. Əsas rəngləri (qırmızı, sarı, yaşıl) adlandırır;

***<u>Mövzu:</u>*** Didaktik oyun. "Xoruzun quyruğu üçün tük bağışlayaq".

***<u>Məqsəd.</u>*** –Əsas rəngləri adlandırır.

-Fikrini ifadə edir.

***<u>İnteqrasiya.</u>*** 2.1.4. Canlı (insan, heyvan, quş, bitki) və cansız (qum, daş, torpaq, işıq) obyektləri adlandırır.

***<u>İş forması.</u>*** Kollektiv, fərdi.

***<u>İş üsulu.</u>*** Əqli hücum, suallar.

***<u>Resurslar.</u>*** Xoruzun rəngli təsviri (quyruqsuz), xoruzun quyruğu üçün rəngli kağızlardan kəsilmiş "tüklər".

***<u>Məşğələnin gedişi</u>***

**<u>Motivasiya.</u>** Tərbiyəçi-müəllim xalçanın üzərində oynayan uşaqlara müraciət edir:

- Uşaqlar, bura gəlin, görün bizə kim qonaq gəlib? (Uşaqların cavabı: Xoruz)

T:- Uşaqlar, o bizi çağırdı, amma mən onun səsini eşitmədim. Bəs, xoruz necə banlayır? (quq-qulu-qu)

**<u>Dərketmə.</u>** *Tərbiyəçi-müəllim quyruqsuz xoruz şəklini flaneloqrafa yapışdırır. Quyruğunun başlandığı yerdə dəlik açılıb. Stolun üzərinə 3 rəngdə "tüklər" düzülüb.* Tərbiyəçi uşaqların diqqətini xoruza cəlb edib deyir:

-Uşaqlar, xoruz istəyir ki, onun qəşəng quyruğu olsun. Amma böyük uşaqlar xoruz şəklini çəkəndə onun quyruğunu çəkməyiblər. İndi xahiş edir ki, uşaqlar ona qırmızı, yaşıl və sarı rəngdə tüklər bağışlasınlar.(göstərir)

**T:-** Yaxşı, xoruz. Biz sənə rəngli tüklər bağışlayacağıq. Xoruz, sən belə tük istəyirsən?

Qırmızı rəngdə olan tükü uşaqlara göstərib soruşur:

-Uşaqlar, mən bu tükü xoruza bağışlamaq istəyirəm. Bu tük nə rəngdədir? (qırmızı).

**T:-**Xoruz, uşaqlar dedi ki, bu qırmızı tükdür. Al, bu da sənə qırmızı tük. (Xoruz tərbiyəçiyə təşəkkür edir).

Sonra uşaqlar bir-bir müstəqil olaraq tükləri seçir, qalanlarına göstərir və rəngini söyləyirlər. (Mən xoruza sarı tükü bağışlayıram)

Əgər uşaq səhv edərsə, xoruz deyir: "quq-qulu-qu, mən başqa tükü istəyirəm. Yaşıl rəngli tükü istəyirəm".

**Tətbiqetmə**.Sonda uşaqlar qəşəng xoruz quyruğuna tamaşa edirlər.

T:-Biz xoruza qəşəng tüklər bağışladıq. Gəlin bir daha həmin tükləri göstərək və rəngini söyləyək. (yerinə yetirilir) Görün, o sizdən necə də razı qaldı.O, indi gedəcək. Gəlin ona şeir oxuyaq.

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz.
Sən nə tezdən durursan
Qışqırıb, banlayırsan!?
Quq-qulu-quuuuuu

Tərbiyəçi-müəllim uşaqları rəğbətləndirərək, məşğələni yekunlaşdırır.

**Sensor tərbiyə** məşğələsi

**Standart:** 2.3.3. Dairəvi əşyaları adlandırır;
**Mövzu:** " Çiçək "
**Məqsəd:**

-Dairəvi əşyaları adlandırır.
-Hazır əşyaları yapışdırır.

**İnteqrasiya:** 2.1.3.Müşahidə etdiyi (və ya adları çəkilən) əşyaları adlandırır və göstərir; 3.1.3. Hazır formaları kağız üzərində yerləşdirir;
**İş forması:** Kollektiv və fərdi iş.
**İş üsulu:** Suallar, əqli hücum, söz assosiasiyası, rollu süjetli oyun.
**Resurs:** 3 qutu, rəngli kağızdan kəsilmiş sarı, ağ dairələr, top, nimçə, təkər, alma, kələm, günəş şəkli.

**Məşğələnin gedişi**

**Qeyd:** Qabaqcadan 2 qutu hazırlanır və qrup otağında müxtəlif yerlərə qoyulur. I qutunun içərisində uşaqların sayı qədər kağızdan kəsilmiş böyük sarı dairələr, II qutunun içərisində isə kağızdan kəsilmiş çoxlu ağ kiçik dairələr. (Sarı dairə ortaya, ağ dairələr isə (ləçəkləri) sarı dairənin kənarlarına yapışdırılaraq çiçək təsvirini alınacaq)

**T:-**Uşaqlar, baxın bizim qonağımız var. (tərbiyəçi öncədən hazırladığı dairə personajını əlində tutur və onun səsi ilə uşaqlarla ünsiyyətə girir)

Dairənin səsi ilə - Salam, uşaqlar! Məni tanıyırsınız?

*(Uşaqların cavabları)*

- Mən sizinlə tanış olmağa gəldim. Amma adımı unutmuşam, deyə bilməyəcəm. Kömək edin mənə adımı tapım. Mən nəyə oxşayıram?

Günəşə, bənzədirlər
Gah topa, gah təkərə.
Meyvələrdən almaya,
Portağala, alçaya.
Tərəvəzlərdən deyim

Kələmə, çuğundura
Turpa da oxşadırlar.
Siz bilərsiz uşaqlar,
Niyə oxşadırlar məni
Bütün bunlara onlar?

***T:*** -Uşaqlar, mən sizə şeir söylədim.Gəlin görək qrupumuzda şeirdə deyilən kimi qonağımıza oxşayanlardan hansıları var? Gəlin əvvəlcə dolaba baxaq... Nələrə bənzətmişdilər qonağımızı? Yadıma salın, uşaqlar. Nimçə demişdilər?

*(Uşaqların cavabları)*

- Daha nə demişdilər? (Tərbiyəçi uşaqları istiqamətləndirərək adları tələffüs etməyə, xatırlamağa sövq edir*)*

(Bu məşğələdə tapşırıq hərəkətli olduğu üçün idman dəqiqəsi verilməyə də bilər. Uşaqlar əşyaları axtararkən, qrup otağında ora-bura gəzirlər və tapdıqlarını masaya qoyurlar)

***T:*** - Hansınız tapsanız gətirib masanın üzərinə qoyun. *(tərbiyəçinin köməyi ilə nimçə, top, adları çəkilən meyvələrdən, tərəvəzlərdən və s. masanın üzərinə qoyurlar)* Gəlin baxaq, qonağımıza bunların nəyi oxşayır?*( uşaqları dinləyirik)* Baxın, bunlar hamısı bir birinə oxşayır. Əlimizlə toxunaq, hamısı dairəvidir. *(dairəviliyi hiss etmək üçün uşaqlar toxunurlar.)* Baxın qonağımız da dairəvidir, nimçə, top, alma və s kimi dairəvidir. Baxın top, təkər, alma biz bunları diyirlədə bilirik. Onlar yumru olduqlarindan diyirlənir.

***Qonaq:*** - Onlar bir – birlərinə oxşayırlar?
Məni onlara niyə oxşadırlar? *(Uşaqların cavabları)*

- Uşaqlar, afərin sizə. Siz çox fəalsınız. İndi isə mənim adımı tapın. Mənə demişdilər ki, onların nəyə oxşadığını tapsan, adını da tapacaqsan.

***T:*** - Uşaqlar, gəlin biz adlar deyək, bəlkə yadına düşər. Lakin adlar bu əşyalarla qonağımızın oxşarlığına aid olmalıdır.Siz dediniz niyə oxşayırlar onlar, bir daha söyləyək. *(Tərbiyəçi dairə, yumru sözünə istiqamətləndirir) (Uşaqların cavabları)*

***T:*** -Bəli, təmamilə döğrudur**.** Dairə!

***Qonaq:*** - Yadıma düşdü! Bəli, tapdınız! Mənim adım dairədir. Təşəkkür edirəm. Adımı tapdığınız üçün bu qutularda mənim sizə hədiyyələrim var. Gəlin,qutuları açaq və hədiyyələrə baxaq. *(qutuların birində uşaqların sayı qədər sarı rəngdə dairə, o biri qutuda isə çoxlu sayda ağ rəngli dairələr.)*

- *(Uşaqlarla bərabər I qutunun içərisinə baxırlar)* Qutunun içində nə var?

- Bəli, sarı dairə. O biri qutuya baxaq.*(Tərbiyəçi qutunu götürüb, uşaqlara verir. Uşaqlar qutunu açır)* Qutuda nə var?

*(Uşaqların cavabları)*--

***T:*** -Uşaqlar, bunlar nədir?

***Qonaq:*** - Bəli burada ağ rəngli dairələr var. Sari rəngli dairəni ortaya, ağ rəngli dairələri isə çiçəyin ləçəkləri kimi kənarları ilə yapışdırarsınız. Çiçək alınacaq. İndi isə mən gedim. Mənim adımı yadıma saldınız. Afərin sizə uşaqlar.

***T:*** -Uşaqlar, gəlin sağollaşaq. Çiçəklərimizi sonra yapışdırarıq.

**3-4 yaş.**

**Məntiqi və riyazi təfəkkürün inkişafı** məşğələsi

St. 2.3.1.Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;
St. 2.3.3. Həndəsi fiqurları (dairə, kvadrat, üçbucaq) adlandırır.

**Mövzu: Fermaya səyahət**

***Məqsəd.*** –3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.
- Dairə, kvadrat, üçbucağı adlandırır və çəkir.

***İnteqrasiya.***

3.1.2. Təsvirlərində uyğun rənglərdən istifadə edir;

2.1.4.Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) qruplaşdırır və düzgün davranış (qorumaq, mühafizə etmək, qiymətləndirmək) bacarığı nümayiş etdirir.

***İş forması.*** Kollektiv, fərdi.

***İş üsulu.*** Əqli hücum, suallar, müzakirə.

***Resurslar.*** "Ev heyvanları" oyuncaq komplekti, göbələk, dairə, üçbucaq, kağız, rəngli karandaşlar.

**Məşğələnin gedişi**

***Motivasiya.***

**T:**-Uşaqlar, biz sizinlə gəzməyə gedəcəyik. Bilirsiniz, hara gedəcəyik? Amma əvvəlcə siz mənə deyin görək, ev heyvanları harada yaşayır? Hansı ev heyvanlarını tanıyırsınız? (Uşaqların cavabları). Bilirsiniz, ev heyvanları evdən başqa, fermada da yaşayırlar. Bu gün biz sizinlə fermaya gedəcəyik. Gəlin, gedək. ("gedirlər", qrup otağında sağ və sol tərəflərə böyük və kiçik ölçülü göbələklər düzülür)

***Dərketmə.***

**T:**-Uşaqlar, baxın, yolun kənarında nə bitib? *(Uşaqların cavabları)* (Göbələk)

- Göbələklər nə qədərdir? (çoxlu)

-Bəs burada neçə göbələk var? (bir dənə)

-Bəs göbələk nə boydadır? (böyük)

-Bəs nə rəngdədir? (uşaqların cavabları)

-Yolumuza davam edək. Qabağımıza çay çıxdı. Gəlin, çayın üzərindən tullanaq. Hamımız birlikdə tullanırıq. (tullanırlar). Biz niyə tullandıq? (uşaqların cavabları) Gəlin yolumuza davam edək. Yenə qarşımıza göbələk çıxdı. Bunlar necədir? (balaca) Bəs neçə dənədir? (bir dənə)

-Bu göbələk nə boydadır? (kiçik)

-Hə, biz gəlib fermaya çatdıq. Baxın, yaşıl otlaqda heyvanlar otlayır. Hansı heyvanları görürsünüz? Gəlin onları adlandıraq. (inək, qoyun, at, keçi)

-Nə qədər heyvan var? (çox)

-Baxın, bu hansı heyvandır? (at) At neçə dənədir? (bir dənə)

-Bəs inək neçə dənədir? Sayaq. (iki) Uşaqlar, inək necə səs çıxarır? (mooooo). İnək insanlara nə verir? (süd)

-Görək qoyun neçə dənədir? (sayaq) (üç)

-Qoyun necə mələyir? (məəəə)

-Bəs keçi nə qədərdir? (çox)

-Afərin uşaqlar! Görürsünüz fermada nə qədər heyvan yaşayır! Axşam olanda heyvanlar yatırlar. Gəlin, onları evlərə yerləşdirək. Baxın, görün məndə nə var! (dairə, kvadrat, üçbucaq)

-Bu nədir? ***(dairə)***

-Nə rəngdədir? (qırmızı)

-Gəlin buraya qoyunları yerləşdirək. (yerləşdirirlər)
-Bəs bu nədir? ***(üçbucaq)***
- Nə rəngdədir? (göy)
-Bura isə at ilə inəkləri yerləşdirək.
-Bu nədir? ***(kvadrat)***
-Nə rəngdədir? (yaşıl)
-Bura isə keçiləri yerləşdirək.

***İdman dəqiqəsi.***

Meşədə gül dərmək üçün, *(əllər beldə)*
Gəl aşağı əyilək. *(aşağı əyilirlər)*
Bir çiçək, *(sağ əli sol ayağa çatdırmaq )*
İki çiçək, *(sol əli sağ ayağa çatdırmaq)*
Alınır güldən çələng. *(əlləri alnımızda dairəvi hərəkət etdiririk)*

***Tətbiqetmə*** .

T:-Uşaqlar, bizi çağıran kimdir? Eşidirsiniz? *(Stola yaxın gəlib və qulağını ata yaxınlaşdırır)*

-Aha! At mənim qulağıma nə isə deyir. O, istəyir ki, siz onun üçün ev çəkəsiniz.Yoxsa bir üçbucağın içərisində inəklərlə onun yeri dardır.Çəkək? (bəli)

-Stolların üzərində hər biriniz üçün ağ vərəq var. Baxaq görək orada nə çəkilib? (üçbucaq). Rəngli karandaşı götürüb, xəttin üzərindən gedib, içərisini rəngləyirik. Afərin!

Sonda tərbiyəçi-müəllim ümumiləşdirmə məqsədilə deyir:

-Biz bu gün sizinlə hara getdik və kimi gördük? (fermaya getdik və ev heyvanlarını gördük)

Uşaqlar rəğbətləndirilir və məşğələ yekunlaşdırılır.

**4-5 yaş.**

**Ətraf mühitlə tanışlıq və nitq inkişafı** məşğələsi

**2.1.4**. Canlı və cansız aləmin obyektlərini tədqiq edərək, nəticə çıxarır.
**2.1.6.** Gündəlik rast gəldiyi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edir;
***Mövzu:*** ***"Yurdumuza bahar gəlir".***
***Məqsəd.*** - Canlı və cansız aləmin obyektlərini sadalayır.
- Səbəb-nəticə əlaqələrini müəyyənləşdirir.
- Təbiətdə baş verən fəsli dəyişikliklər haqqında danışır.

***İnteqrasiya.*** **2.2.5**. 3-4 cümlədən ibarət mətn qurur.
**2.2.6.** Nitqində əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir.

***İş forması.*** Kollektiv, fərdi, qruplarla.
***İş üsulu.*** Əqli hücum, suallar.
***Resurslar.*** Bahar fəsli haqqında tablo, ağac, köçəri quşlar, vəhşi heyvan şəkilləri.

**Məşğələnin gedişi**

***Motivasiya.*** Bahar qız qapını döyüb, otağa daxıl olur və uşaqlarla salamlaşır.

B:- Salam uşaqlar. Mən sizə qonaq gəlmişəm. Siz məni tanıdınız? Nədən tanıdınız? O zaman yazın əlamətləriini söyləyin. (uşaqların cavabları) (qar əriyir, günəş daha isti olur, təbiət canlanır, ağaclar yarpaq, çiçək açır, quşlar uçub gəlirlər və s.)

B:-Uşaqlar, kim mənə bahar haqqında şeir söyləyər? Amma elə söyləyin ki, mənim xoşuma gəlsin.(Uşaqların cavabları)

***Dərketmə.***

B:- Afərin uşaqlar! Bahar təkcə bizim bağçamıza, küçəmizə deyil, bütün bağlara, çöllərə, meşələrə də gəlib. Meşədə çoxlu ağaclar olur. Siz ağacların adlarını bilirsiniz? Ağacın hissələrini adlandırın. Bəs ağacların böyüməsi, inkişafı üçün nə lazımdır? (işıq, isti, su, hava)

-Su və hava ağaclara nə üçün lazımdır? *(Uşaqların cavabları dinlənilir, suallar vasitəsi ilə düzgün cavaba istiqamətləndirilir)*

-Uşaqlar, indi isə sizi meşəyə dəvət edirəm.

***İdman dəqiqəsi.***

***Bahar gəlir,*** (addımlayırlar)

***Oxuyur***, (əllərini tütək kimi ağızlarına tuturlar)

***Günəş yeri qızdırır*** (günəşə doğru dartınmaq və ozünü qucaqlayıcı hərəkətlərlə tumarlamaq).

***Külək əsir, hey yayır*** ("süpürürük")

***Yarpaqları ətrafa***.

***Quşlar ötür, oxuyur*** (əllərini yelləyirlər)

***Günəş ilə rəqs edir.*** (fırlanır)

B:- Siz bilirsiniz ki, payızda köçəri quşlar uçub isti ölkələrə gedirlər. Onlar niyə uçub isti ölkələrə gedirlər? *(Uşaqların cavabları)* Düzdür, onlar qışda burada qalsalar məhv olarlar. Odur ki, uçub gedirlər. Baharda isə quşlar yenidən uçub gəlirlər. Hansı köçəri quşları tanıyırsınız? (qaranquş, durnalar)

-Kim mənə qaranquş haqqında şeir söyləyər? (Uşaqlar söyləyirlər)

B:-Afərin uşaqlar! Bəs siz tapmaca sevirsiniz? *(Bahar kirpi, dovşan,canavar, tülkü haqqında tapmacalar düşünür)*

Yatanda yumru yatar,
Ətini dərmana qatar.
Kim istəsə onu tuta
Tikanları əlinə batar.

***(kirpi)***

Qulaqları şəkk olur,
Quyruğu gödək olur.

***(Dovşan)***

Boz rəngdədir,dişləri var,
Hər tərəfi gəzir, gəzir,
Özünə ov axtarır.

***(Canavar)***

Şələ quyruq, tükü kürən,
Çox hiyləgər bir heyvan.

***(Tülkü)***

B:-Uşaqlar, bu heyvanlar harada yaşayırlar? bəs bu heyvanları bir sözlə necə adlandırmaq olar? (meşə heyvanları, vəhşi heyvanlar) Düzdür, uşaqlar! Bəs kim deyər, ayılar qış yuxusundan nə vaxt ayılırlar? ( Uşaqların müxtəlif fərziyyələri dinlənilir. Ayılar baharda qış yuxusundan ayılır, dovşanın tükləri yazda boz rəng alır və s.)

***Tətbiqetmə.***

B:-Uşaqlar gəlin "Nə vaxt olur" oyununu oynayaq.(Uşaqlar 2 qrupa bölünür. Tərbiyəçi oyunun qaydası ilə uşaqları tanış edir. I komanda II komandaya suallar verir:

-Ağaclar nə vaxt çiçək açır?
-Qaranquşlar nə vaxt uçub gəlirlər?
-Novruz bayramı nə vaxt olur?
-Analar bayramı nə vaxt olur? Və s.
Məşğələnin sonunda uşaqlar rəğbətləndirilir, məşğələ ümumiləşdirilərək, yekunlaşdırılır.

**5-6 yaş.**

**<u>Bədii təfəkkürün inkişafı məşğələsi</u>** məşğələsi

**St.** 2.2.1. Dinləyib-anladığı fikirləri şərh edir;
2.2.2. Bədii nümunə, müşahidə və şəkillər əsasında fikrini sadə şəkildə şərh edir.
**Mövzu: «Qurd və dövşan»** Az. xalq nağılı.
**Məqsəd:** - Dinlədiyi fikirlərə münasibət bildirir.
- Fikrini sadə şəkildə şərh edir.
- Fikrini rabitəli ifadə edir.

**İnteqrasiya:** 1.1.4. Kiçik motor hərəkətlərini (şəkil çəkir, konturdan kənara çıxmayaraq rəngləyir, verilmiş materialı və ya əşyanı hissələrə ayırır və birləşdirir, kontur üzrə kəsir, yapışdırır, quraşdırır, düzür və s.) koordinasiya edir.

2.1.5.Obyektlər haqqında məlumat toplayır, müxtəlif vasitələrlə (müzakirə edir, şəkillər çəkir, müxtəlif simvollar düzəldir və s.) şərh edir;

**İş forması:** kollektiv, fərdi.
**İş üsulları:** nağıletmə, müzakirə, suallar.
**Resurslar:** Nağıla aid atributlar, uşaq üçün vəsait, rəngli karandaşlar və ağ kağız.

**Məşğələnin gedişi**

**Aktuallaşdırma:**

Müəllim uşaqların diqqətini müxtəlif nağıllardan personajlar təsvir olunmuş tabloya (imkan varsa proyektorla salınsın) cəlb edir:- Uşaqlar, gördükləriniz haqqında nə deyə bilərsiniz? Uşaqların fərziyyələri dinlənilir.

**M:**- Uşaqlar, bu gün biz daha bir nağılla tanış olacağıq.

**Dərketmə.** Müəllim nağılı danışmağa başlayır:

Biri var idi, biri yox idi. Bir dovşan var idi. Bir gün dovşan yuvasında balalarından birini görmədi. Balaca dovşanın yerini soruşanda balalardan biri dedi:

-O, bizim sözümüzə baxmayıb, yuvadan çıxdı.Qurd da onu ağzına alıb apardı.

Ana dovşan bütün gecəni yatmadı. Səhər tezdən meşəyə baxıb gördü ki, bir ovçu dərədə çala qazıb, tələ qurub. Dovşan tələni görən kimi sevindi.Qurdu axtarmağa getdi. Xeyli gəzəndən sonra qurda rast gəldi:

-Hi-hi-hi. Ay qurd lələ, dalımca gəl.

Qurd təəccüblə soruşdu:

-Nə var, ay dovşan qardaş?

-Sənin üçün bir yaxşı yem tapmışam. Hi-hi-hi. Aşağıda, dərədə bir kök quzu otlayır. Yanında da heç kəs yoxdur. Hə, tələs, yoxsa çoban gəlib aparar, ac qalarsan.

**T:** - Uşaqlar, sizcə, dovşan niyə belə dedi?

Quzu adını eşıdəndə qurdun ağzı sulandı. Ancaq dovşanın sözünə inanmadı.

-Yox, ay dovşan qardaş. Mən sənin sözünə inanmıram. Axı, bunun sənə nə xeyri var ki, qaçıb mənə xəbər verirsən?

Dovşan özünü itirməyib, cavab verdi:

- Hi-hi-hi, sən quzunu yeyəndən sonra dərisini atırsan. Mən də dərini aparıb balalarımın altına sərərəm. Onlar da yumşaq yerdə yatarlar.

-Yaxşı, tez ol, gedək quzunu mənə göstər.

Dovşan qurdu tələnin yanına gətirib, yavaşca dedi:

-Qurd qardaş, bax, quzu o ağacın yanındakı çəməndədir. Asta ol. Yoxsa quzu səni görüb qaçar.

Qurd qulaqlarını şəklədi, gözlərini bərəltdi, dişlərini qıcırtdı. Yerə yatıb çəmənliyə sarı baxdı. Sonra yenidən qalxıb pəncəsini atanda tələyə düşdü.

Ana dovşan tələdə çapalayan qurda dedi:

-Ay yaramaz, balamı yeyib, məni gözü yaşlı qoydun. İndi qoy sənin dərin ovçunun arvadı üçün xəz olsun.

**İdman dəqiqəsi.** Musiqi sədaları altında ritmik hərəkətlər.

Suallar üzrə söhbət:

- Nağıl xoşunuza gəldi?
- Dovşanın balasını nə yemişdi?
- Dovşan qurdu niyə tələyə salmaq istədi?
- Sizcə dovşan düz etdi?

**Tətbiqetmə.**

Nağılın uşaqlar tərəfindən hissə-hissə söylənilməsi.

Müəllim uşaqlara nağılın motivləri əsasında şəkil çəkməyi təklif edir.

Məşğələ üşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

—

**<u>Savad təliminə hazırlıq və nitq inkişafı</u>** məşğələsi

St.2.2.4. Hərf və səsləri fərqləndirir; kəsmə əlifba vasitəsi ilə sözlər düzür;.

St.2.2.5.Hecalar, hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən şifahi mətnlər qurur;

***<u>Mövzu.</u>*** **T** - səsi və hərfi.

“Traktor” mövzusunda müsahibə.

***<u>Məqsəd.</u>*** – Traktor haqqında danışır.

-T səsini və hərfini fərqləndirir.

- T səsi olan sözlər söyləyir.

-Sözlərdən cümlələr qurur.

**<u>İnteqrasiya .</u>**

St.2.3.1. Əşyalarla 10 dairəsində riyazi əməliyyatlar yerinə yetirir;

St.2.1.5.Obyektlər haqqında məlumat toplayır, müxtəlif vasitələrlə (müzakirə edir, şəkillər çəkir, müxtəlif simvollar düzəldir və s.) şərh edir;

***<u>İş forması.</u>*** Kollektiv, fərdi, qruplarla.

***<u>İş üsulu.</u>*** Əqli hücum, suallar, müzakirə, sujetli-rollu oyunlar.

***Resurslar.*** Təhlil üçün sxemlər, *traktor, televizor, top, telefon, at, ot* şəkilləri, rəngli çöplər, tabaşir, dəftər, kəsmə əlifba, flaneloqraf.

**Məşğələnin gedişi**

***Motivasiya və ya aktuallaşdırma.*** Tərbiyəçi-müəllim yer şumlayan traktor tablosu əsasında motivasiya yaradır. Uşaqların gördükləri əsasında fikirləri dinlənilir.

***Dərketmə.***

1. **T səsi və hərfi ilə tanışlıq.**
   Fonematik gimnastika
   Qatar hərəkət edərkən necə səs çıxarır? (tak-tak-tak)
   Sözün əvvəlində hansı səsi eşidirsiniz? (T)
2. **Sözdə səsin yerinin müəyyən edilməsi.**
   Traktor sözündə T səsinin ayrılması.
   Səsi tələffüz edin: birinci hansı səsi eşidirsiniz? (T)

**3.Artikulyasiya.**

Səsi bir daha tələffüz edək və bu zaman dodaqlarımızın vəziyyətinə diqqət edək.

T səsinin olduğu sözləri və sözdə səsin yerini müəyyən etmək üçün **avtobus, traktor, at, top, vedrə, ağac, dovşan şəkillərin**dən istifadə etmək.

**avtobus, traktor, at, top, vedrə, ağac, dovşan şəkilləri**

**4.**T səsi olan sözlərin uşaqlar tərəfindən söylənilməsi.

**5. T** hərfinin çap formasının yazılışı üzrə iş.

**T** hərfinin say çöplərindən qurulması və çap formasının yazılışı.

***İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər.***

***Tətbiqetmə.***

T səsi olan söz söyləmək və sözdə səsin yerini müəyyənləşdirmək.

ATA, AT sözlərini say çöpləri ilə və qələmlə yazmaq.

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır

**Riyazi və məntiqi təfəkkürün inkişafı** məşğələsi

St. 2.3.5 Oyun və tədqiqatlar zamanı müxtəlif vəsaitləri (maqnit, böyüdücü şüşə, xətkeş və s.) tətbiq edir;

**Mövzu: Əşyanin uzunluğu. (**Xətkeşdən istifadə).

**Məqsəd:**

- Əşyaları uzunluğuna görə müqayisə edir;
- Uzunluğu ölçmək üçün xətkeşdən istifadə edir;

**İnteqrasiya:**

3.2.2. Əmək prosesində istifadə edilən alətləri adlandırır, parça və iynə-sapla sadə bacarıqlar nümayiş etdirir.

**İş üsulu:** Əqli hücum, müzakirə, suallar,oyun.

**İş forması:** Fərdi, kollektiv.

**Resurslar:** Ağ vərəqlər, şəkillər, rəngli karandaşlar.

**Məşğələnin gedişi**

***Aktuallaşdırma.***

Tərbiyəçi- müəllim müxtəlif uzunluqda olan 2 karandaşı uşaqlara göstərib soruşur:

- Bu karandaşların fərqi nədir?
- Otaqda hansı əşyalar uzun, hansı əşyalar qısadır?
- İnsanlar boylarının uzunluqlarını nə ilə ölçürlər?
-Bəs biz necə ölçə bilərik?

Uşaqların fikirləri dinlənilir və yeni mövzuya keçilir.

***Dərketmə.***

Tərbiyəçi- müəllim uşaqlara müxtəlif uzunluqda iplər verərək, onların hansının daha uzun olduğunu ölçməyi tapşırır. Uşaqlar ipləri bir-birinin üzərinə qoyaraq ən uzun ipin hansı olduğunu müəyyənləşdirirlər.

Tərbiyəçi- müəllim məşğələni uşaqlar üçün yeni məlumatla davam etdirir:

- Qədim zamanlarda insanlar məsafəni ölçmək üçün addımdan, parçanı ölçmək üçün qoldan, əldən istifadə edirdilər. Tərbiyəçi- müəllim qrupda əyani şəkildə uşaqların iştirakı ilə bəzi qeyri-standart ölçmə işlərini göstərir. Sonra isə uşaqlar uzunluğu ölçmək üçün müxtəlif formalı xətkeşlərlə və ondan istifadə ilə tanış olurlar. Tapşırıqlar yerinə yetirilir.

**İdman dəqiqəsi. Musiqi sədaları altında ritmik hərəkətlər.**

***Tətbiqetmə.***

Tərbiyəçi- müəllim oyun keçirir. Uşaqlar stolun, yazı taxtasının uzunluğunu əllə, otağın uzunluğunu addımları ilə ölçürlər.

***Tərbiyəçi- müəllim məşğələni ümumiləşdirərək yekunlaşdırır.***

## 3.6. Ailələrlə əməkdaşlıq

Məktəbəqədər təhsil mühiti uşaqların tədqiqat aparmaları, fəaliyyətlə məşğul olmaları və ətraf mühitə dair öz anlayışlarını formalaşdırmaları üçün yaşıdları, həmçinin böyüklərlə əlaqə yaratmaları üçün imkan yaratmalıdır. Bu zaman, təlim prosesinin səmərəliliyinin artırılması üçün fəaliyyətlər arasında balans olmalıdır.

Erkən və məktəbəqədər təhsil dövrünün sonunda ailələr uşaqların gözlənilən təlim nəticələri haqqında müəyyən məlumata malik olmalıdırlar. Uşaqların əlverişli təlim nəticələrinə nail olunmasına təminat verilməsi məqsədilə məktəbəqədər təhsil müəssisəsi və ailələr əməkdaşlıq şəraitində işləməlidirlər. Uşaq bağçası ilə ailənin qarşılıqlı fəaliyyətinin əsas məqsədi–uşaq bağçasında uşaqların şəxsiyyətyönümlü inkişafını təmin edən zəruri şəraitin yaradılması, təlim-tərbiyə sahəsində valideynlərin səriştəliliyinin artırılmasıdır.

Uşağın ilk tərbiyəçisi kimi ailənin rolu erkən yaş dövründə ailə və məktəbəqədər müəssisə arasında tərəfdaşlıq münasibətlərinin qurulmasında mühüm faktordur. Tərəfdaşlıq və məsuliyyət uşaqların təhsili ilə bağlı qərarların qəbul edilməsində etimad və hörmət, bərabər hüququ nəzərdə tutur. Məktəbəqədər müəssisələrdə çalışan pedaqoji işçilərlə ailə arasında təlim-tərbiyə prosesinin ardıcıllığını və tamlığını təmin edə biləcək tərəfdaşlıq münasibətlərinin qurulması zəruridir.

Valideynlər və tərbiyəçi-müəllimlər tərəfindən tərəfindən qoyulmuş səylər məlumat və təcrübə mübadiləsinə, həmçinin uşaqların inkişafı və təlimi üçün ən əlverişli şəraitin təmini məqsədilə əməkdaşlığa əsaslanmalıdır.

Valideynlər məktəbəqədər müəssisənin simasında dəstək əldə etməlidir ki, özlərini müəllimlərlə əməkdaşlıq prosesində lazımlı hiss etsinlər, həmçinin uşaqların iştirakı ilə keçirilən fəaliyyətin istənilən növlərində iştirak etsinlər. Belə fəaliyyət çərçivəsində onlar aşağıdakılarla tanış olmalıdırlar:

-Uşağın yaşına məxsus xüsusiyyətləri ilə;

-Təlim-tərbiyə işinin mühümlüyü ilə;

-Uşaqlara təsir edən stimullaşdırıcı mühitin vacib rolu ilə;

-Fiziki, emosional və təhlükəsiz mühitin təmin olumasının zəruriliyi ilə;

-Erkən inkişaf və təlim işinin aparıldığı müəssisənin fəaliyyəti ilə.

Hər bir tərbiyəçi-müəllim bütün ailələri öz uşağının təliminə cəlb etmək üçün səmərəli strategiyalar yarada bilər.

-Uşaqların inkişafı və təlimi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək məqsədi ilə uşaq barədə məlumat və təcrübə mübadiləsi üçün səy göstərməlidir. Müəllimlər uşağın inkişafı və təlimi barədə ailələrlə müzakirələr təşkil etməli, ideyalarını valideynlərlə bölüşməli, onlarda uşaqlarının təliminə maraq oyatmalıdırlar.

-Hər bir ailənin dəyərlərinə hörmətlə yanaşmalıdır. Bunun üçün tərbiyəçi-müəllimlər müxtəlif ailələrin sosial-iqtisadi statusu və mədəniyyətində mövcud olan fərqlərin anlaşılması vərdişlərə malik olmalıdırlar. Belə münasibətlər vasitəsilə tərbiyəçi-müəllimlər uşaqların təhsili üçün daha təhlükəsiz və sağlam mühit yarada bilər.

- Valideynlərə uşaq bağçasının simasında dəstək əldə etmələrinə kömək etmək lazımdır ki, onlar özlərini bu əməkdaşlıq prosesində, həmçinin uşaqların iştirakı ilə keçirilən bütün fəaliyyət növlərində lazımlı hesab etsinlər.

Belə fəaliyyət çərçivəsində onlar aşağıdakılarla tanış olmalıdırlar:

-uşağın bu yaşa xas olan xüsusiyyətləri ilə;

- təlim-tərbiyə işinin vacibliyi ilə;

-uşaqların qarşılıqlı fəaliyyət göstərdikləri inkişafetdirici və stimullaşdırıcı mühitin mühüm rol oynaması ilə;

-fiziki və emosional müdafiə və təhlükəsiz mühitin təmin edilməsi zərurəti ilə;

-uşaq bağçasında aparılan fəaliyyət ilə.

**Müəllimin rolu.** Məktəbəqədər təhsil üzrə dövlət standartlarının reallaşdırılması məktəbəqədər müəssisələrdə çalışan tərbiyəçi-müəllimin peşəkarlığından və bu prosesə hazırlığından birbaşa asılıdır.

Məktəbəqədər təhsil sistemində çalışan təhsilverənlər əsasən, aşağıdakı peşəkar bilik və bacarıqlara malik olmalıdırlar:

- uşaq inkişafının müxtəlif aspektlərinin xolistik (hərtərəfli və əlaqəli) vəhdəti və uşağın bioloji, psixoloji, fizioloji və sosial inkişaf xüsusiyyətləri (yaş psixologiyası və inkişaf nəzəriyyələri) haqqında biliyi;

-uşaqların təliminin müxtəlif strategiyalar üzrə bilik və bacarığı (oyun əsaslı, dil bacarıqlarının inkişafı və s.);

-komandada işləmək; (şəxsiyyətlər arası ünsiyyət, qrup işinin dinamikası və s.)

-müxtəliflik kontekstində iş (mədəniyyətlərarası dialoq, qərəzsiz yanaşmalar və s.) ;

-məktəbəqədər təhsil sahəsində yerli, milli və beynəlxalq kontekstdə mövcud vəziyyət haqqında bilik;

-məktəbəqədər yaşlı uşaqların sağlamlıq və qayğısı haqqında, həmçinin onların sosial müdafiəsi haqqında baza biliyi;

-yenilikləri tətbiq edən, yaradıcı, informasiya və kommunikativ texnologiyalardan istifadə etmək bacarığı;

-uşağın meyl, maraq və qabiliyyətlərni aşkara çıxarıb inkişaf etdirmək bacarığı;

-uşağın yaş səviyyəsini, potensial imkanlarını nəzərə almaqla təlim prosesini səmərəli təşkil etmək bacarığı;

-inkişafetdirici mühit və işgüzar şərait yaratmaq bacarığı;

-uşaqlarla ünsiyyət və əməkdaşlıq; ailələrin uşaq inkişafında və təhsilində rolunu nəzərə alaraq, ailələrlə əməkdaşlıq etmək bacarığı;

-uşağın inkişafını sistematik şəkildə sənədləşdirmək bacarığı;

-xüsusi qayğıya ehtiyacı olan uşaqları müəyyən etmək və onların inklüziyası üçün strategiyalar müəyyən etmək bacarığı;

-sağlamlıq imkanları məhdud olan uşağın tərbiyəsi, təlimi, inkişafı, qulluq və sağlamlığını, eləcə də onların fiziki və psixi inkişafında olan çatışmazlıqları müəyyən etmək bacarığı;

-uşağın inkişafında olan geriliklərin aradan qaldırılması üzrə hər bir uşağın fərdi imkanlarını nəzərə almaqla, onların cəmiyyətə uğurlu inteqrasiyasını və erkən sosiallaşmasını həyata keçirmək bacarığı;

-özünü daim inkişaf etdirmək bacarığı.

Dəstəkləyici təlim mühiti uşaqların müstəqilliyinə imkan yaradır, onların təhsil uğurunun təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu dəstəkləyici mühitin ən mühüm komponenti isə müəllim ilə uşaq arasında qurulan qarşılıqlı hörmət və etibarlı münasibətdir. Müəllim uşağın qabiliyyətlərinin inkişaf etdirilməsinə və yeni bacarıqlar qazanılmasına dəstək olmaq üçün nəticədən daha çox prosesə önəm verməli, uşağın səylərinə diqqət yetirməli, bu səyləri təqdir etməli, uşağa yaxşı bir nümunə olmalı və yeni öyrənmə imkanları yaratmalıdır. Müəllim bütün bu yanaşmalardan oyun və ya təlim prosesində istifadə etməlidir.

## IV. Uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsinə dair

Məktəbəqədər təhsil kurikulumunun tətbiqində tərbiyəçi-müəllimlərin ən mühüm funksiyalarından biri müşahidəçi kimi fəaliyyət göstərməsidir. Müşahidəçi funksiyasını yerinə yetirmək üçün tərbiyəçi-müəllim müşahidəyə vaxt ayırmalı və onun aparılmasında lazımi vasitələrə malik olmalıdır.

Uşağın inkişafının izlənilməsi üçün ən səmərəli yollardan biri təbii şəraitdə uşağın müşahidə edilməsi və müşahidə etdiklərinə dair qeydlərin aparılmasıdır. Müşahidə və qeydlərin aparılması yolu ilə tərbiyəçi-müəllim uşaqlar haqqında məlumat əldə edib onun fəaliyyətini planlaşdırmalı, uşaqların ailəsi ilə paylaşmaq üçün ondan istifadə etməlidirlər. Tərbiyəçi-müəllimlər qeydə aldıqları davranışları dəqiq təsvir etməlidirlər. Müşahidə olunmuş fəaliyyət və davranış nümunələri mütəmadi halda qeyd olunmalıdır. Bu, sənədləşdirmə prosesidir və uşaqlar haqqında sistemli biliklərin toplamasına şərait yaradır. Müşahidələr sistematik halda aparılmalıdır. Sistematik yanaşma uşaqların müəyyən müddət ərzində bir çox fərqli fəaliyyətlərdə iştirakı zamanı onların inkişafının izlənilməsinə imkan yaradır.

Tərbiyəçi-müəllim gündəlik məşğələ və məşğələdənkənar vaxtlarda uşaqlar haqqında topladıqları məlumat uşaqların nəyi və necə öyrəndiklərini müəyyən etmək üçün olduqca səmərəlidir. Müşahidə, bəzən dəyərləndirmə üçün sırf məlumat xarakteri daşıyır və sənədləşdirilmir. Dəyərləndirmə üçün tərbiyəçi-müəllimlərin aydın məqsədi olmalı, müşahidələr sistematik, obyektiv, seçmə və dəqiq olmalıdır. Nəticədə bütün məlumatlar gələcəkdə tərbiyəçi-müəllimin görüləcək işlərin planlaşdırılması üçün istifadə olunur. Uşaqların həyata və məktəb təliminə hazırlığı bilavasitə bu müşahidələrin düzgün aparılmasından və onların inkişaf planlarının

düzgün qurulmasından asılıdır. Uşaq inkişafının izlənilməsinin məqsədi uşaqda sosial, psixoloji və fiziki hazırlığının təminatını təşkil etməkdir.

### 4.1. Dəyərləndirmənin əsas məqsədi

Müasir dövrdə təhsilin keyfiyyətinin idarə olunmasının, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacibdir. Bu işdə isə dəyərləndirmə mühüm pedaqoji vasitədir. Dəyərləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, uşaqların inkişafının necə getdiyini, nəyi mənimsədiklərini, nələri öyrəndiklərini, nələri edə bildiklərini və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Qiymətləndirmənin nəticələri uşaqların həm yüksək, həm də aşağı səviyyədə olan bacarıqlarını müəyyənləşdirir. Bunun nəticəsində faydalı təlim təcrübəsi, fərdi təlim planlaşdırılır və həyata keçirilir.

### 4.2.Uşaq inkişafının izlənilməsinin təşkili

İnkişafın izlənilməsi tədbirləri hər bir uşağa fərdi qaydada tətbiq edilir, uşaqların nitq, hissi, böyük və kiçik motor bacarıqlarında inkişaf ləngimələrini, görmə və eşitmə ilə bağlı problemləri olan uşaqları müəyyənləşdirmək üçün istifadə edilir. Belə hallarda, inkişafın izlənilməsi tədbirlərinin nəticələrindən uşağın növbəti qiymətləndirməsini müəyyənləşdirmək üçün istifadə edilməlidir. İnkişafın izlənilməsi erkən uşaqlıq dövründə inkişaf və təlimin səviyyəsinin dəyərləndirilməsinin tam sistemində yalnız bir komponent kimi nəzərdən keçirilməlidir. Dəyərləndirmə xüsusi məqsəd kimi nəzərdən keçirilməli və ondan etibarlı nəticələr kimi istifadə edilməlidir.

Tərbiyəçi-müəllimlər uşaqların ümumi inkişafına yardım göstərməyi planlaşdıra və həyata keçirə bilmək üçün hər bir uşağın sosial, fiziki, əqli və emosional xüsusiyyətlərinə bələd olmalıdırlar. Normal inkişaf edən uşaq haqqında olan bu məlumatlar tərbiyəçi- müəllimlərə öz diqqətlərini uşağın maraq və istəkləri, həmçinin yaranmaqda olan vərdiş və bacarıqlar üzərində cəmləşdirməkdə köməklik göstərir. Belə ki, onlar uşağın təbii inkişaf mərhələləri üçün faydalı olan qarşılıqlı fəaliyyət formalarını müəyyənləşdirə bilirlər. Diqqətli müşahidə tərbiyəçi-müəllimlərə uşaqların inkişafı barədə "xəbərdarlıq edir". Uşağın normal inkişafının nə demək olduğundan və bu normal inkişaf sərhədlərinin hansı dərəcədə geniş ola biləcəyindən agah olan tərbiyəçi-müəllimlər qeyri-normal inkişaf edən uşaqları daha asanlıqla müəyyənləşdirə bilirlər. Onlar uşaqların gündəlik fəaliyyət və hərəkətlərə necə reaksiya verdiklərini müşahidə edərkən və valideyni sorğu-sual edətkən, sistematik müşahidə və qeydiyyat metodlarından yararlanırlar. Bu cür metodlardan biri tərbiyəçi-müəllimlərin öz müşahidələrini sistematik qaydada təşkil etmək üçün faydalandıqları inkişafın izlənməsi siyahısıdır. İzləmə siyahısı tərbiyəçi-müəllim və valideynlərə uşağı başa düşməkdə kömək edən zəruri informasiya mənbəyi kimi davranış nümunələrini müəyyənləşdirməkdə yardımçı olur.

### 4.3. Dəyərləndirmənin metod və vasitələri

Doğulandan 6 yaşa qədər uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi müşahidə prosesi, sənədləşdirmə və məlumatların toplanması, onun dərk edilməsi və uşaq haqqında məlumatların

bölüşdürülməsidir. Məktəbəqədər təhsil müəssisələrində təhlil sistemi və uşaq inkişafının dəyərləndirilməsi prosesi təşkil edilməli, uşaq inkişafının dinamikasının izlənməsi ilə bağlı planlı sənədləşmə aparılmalı və ailə ilə əks əlaqə qurulmalıdır.

***Dəyərləndirmə*** məlumatların təhlili və nəticələrin çıxarılması prosesidir.

Dəyərləndirmə nəzərdə tutulan ümumi təlim nəticələrinə nail olmaqda uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün qiymətləndirmə əsnasında toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

Məktəbəqədər təhsildə dəyərləndirmə uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və təlim prosesində nailiyyətlərin müəyyən olunmuş keyfiyyət səviyyəsinə uyğunluğunun obyektiv, etibarlı vasitələrlə ölçülməsidir.

Dəyərləndirmə zamanı aşağıdakı metodlardan istifadə olunur:

• ***Müşahidə (diaqnostika məqsədilə aparılır və davamlı qiymətləndirmə vasitəsi kimi çıxış edir).*** Bu metoddan istifadə zamanı tərbiyəçilər uşaqların təlim fəaliyyətini fasiləsiz izləyir, qeydlər aparır, uşaqların əldə etdikləri irəliləyişləri haqqında məlumatı valideynlərinə təqdim edir. Müşahidələrin qeydə alınması obyektiv məlumatın toplanmasından ibarətdir. Müşahidə uşaqların fəaliyyətinə mane olmadan onları izləmək prosesidir. Uşağın gündəlik fəaliyyətlərə necə münasibət göstərdiyini izlədikcə, tərbiyəçi-müəllim uşağın vərdişlərə yiyələnmək səviyyəsi, temperamenti, maraqları və ümumi inkişafı haqqında məlumat toplamış olur. Bu metod uşaqların fərdi xüsusiyyətləri, ehtiyacları, qabiliyyətləri və maraqları haqqında məlumat toplamağa imkan verir. Müşahidə tərbiyəçi-müəllimlərə müəyyən edilmiş məqsədlərə dair cəld və düzgün məlumat əldə etməkdə köməklik göstərir.

Müşahidələr ***gündəlik və dövri*** olmaqla iki formada aparılır:

**Gündəlik müşahidə** heç bir qaydaya tabe olmur. Tərbiyəçi-müəllim tərəfindən gündəlik həyat şəraitində aparılır. Alınan nəticələr ilkin məlumatlar formasında toplanır.

**Dövri müşahidə** uşağın oyun, təlim və əmək fəaliyyəti zamanı aparılır. Bu müşahidə vasitəsi ilə uşağın fəaliyyəti ardıcıl öyrənilir, nəticələrə görə cədvəllər doldurulur. Müşahidə, əsasən, uşağın maraqları və xüsusi diqqəti cəlb edən məqamlarını aşkar edir.

Məktəbəqədər yaşlı uşaqlar oyun və digər fəaliyyət növlərində olduğu müddətdə tərbiyəçi-müəllimin müşahidələri yazılı formada qeydə alınır. Qeydlər sərbəst və təyin edilmiş müəyyən vaxtda aparıla bilər. Tərbiyəçi-müəllimin müşahidələri tarix və qeydləri ilə birlikdə uşağın konkret nə etdiyinə əsaslanır. Qeydlər xaraktercə obyektiv olmalı və buraya heç bir rəy, mühakimə və şərhlər daxi olmamalıdır.

• ***Müsahibə.*** Tərbiyəçi-müəllim uşaqlarla müsahibəni söhbət formasında aparır. O, həmçinin bu üsuldan uşaqların qiymətləndirmə göstəricilərini müəyyənləşdirmək məqsədi ilə valideynlərlə aparılan iş zamanı da istifadə edir. Uşaq haqda ilkin məlumatın toplanması üçün aparılır.

• ***Şifahi sorğu*** söhbət və oyunlar formasında keçirilir. Sorğu tərbiyəçi-müəllimə uşaqların əşyalar, hadisələr, onların xüsusiyyətləri haqqında mənimsədikləri biliklərin, bacarıqların formalaşma səviyyəsini və fəaliyyətlərdə tətbiqetmə bacarığını yoxlamağa imkan verir.

• ***Fəaliyyət məhsullarının təhlili.*** Uşaqlar məhsuldar fəaliyyətin (rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma və s.) nəticələrinə görə qiymətləndirilirlər. Bu qiymətləndirmələrin obyektiv aparılması üçün həmin sahələr üzrə normalar müəyyənləşdirilir.

• ***Portfolio.*** Portfolio (ingilis dilindən tərcümədə portfel, mühüm sənədlər üçün qovluq) - uşağın əl işləri, fikirləşdikləri hekayələr, təsviri fəaliyyət məşğələlərinin nəticələri və əlavə olaraq uşağın hansısa fəaliyyətlə məşğul olarkən foto şəklinin, səhnələşdirmə zamanı rol ifa edərkən foto

şəkillərinin saxlanıldığı qovluqdur. Bu iş nümunələri valideynlərə də öz uşaqlarının nailiyyətlərini görməyə imkan yaradır.

Portfoliodan istifadə edərkən uşaqlara dair əldə edilən məlumatlar təhlil, şərh edilir və qiymətləndirilir. İl ərzində tərbiyəçi-müəllimlər qiymətləndirmə ilə bağlı qərarlarını qeyd edir və bununla da uşağın il ərzində əldə etdiyi uğurları görməyə imkan yaranır. Portfolio tərbiyəçi-müəllim lərə uşaqların inkişaf və nailiyyətlərinin dəyərləndirilmələrinə dair qərar verməkdə bələdçilik edir. Məktəbəqədər yaşlı uşaqların portfoliosu uşağın ayrı-ayrı nailiyyətlərinin adekvat təqdim edilməsi, həmçinin onun sosial, sosial-emosional, idraki inkişaf kimi fəaliyyət sahələri üzrə əldə edilən nəticələrinin nəzərə alınmasına görə effektiv dəyərləndirmə formasıdır. Portfolio həm formativ, həm də yekun hesabatda dəyərləndirmə məqsədilə aparılır və uzunmüddətli proses hesab olunur.

Beləliklə, məktəbəqədər müəssisələrdə portfolionu uşağın imkan və bacarıqlarının, fərdi keyfiyyətlərinin inkişaf səviyyəsinin kompleks qiymətləndirilməsi, "inkişaf trayektoriyası"nın qurulması üçün fərdi nailiyyətlərin təhlilinin vasitəsi kimi müəyyən etmək olar.

Portfolioya aşağıdakılar daxildir:

- ***təsviri və ya gündəlik qeydlər;***
- ***iş nümunələri;***
- ***ailə məlumatları;***
- ***inkişaf səviyyəsi cədvəlləri.***
- ***Inkişafa dair yekun hesabat.***

**Təsviri və ya gündəlik qeydlər.** Bu, uşaqların fərdi və ya qrup şəklində fəaliyyətləri haqqında günün sonunda təəssüratların qeyd olunmasıdır. Onlar subyektiv xarakter daşıyır. Bu qeydlər gün ərzində baş verən hadisələr arasında uşaqların müəyyən nailiyyət və uğursuzluğunu izləməkdə faydalı ola bilər.

**İş nümunələri.** **U**şaq tərbiyəçi-müəllim (valideyn) tərəfindən əvvəlcədən müəyyənləşdirilmiş xüsusi tapşırığı yerinə yetirir. Tapşırıq rəsm, kəsib-yapışdırma, yarımçıq işi tamamlamaq, quraşdırma, yapma, əşyalarla oyun və s. ibarət ola bilər. Bu ay, rüb, il ərzində inkişaf dinamikasını izləməyə imkan verir.

**Ailənin məlumatları.**Tərbiyəçi-müəllimlər və valideynlər məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsi işində daim əməkdaşlıq edirlər. Bu əməkdaşlığın mühüm bir cəhəti kimi ailənin uşaq haqqında məlumat verməsidir. Tərbiyəçi-müəllimlər sorğudan istifadə etməklə uşaq haqqında məlumat toplayır.

**İnkişaf səviyyəsi cədvəlləri.** Hər yaş dövrünün sonunda uşaqların inkişaf səviyyələri müəyyən olunur. Uşaqların yaş və inkişaf səviyyələrinin müəyyənləşdirilməsi və qiymətləndirmənin mütəmadi aparılması uşaqların fərdi maraqlarına, öyrənmə üsullarına və bacarıqlarına cavab verən müvafiq təlim strategiyalarının planlaşdırılması üçün əsas üsul hesab edilir. Bu qiymətləndirmə sistemi təlim strategiyaları vasitəsilə tərbiyəçi-müəllimlərin hansı cəhətə diqqət yetirmələrinə və uşaqların davamlı inkişaf və təliminə dəstək olmaqda köməklik göstərəcəkdir.

Məzmun standartlarında nəzərdə tutulmuş nəticələrin hamısı təlim prosesində nəzərə alınmalı, *qiymətləndirmə zamanı uşaqların nəzərdə tutulmuş təlim nəticələri üzrə nailiyyətlərinə xüsusi diqqət yetirilməlidir.*

***İnkişafa dair yekun hesabat.*** Bu məktəbəqədər dövrdə ***2 dəfə***: 3 yaşın və 6 yaşın sonunda uşağın inkişaf və təliminin qiymətləndirilməsi ilə bağlı hesabatın hazırlanmasıdır. Uşaq bu

hesabatla növbəti mərhələyə qədəm qoyur. Bu zaman uşağın məktəbəqədər təhsilin sonunda inkişafının səviyyəsi müəyyən edilir.

### 4.4. Dəyərləndirmənin aparılmasına verilən tələblər.

Obyektiv aparılmış dəyərləndirmə, hər şeydən əvvəl real vəziyyətin aşkara çıxarılmasında mühüm vasitədir. Məhz real vəziyyətin təhlili nəticəsində buraxılan nöqsanlar müəyyən edilir, onların aradan qaldırılması yolları müəyyənləşdirilir və gələcək üçün proqnazlaşdırma aparılır.

Dəyərləndirmə, uşaqların inkişafı ilə elə əlaqələndirilməlidir ki, onların bacarıqlarına dair tam və əhatəli cavab almaq mümkün olsun. Dəyərləndirmə uşağın müəyyən müddət ərzindəki nailiyyətini, səylərini nümayiş etdirən işlərin məcmusudur. Dəyərləndirmənin son məqsədi uşaqların inkişaf dinamikasını müəyyənləşdirmək və özünüdəyərləndirməyi öyrətməkdir. Uşaqlar hər hansı bir spesifik şəraitdə özünü göstərməyə çalışır. Uşağın özünü göstərə bilməsi üçün tərbiyəçi-müəllim onu həvəsləndirməli, özünəinam hissini formalaşdırmalı, istiqamətləndirməlidir. Bu zaman uşağa müəyyən dərəcədə müstəqillik, sərbəstlik verilməsi vacibdir.

Düzgün və hərtərəfli dəyərləndirmə:

-hər bir uşağın çatışmayan cəhətlərinə deyil, onun potensial imkanlarına yönəldilməlidir;

-nəyi və necə öyrətməyi göstərməklə, təlimi inkişaf etdirməlidir;

-çoxölçülü olmalı, sosial və emosional inkişafa da zehni inkişaf qədər yer ayrılmalıdır;

-müəllim-valideyn, habelə müəllim-uşaq arasında fəal əməkdaşlığa nail olmalıdır;

-uşaqların müvəffəqiyyət qazanmalarına və təhsilin optimallığına şərait yaratmalıdır;

-tərbiyəçi-müəllimlərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

-uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;

- uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;

- hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Dəyərləndirmənin aparılmasında məqsəd təlimin keyfiyyətini yaxşılaşdırmaq, tədris prosesinin səmərəliliyini təmin etmək, uşaq fəaliyyətinin inkişafını izləmək və istiqamətləndirməkdən ibarətdir.

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt uşağın əhval-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir. Tərbiyəçi-müəllim istənilən vaxtda uşağın davamiyyətini yaxşılaşdırmaq, onun məktəbəqədər müəssisəyə həvəslə gəlməsinə təsir göstərmək məqsədilə müxtəlif vasitələrdən istifadə edərək uşağın təlim nailiyyətlərini qiymətləndirir.

Uşaqlar təlim nailiyyətlərini müxtəlif yolla nümayiş etdirirlər. Münasib qaydada seçilmiş vaxt uşağın əhvali-ruhiyyəsi, verilən sualların xarakteri, məzmunu ilə uşağın tanışlığı, uşağın təlim dilini asanlıqla başa düşməsi nəticələrə əhəmiyyətli dərəcədə təsir göstərir.

Dəyərləndirmə:

- uşaqların bilmədiklərini və ya bacarmadıqlarını aşkar etməyə deyil, bilik və bacarıqlarını göstərməyə xidmət edir;

- Tərbiyəçi-müəllimlərin planlaşdırdıqları məşğələlərin və tətbiq etdikləri təlim strategiyalarının təcrübədə nə dərəcədə səmərəli olduğunu müəyyən etməyə, habelə məktəbəqədər

yaşlı uşaqların nəzərdə tutulan təlim nəticələrinə nail olmalarını təmin etmək üçün lazım olan dəyişiklikləri həyata keçirməyə imkan yaradır;

-uşaqda mənfi hisslər oyatmadan, onun özünəinamını və irəli getmək səylərini möhkəmləndirərək müsbət emosional şəraitdə aparılır;

- uşaqların təlim fəaliyyətinə dair toplanmış müxtəlif formalı dəlillərə əsasən vaxtaşırı aparılır;

- hər bir uşağın xüsusi ehtiyaclarına, öyrənmə üsuluna və inkişaf mərhələsinə həssaslıqla yanaşmanı əks etdirir.

Dəyərləndirmə zamanı uşağın hərəkət və davranışları, müəyyən şəraitdə fəaliyyətinin nəticələri qiymətləndirmənin obyektinə çevrilir; qiymətləndirmə zamanı uşağın hərtərəfli inkişafı nəzərə alınır; uşaqlar özlərinin və yoldaşlarının nailiyyətlərinin qiymətləndirilməsi prosesində iştirak edir; uşağın mövcud və əvvəlki nəticələri arasında müqayisə aparılır; uşağın valideynləri və təhsil mütəxəssisləri ilə mütəmadi əlaqə saxlanılır və hər bir uşağın nailiyyətlərini müntəzəm olaraq izləyir.

Dəyərləndirmə müşahidə prosesi, qeydlərin aparılması, böyümə və inkişafın izlənilməsinin nəticələrinin sənədləşdirilməsidir. Bu fasiləsiz bir prosesdir və çoxsaylı resurslar cəlb edir. Dəyərləndirmə erkən yaşlı uşaqların xarakterini əhatə etməlidir.

Dəyərləndirmə zamanı aşağıdakı prinsiplər rəhbər tutulmalıdır:

- məktəbəqədər yaşlı uşaqların nə edə bilmədiyini deyil, onların nə etdiyini göstərir;

-uşağı başqaları ilə deyil, özü ilə müqayisə edərək nəzərdən keçirir;

-uşağı bütövlükdə nəzərdə tutur.

**Məktəbəqədər müəssisəyə qəbul zamanı uşağın sonrakı inkişafının təmin olunması məqsədilə aşağıdakı formada anketin təqdim olunması məqsədəuyğundur.**

1.**Uşaq:**

***a).Soyad və ad***____________________________________________________

***b). Təvəllüdü***_______________________________________________________

***c) Yaşadığı ünvan***________________________________________________

***2.Ata: Soyad və ad***________________________________________________

***a) Təhsili, ixtisas və iş yeri***____________________________________________

***3. Ana: Soyad və ad***_______________________________________________

***a) Təhsili, ixtisas və iş yeri***__________________________________________

***4. Ailə tərkibi (uşaqla daima kim yaşayır)***

***a). Böyüklər:***____________________________________________________

***b). (Uşaqlar yaş):***________________________________________________

***5. Uşaq ailənin hansı üzvünə daha çox bağlıdır***__________________________

***6. Uşağın tərbiyəsilə əsasən kim məşğul olur***_____________________________

***7. Uşağın vərdişi, maraqları, hobbisi***_______________________________________

***8.Uşağın xüsusi istedadı***______________________________________________

***9.Uşağın xasiyyətində sizi nə narahat edir:***________________________________

***Diaqnostik (ilkin) qiymətləndirmə*** zamanı uşaqlar haqqında toplanan məlumat onların inkişafında mövcud olan fərqləri aşkar edir və təlimin planlaşdırılması üçün şərait yaradır. Diaqnostik mərhələdə

toplanan məlumatlar gələcəkdə uşağın inkişafının izlənilməsi və müqayisələrin aparılması üçün indikatorlar (göstəricilər) yaradır.

| **Meyarlar** | **Tərbiyəçi-müəllimlər** | | | **Valideynlər** | | |
|---|---|---|---|---|---|---|
| | **İlin əvvəli** | | | **İlin əvvəli** | | |
| | **Yerinə yetirir** | **Qismən yerinə yetirir** | **Yerinə yetirmir** | **Yerinə yetirir** | **Qismən yerinə yetirir** | **Yerinə yetirmir** |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

*Formativ (davamlı)* **qiymətləndirmə üçün cədvəl nümunələri**

**İnkişaf səviyyəsi cədvəlləri**

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. 1-2 yaş**

| Meyarlar | I rüb | | | 2 rüb | | | 3 rüb | | | 4 rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Sərbəst yeriyir, 3-4 metr məsafəyə qaçır. | | | | | | | | | | | | |
| Maneələrdən yan keçir. | | | | | | | | | | | | |
| Böyüklərin köməyi ilə pilləkənlə düşür və qalxır. | | | | | | | | | | | | |
| Topu döşəmə üzərində diyirlədir. | | | | | | | | | | | | |
| Əlində tutduğu əşyalardan (karandaş, top, oyuncaq) təyinatına görə istifadə edir. | | | | | | | | | | | | |
| Şəxsi gigiyena əşyalarını (daraq, dəsmal və s.) tanıdığını nümayiş etdirir. | | | | | | | | | | | | |
| Qaşıqdan istifadə edir. | | | | | | | | | | | | |
| Fincanı iki əli ilə tutaraq suyu içir. | | | | | | | | | | | | |
| Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur. | | | | | | | | | | | | |
| Burun dəsmalından istifadə edir . | | | | | | | | | | | | |
| Elementar təhlükəsizlik qaydalarına (qaynar əşyalara, sobaya əl vurmamaq) əməl edir. | | | | | | | | | | | | |

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. 2-3 yaş**

| Meyarlar | I rüb | | | 2 rüb | | | 3 rüb | | | 4 rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Yeriş və qaçiş hərəkətlərini icra edir. | | | | | | | | | | | | |
| Yerişdən qaçışa, qaçışdan yerişə keçir, müvazinətini saxlamaqla yeriyir. | | | | | | | | | | | | |
| Sürünmə, dırmanma hərəkətlərini icra edir. | | | | | | | | | | | | |
| Yerində atılıb-düşür (ayaqları bir yerdə), irəli doğru tullanır. | | | | | | | | | | | | |
| Topu buru-birinə atır,təpiklə vurur. | | | | | | | | | | | | |
| Əşyanı (karandaş, plastilin, top və oyuncaqları) barmaqları arasında saxlayaraq şəkil çəkmə, yapma, atıb-tutma kimi hərəkətləri sadə tərzdə yerinə yetirir. | | | | | | | | | | | | |
| İlkin gigiyena qaydalarına (daraq, dəsmal, burun dəsmalından istifadə etmək və s.) əməl edir. | | | | | | | | | | | | |
| Masa arxasında davranışını ümumi qaydalara əsasən tənzimləyir. | | | | | | | | | | | | |
| Yemək dəstlərindən-qaşıqdan istifa- də edir, ağzını və əllərini salfetlə silir. | | | | | | | | | | | | |
| Böyüklərin nəzarəti altında əllərini sabunla yuyur və qurulayır. | | | | | | | | | | | | |
| Təhlükəli situasiyalarda ehtiyatlılıq nümayiş etdirir. | | | | | | | | | | | | |

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. 3-4 yaş**

| Meyarlar | I rüb | | | 2 rüb | | | 3 rüb | | | 4 rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Müxtəlif istiqamətlərə yeriş və qaçiş hərəkətlərini icra edir; | | | | | | | | | | | | |
| Dırmanma, gimnastik skamyanın üstü ilə sürünmək və kürəciyi bir-birinə tərəf diyirlədir. | | | | | | | | | | | | |
| 15 sm. hündürlüyündə maneədən tullanaraq, iki ayağı üstə yerə düşür. | | | | | | | | | | | | |
| Topu başı üzərindən atır və yerdən sıçrayan topu tutur. | | | | | | | | | | | | |
| Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir. | | | | | | | | | | | | |
| Sadə gigiyena qaydalarını mənimsədiyini nümayiş etdirir; | | | | | | | | | | | | |
| Sabundan düzgün istifadə edir, əlini, üzünü, qulağini yuyur və quruluyur. | | | | | | | | | | | | |
| Daraq, burun dəsmalı və ya salfetdən istifadə edir. | | | | | | | | | | | | |
| Masa arxasında yemək dəstindən müstəqil istifadə edir. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sadə özünəxidmət bacarıqlarını (əllərini özü yuyur, soyunur, geyinir), fəaliyyətini ardıcıllıqla (ayaqqabının bağını açıb-bağlayır, paltarını düymələyir) yerinə yetirir. | | | | | | | | | | | | |
| Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə(yandırıcı, kəsici, deşici) görə fərqləndirir. | | | | | | | | | | | | |
| Kəsici, deşici, yandırıcı əşyalar,elektrik cihazları və heyvanlar, tanış olmayan adamlarla ehtiyatla davranma qaydalarını bildiyini nümayiş etdirir. | | | | | | | | | | | | |

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik. 4-5 yaş**

| Meyarlar | I rüb | | | 2 rüb | | | 3 rüb | | | 4 rüb | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir | Yerinə yetirir | Qismən yerinə yetirir | Yerinə yetirmir |
| Fiziki hərəkətləri verilən komandaya uyğun yerinə yetirir. | | | | | | | | | | | | |
| Müxtəlif istiqamətlərə yeriyir və qaçır. | | | | | | | | | | | | |
| Müxtəlif əşyaların üstü və arası ilə sürünür, gimnastika nərdivanına dırmanır. | | | | | | | | | | | | |
| Müxtəlif hərəkətləri yerinə yetirərkən müvazinətini saxlayır. | | | | | | | | | | | | |
| İrəliyə doğru tullanır. | | | | | | | | | | | | |

| | | | | | | | | | | | | |
